23 fevral 2018-ci il
№07 (8773)

www.muallim.edu.az
muallim@edu.gov.az

# AZƏRBAYCAN MÜƏLLİMİ

*Təhsil millətin gələcəyidir!*
*Heydər Əliyev*

Azərbaycan Respublikası Təhsil Nazirliyinin orqanı

## Bu sayımızda

**ADPU-nun Pedaqoji Forumunda ilk dinləmə**
⇨səh.5

**Təhsilin keyfiyyətinin yüksəldilməsində qiymətləndirmənin rolu**
⇨səh.8

**Azərbaycan dili fənninin tədrisində müasir təlim texnologiyaları**
⇨səh.8

**Dövlət Proqramı təqaüdçüləri harada işləyirlər?**
⇨səh.11

# Birinci sinfə elektron qəbulun əhatəsi genişləndi

Məktəbəhazırlıq qruplarına cəlb edilən uşaqlar üçün proses daha da asanlaşdı



Ölkədə əhalinin artım dinamikası birinci sinfə qəbulda da özünü göstərib. Belə ki, ötən il təhsil müəssisələrinə 50 minə yaxın şagird qəbulu aparılmışdısa, bu il məktəblərə 51 mindən artıq uşağın birinci sinfə qəbul olacağı proqnozlaşdırılır. Təhsil Nazirliyi vətəndaş məmnuniyyətinə nail olmaq və şəffaflığı təmin etmək məqsədi ilə Bakı şəhərində məktəbə qəbulu elektron sistem vasitəsilə aparır. Bu ildən ilk dəfə olaraq Gəncə və Sumqayıt şəhərlərində, o cümlədən Abşeron rayonunda da eyni qayda tətbiq ediləcək.

Qeyd edək ki, sözügedən xidmət "Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 23 may 2011-ci il tarixli fərmanının tələblərinə uyğun olaraq həyata keçirilir.

**Bakı şəhərində qəbula start verildi**

Birinci sinfə qəbulda 4 ildir ki, tətbiq edilən və bu ildən əhatə dairəsi bir az da genişləndirilən elektron sistem Bakıda artıq aktivləşdirilib.

Bakı şəhərində I sinfə şagird qəbulunun elektron sistem vasitəsilə həyata keçirilməsi fevralın 22-si saat 10:00-dan başlayıb və proses sentyabrın 15-dək davam edəcək.

⇨**Ardı səh.5**

# Daha həyəcanlı və məsuliyyətli günlər qarşıdadır

Bu gün qloballaşan dünyanın yeni çağırışları yüksək biliyə malik gənclərin daha çox olmasını tələb edir. Ölkəmizin ümumi təhsil müəssisələrində gedən proseslər, həyata keçirilən bir sıra tədbirlər də məhz böyüməkdə olan gənc nəsildə müasir düşüncə tərzinin formalaşdırılmasına, onların idarəetmə və tədqiqatyönlü fəaliyyətə cəlb edilməsinə hədəflənib. Təhsil Nazirliyinin reallaşdırdığı "Sabahın alimləri" müsabiqəsi də şagirdlərdə tədqiqat aparmaq, elmi nəticələri ümumiləşdirmək və təqdim etmək bacarıqları, həmçinin onlarda elmi təfəkkür tərzi və tədqiqatçılıq vərdişləri aşılamaq baxımından son illərin ən uğurlu layihələrindən biri hesab edilə bilər.

2012-ci ildən təşkil olunan müsabiqənin digər bir özəlliyi isə yuxarı sinif şagirdlərinə tədqiqat aparmaq, öz elmi nailiyyətlərini nümayiş etdirmək imkanı yaratmaqla yanaşı, müsabiqənin qaliblələri sırasından ən yaxşı layihələrin müəlliflərinin hər il ABŞ-da təşkil olunan İntel İSEF-Beynəlxalq Elm və Mühəndislik Sərgisində iştirak etmək üçün seçilməsidir. Onu da qeyd edək ki, "Sabahın alimləri" müsabiqəsi riyaziyyat, fizika, kimya, biologiya, tibb və sağlamlıq, ekologiya, mühəndislik, kompüter elmləri üzrə keçirilir. Son 6 il ərzində müsabiqədə 928 şagird iştirak edib, onlardan 450 nəfəri müxtəlif mükafatlar qazanıb. Qaliblər arasından seçilən 35 ən yaxşı layihənin müəllifi ABŞ-da keçirilən Beynəlxalq Elm və Mühəndislik Sərgisində iştirak edib.

Elə ötən həftənin təhsillə bağlı növbəti uğurlu hadisələrindən biri də "Sabahın alimləri" VII Respublika müsabiqəsinin keçirilməsi idi. Fevralın 14-də açılışı olan və 16-da qaliblərin mükafatlandırılması ilə yekunlaşan müsabiqə növbəti dəfə şagirdlərə qalibiyyət sevinci yaşatması ilə yaddaqalan olub.

Bu il münsiflər heyəti tərəfindən 79 şagirdin hazırladığı 46 layihə seçilib. I yerə 12 şagird (7 layihə), II yerə 28 şagird (15 layihə), III yerə 39 şagird (24 layihə) layiq görülüb. Əvvəlki illərdən fərqli olaraq bu il münsiflər heyətinin tərkibinə fransalı mütəxəssis də cəlb olunub.

Mərasimdə 8 nominasiya üzrə seçilən qaliblər təltif olunduqdan sonra bu ilin may ayında ABŞ-da keçiriləcək İntel İSEF-Beynəlxalq Elm və Mühəndislik Sərgisində iştirak edəcək layihə müəlliflərinin adları da məlum olub.

ABŞ-da keçirilən İntel İSEF-Beynəlxalq Elm və Mühəndislik Sərgisində iştirak edəcək layihə müəllifləri ömür səhifələrinə sevincli və qürurverici anlar kimi daxil olan müsabiqə ilə bağlı təəssüratlarını "Azərbaycan müəllimi" qəzeti ilə bölüşüblər.

⇨**Ardı səh.3**

# Tələbələrin köçürülməsinin nəticələri məlum olub

Tələbələrin ölkə daxilində və xaricdə yerləşən ali təhsil müəssisələrindən köçürülməsi, yaxud bir ixtisasdan digərinə dəyişdirilməsi, eləcə də ölkəmizdə yerləşən orta ixtisas təhsili müəssisələrində, magistratura səviyyəsində təhsilalanların köçürülməsi üzrə nəticələr məlumdur.

Bu il bakalavriatura və magistratura üzrə 1067 nəfərin sorğusu təsdiq olunub. Bakalavriatura üzrə yerli ali təhsil müəssisələrindən 650, xaricdəki universitetlərdən 26, magistratura üzrə 15, orta-ixtisas təhsili üzrə 186 nəfərin sorğusuna müsbət cavab verilib.

Transfer.edu.az portalı 2016-cı ildə tələbələrin köçürülmə prosesinin sadələşdirilməsi və şəffaflığın təmin edilməsi məqsədi ilə istifadəyə verilib. Tələbələrin bir ali təhsil müəssisəsindən digər ali təhsil müəssisəsinə, yaxud bir ixtisasdan digərinə köçürülməsi Təhsil Nazirliyinin razılığı ilə qış və yay tətili dövründə həyata keçirilir.

# Təhsildə sosial şəbəkələr: reallıq, yoxsa utopiya?

Pedaqoji mühit üçün müasir problemlər

Müdriklərdən biri deyib ki, "heç kim keçmişini dəyişə bilməz, ancaq hamımız gələcəyimizi dəyişməyə müvəffəq ola bilərik". Bu kəlamı günümüzdə yeri gəldikcə bir çox sahəyə nəzərən söyləmək olar. İnternet və informasiya texnologiyaları ilə az-çox əlaqəli şəxs bəlkə də hər gün bu dəyərli sözlərin çəkisini hiss etməkdədir. Bu gün internetlə bu və ya digər formada əlaqəsi olmayan şəxslə rastlaşmaq asan məsələ deyil. Söhbət heç də ondan getmir ki, hamı monitor qarşısında oturub dünyada baş verənləri internetdən öyrənir, yaxud sosial şəbəkələrdə aktual problemlərin müzakirəsinə qoşulub. İnternet sadəcə hər yerdədir: Azərbaycanın ən ucqar kəndində belə, smartfon sizi ümumdünya informasiya şəbəkəsinə bağlaya bilər.

Bazarlıqdan tutmuş kommunal xərclərin ödənməsinədək, kiçik pul köçürmələrindən iri maliyyə əməliyyatlarınadək hər yerdə internetdən istifadə edirik. İnternet, eyni zamanda, əyləncə və asudə vaxt keçirmək üçün məkandır. Dünyada nə baş verirsə-versin, sayılı dəqiqələrdən sonra internetdədir. Ancaq bütün bunlara rəğmən internetdə heç nə sosial şəbəkələr qədər maraq və hətta önəm kəsb edə bilməz. Bu gün sosial şəbəkələr internet auditoriyasının böyük bir hissəsi üzərində ağırlığa malik ən populyar servisdir.

Sosial şəbəkələr ilk dəfə ABŞ-da meydana gəlsə də, dünyanın istənilən yerində müasir həyatı - əyləncədən tutmuş işgüzar əlaqələrədək bu servissiz təsəvvür etmək mümkün deyil. Hesablamalara görə, dünya əhalisi ay ərzində orta hesabla 3,7 saatı sosial şəbəkələrdə keçirir. Elə ölkələr var ki, ayrıca götürüldükləri halda bu göstərici daha da yüksəkdir. Məsələn, Rusiya əhalisi ay ərzində ortalama təqribən 6,6 saat sosial şəbəkələrdən birində olur. Bu baxımdan, ümumdünya ünsiyyət şəbəkəsi elə bil ayrıca bir ölkədir: burada "yaşayırlar", "görüşürlər", "ünsiyyətdə olurlar", hətta "evlənirlər". Sanki adi həyatda bütün bunları edə bilmədikləri qədər. Sosial şəbəkələrin hər günü, hər saatı, hər dəqiqəsi, hətta hər saniyəsi belə tükənməyən məlumat axınından ibarətdir. Şəxsi məzmunlu informasiyadan tutmuş ümummilli, bəşəri mahiyyət kəsb edən xəbərədək. Şəkil və video mübadiləsi, paylaşılan və bölüşülən sosial, siyasi, mədəni xəbərlər. Onların içində neqativ məzmunlusu da olur, pozitivi də. Sosial şəbəkələrdən hər məqsədlə istifadə olunur və təəssüf ki, bir çox halda bu, əyləncə və sevinc yox, kədər, depressiya, stress və psixoloji gərginlik də deməkdir.

⇨**Ardı səh.6**

# Model kimi Avstriya...

...Mentalitet baxımından Türkiyə təcrübəsi

Respublikamızda sağlamlıq imkanları məhdud, kimsəsiz və aztəminatlı uşaqlar həmişə dövlətimizin diqqət və qayğısı ilə əhatə olunub. Son illər bu sahəyə ölkə Prezidenti cənab İlham Əliyev, Birinci vitse-prezident Mehriban xanım Əliyeva tərəfindən xüsusi diqqət yetirilərək, onların sosial rifahının yüksəldilməsi, sağlam böyüyüb təhsil almaları istiqamətində xeyli işlər görülüb, bir sıra dövlət proqramları həyata keçirilib. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən 2006-cı ildə təsdiq edilən "Azərbaycan Respublikasında dövlət uşaq müəssisələrindən uşaqların ailələrə verilməsi (De-institusionalizasiya) və alternativ qayğı Dövlət Proqramı (2006-2015-ci illər)" isə uşaqların müdafiəsi sahəsində həyata keçirilən ən vacib dövlət proqramlarından biridir. Məhz həmin Dövlət Proqramının icrasının nəticəsi olaraq, ölkəmizdə Ailə tipli kiçik qrup evləri yaradılmışdır. Qeyd edək respublikamızda hazırda iki Ailə tipli kiçik qrup evi fəaliyyət göstərir. Bunlardan biri paytaxtda, digəri isə Lənkəran şəhərindədir. Kiçik qrup evlərinin yaradılmasında əsas məqsəd uşaqlara ev şəraitində qayğı göstərməkdir. Qrup evlərinin əsas vəzifələri isə uşaqlar üçün ev şəraitində qayğını təmin etmək, uşağın yaş və fərdi xüsusiyyətlərini nəzərə almaqla onun mənəvi, fiziki, psixoloji və sosial inkişafını, müxtəlif vərdiş və bacarıqlarını formalaşdırmaqdan ibarətdir. Bundan başqa, uşağın hüquq və mənafelərini müdafiə etmək, müstəqil həyata və cəmiyyətə inteqrasiya olması üçün hazırlamaq da qrup evlərinin əsas vəzifələrindəndir.

Nəzərə çatdıraq ki, Bakıdakı 1 nömrəli Ailə tipli kiçik qrup evi 2012-ci ildən Azərbaycan Respublikasında dövlət uşaq müəssisələrindən uşaqların ailələrə verilməsi (De-institusionalizasiya) və alternativ qayğı Dövlət Proqramı"nın çərçivəsində yaradılan ilk belə müəssisədir.

⇨**Ardı səh.12**



# "Ən peşəkar teatr səhnələrində özümü görə bilirəm"

*Sevgin Rzayeva:* "SABAH qrupu bizə əsl aktyor həyatı yaşatdı"

**Səh.14**

## RƏSMİ XRONİKA



■ Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 22-də Azərbaycan Ağsaqqallar Şurasının sədri, Milli Məclisin deputatı Fəttah Heydərova "İstiqlal" ordenini təqdim edib.

■ Dövlət başçısı İlham Əliyev fevralın 22-də Fəxri adlara görə aylıq təqaüdlərin artırılması və "Fəxri adlara görə aylıq təqaüdün verilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 4 iyul tarixli 878 nömrəli sərəncamında dəyişikliklər edilməsi barədə sərəncam imzalayıb.

■ Fevralın 21-də ölkə başçısı İlham Əliyev İran İslam Respublikasının müdafiə və silahlı qüvvələrə dəstək naziri Əmir Hatəminin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

■ Prezident İlham Əliyev fevralın 21-də Niderland Krallığı Senatının sabiq sədri, Avropa Şurası Parlament Assambleyasının sabiq prezidenti, Azərbaycan-Niderland Dostluq Qrupunun sədri Rene Van der Lindeni qəbul edib.

■ Fevralın 21-də dövlət başçısı İlham Əliyev Akademik Musa Əliyevin 110 illiyinin qeyd edilməsi haqqında sərəncam imzalayıb.

■ Prezident İlham Əliyev fevralın 21-də məcburi köçkünlər və onlara bərabər tutulan şəxslər üçün vahid aylıq müavinətin artırılması haqqında sərəncam imzalayıb.

■ Ölkə başçısı İlham Əliyev fevralın 20-də Azərbaycanın Milli Qəhrəmanı adı verilmiş şəxslərin sosial müdafiəsinin gücləndirilməsi və "Azərbaycanın Milli Qəhrəmanı adı verilmiş şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 14 iyul tarixli 258 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə Fərman imzalayıb.

■ Fevralın 20-də dövlət başçısı İlham Əliyev "Azərbaycan Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurasının üzvlərinin təyin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 1 oktyabr tarixli 586 nömrəli Fərmanının ləğv edilməsi barədə Fərman imzalayıb.

■ Azərbaycan Prezidenti İlham Əliyev fevralın 20-də I qrup əlilliyə görə sosial müavinət alan bəzi kateqoriyalı şəxslərə, Əfqanıstanda sovet qoşunlarının tərkibində beynəlmiləl borcunu yerinə yetirərkən həlak olan, itkin düşmüş və məhkəmə qaydasında ölmüş elan edilən hərbi qulluqçuların ailələrinə, 1941-1945-ci illər Böyük Vətən müharibəsində iştirak etmiş bəzi kateqoriyalardan olan şəxslərə verilən Azərbaycan Respublikası Prezidentinin təqaüdünün artırılması haqqında sərəncamlar imzalayıb.

■ Fevralın 20-də dövlət başçısı İlham Əliyev Azərbaycan Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurasının üzvlərinin təyin edilməsi haqqında sərəncam imzalayıb.

■ Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 19-da Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaarın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

■ Dövlət başçısı İlham Əliyev fevralın 19-da Şəhid ailələrinə, müharibə əlillərinə, 1990-cı ilin 20 Yanvar hadisələri ilə əlaqədar əlil olmuş şəxslərə verilən Azərbaycan Respublikası Prezidentinin təqaüdünün artırılması haqqında sərəncamlar imzalayıb.

■ Dövlət başçısı İlham Əliyev fevralın 19-da Arif İmran oğlu Babayevin "Şərəf" ordeni ilə təltif edilməsi haqqında sərəncam imzalayıb.

■ Fevralın 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İran İslam Respublikasının Prezidenti Həsən Ruhaniyə ölkəsində sərnişin təyyarəsinin qəzaya uğraması nəticəsində çoxsaylı insan tələfatı ilə əlaqədar başsağlığı verib.

## Ağdam, Laçın, Füzuli və Tərtər rayonlarında təhsil infrastrukturunun inkişafı ilə əlaqədar tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasında təhsil infrastrukturunun yenidən qurulması məqsədi ilə **qərara alıram:**

**1.** Ağdam, Laçın, Füzuli və Tərtər rayonlarında cəmi 444 şagird yerlik modul tipli 8 məktəbin (siyahı əlavə olunur) quraşdırılması məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 22 yanvar tarixli 3593 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.11.2-ci yarımbəndində göstərilmiş məbləğin 2590000 (iki milyon beş yüz doxsan min) manatı Azərbaycan Respublikasının Təhsil Nazirliyinə ayrılsın.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

**3.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 16 fevral 2018-ci il*

*Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 16 fevral tarixli Sərəncamına Əlavə*

## Ağdam, Laçın, Füzuli və Tərtər rayonlarında quraşdırılması nəzərdə tutulan modul tipli məktəblərin siyahısı

| Sıra №-si | Təhsil müəssisələrinin adları | Ayrılan vəsait |
|---|---|---|
| 1 | Ağdam şəhər 85 nömrəli 96 şagird yerlik modul tipli köçkün tam orta məktəbin quraşdırılması | 425 000 |
| 2 | Tərtər rayonu Kovdadıq kənd 20 şagird yerlik modul tipli ibtidai məktəbin quraşdırılması | 230 000 |
| 3 | Tərtər rayonu Zolgəran kənd 56 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 315 000 |
| 4 | Füzuli şəhər 24 nömrəli 56 şagird yerlik modul tipli tam orta məktəbin quraşdırılması | 330 000 |
| 5 | Füzuli şəhər 20 nömrəli 80 şagird yerlik modul tipli tam orta məktəbin quraşdırılması | 390 000 |
| 6 | Laçın rayonu Ağbulaq kənd 56 şagird yerlik modul tipli tam orta məktəbin quraşdırılması | 330 000 |
| 7 | Laçın rayonu Sonasar kənd 40 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 285 000 |
| 8 | Laçın rayonu Katos kənd 40 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 285 000 |
| | Cəmi | 2 590 000 |

# SABAH II Karyera Qış Məktəbində təlimlər başa çatıb

### SABAH tələbələrinə uğurlu karyera başlanğıcı üçün lazım olan bacarıqlar aşılanıb

SABAH Karyera Akademiyası çərçivəsində Qubada keçirilən SABAH II Karyera Qış Məktəbində təlimlər başa çatıb.

Təlimlərin keçirilməsində məqsəd sonuncu kursda təhsil alan SABAH tələbələrinə uğurlu karyera başlanğıcı üçün lazım olan bacarıqların aşılamaq olub.

Bakı Dövlət Universitetinin Quba rayonunda yerləşən tədris-təcrübə və istirahət mərkəzində keçirilən təlimdə 100-ə yaxın tələbə iştirak edib. Təlimlərdə SABAH tələbələri işədüzəlmə, magistratura təhsili, akademik fəaliyyət, startap və sahibkarlıq sahələri üzrə bilik və bacarıqlarının artırılması mövzularında təlim keçiblər. Həmçinin tələbələr karyera planlaşdırılması, CV və rezume yazılışı, müsahibə, təqdimat bacarıqları və digər mövzular üzrə məlumatlar əldə ediblər.

Təlimlərdə iş həyatına yeni başlamağa hazırlaşan gənclərə biznes plan, müasir bazarın tələbləri, tələb və təklifin qiymətləndirilməsi, uğurlu karyera əldə etmək üçün praktik vərdişlər aşılanıb, fərdin özünü tanıması, iş dünyasına hazırlanması və iş həyatında uğur əldə etməsi ilə bağlı istiqamətlər verilib.

Layihə çərçivəsində SABAH əməkdaşlarının tədrisin təşkilinə dair seminarı keçirilib. Seminarda SABAH İcra Komitəsinin Tədris işləri üzrə rəhbəri, ali təhsil müəssisələrinin SABAH mərkəzinin rəhbərləri və təhsil ekspertləri tərəfindən ali təhsil müəssisələrinin hüquqi statusu, strukturu, bakalavriat səviyyəsində təhsil proqramları, standartlar, kreditlərin hesablanması, müəllimin illik dərs yükünün həcmi və strukturu, müəllim- tələbə etik davranış qaydaları, qabaqcıl xarici təcrübə ilə müqayisəli təhlil, müəllimlərin tədris keyfiyyətinin monitorinqi mövzularında təlim keçirilib. Seminarda təhsil qanunvericiliyi, onların tətbiqi məsələləri, mövcud problemlər və həlli istiqamətində geniş müzakirələr aparılıb.



İki gün davam edən təlimlərin sonunda təlimçilərə SABAH qrupları layihəsi tərəfindən təşəkkürnamələr, tələbələrə isə sertifikatlar verilib.

SABAH Karyera Akademiyası 2017-ci ildə SABAH məzunlarının gələcək peşəkar inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi və bu sahədə tələbələrə dəstək verilməsi məqsədilə yaradılıb.

Akademiya peşəkar karyera, magistratura təhsili, sahibkarlıq, elmi araşdırma olmaqla 4 istiqaməti əhatə edir. SABAH Karyera Akademiyası çərçivəsində "SABAH" Karyera İnkişafı Sərgisi, "SABAH" Xaricdə Təhsil Sərgisi, "SABAH" İnnovasiya Forumu təşkil edilib.

Ötən il olduğu kimi, bu il də bir çox tərəfdaş şirkətlər ("Azercell", "Kapital Bank", "GoldenPay", "Clarivate Analytics" və s.) və təlimçilər Qış Məktəbinin təşkilinə yaxından dəstək olublar.

SABAH qrupları Təhsil Nazirliyinin təşəbbüsü ilə 2014-2015-ci tədris ilindən etibarən dövlət ali təhsil müəssisələrində tədrisin keyfiyyətinin yüksəldilməsi, yenilikçi mühitin yaradılması məqsədilə formalaşdırılmış müxtəlif ixtisaslar üzrə savadlı, bacarıqlı, hazırlıqlı tələbələrdən ibarət qruplardır. Hazırda SABAH qrupları 12 ali təhsil müəssisəsində fəaliyyət göstərməklə 45 ixtisas üzrə 2300-dən artıq tələbəni əhatə edir.

## Təhsil nazirinin müavini Efiopiyanın ölkəmizdəki səfiri ilə görüşüb

Fevralın 21-də təhsil nazirinin müavini Firudin Qurbanov Efiopiya Federativ Demokratik Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Ayalev Qobezie Vorkneh ilə görüşüb.

Görüş zamanı ölkələrimiz arasında tarixi əlaqələrə toxunan Firudin Qurbanov təhsil sahəsində də əməkdaşlıq imkanları üçün əlverişli zəmin olduğunu, ötən əsrin 60-80-ci illərində 700-dən çox efiopiyalının Azərbaycanın ali məktəblərində təhsil aldığını qeyd edib. Nazir müavini həmin məzunların hazırda Efiopiyanın müxtəlif dövlət və özəl qurumlarında fəaliyyət göstərdikləri barədə məlumatlı olduğunu diqqətə çatdırıb.



Firudin Qurbanov "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın müəyyən etdiyi hədəflərə uyğun olaraq aparılan islahatlar barədə səfirə məlumat verib.

Səfir Ayalev Qobezie Vorkneh Azərbaycanda təhsil sahəsində aparılan islahatlarla bağlı təcrübənin öyrənilməsində maraqlı olduğunu, iki ölkənin ali məktəbləri arasında əlaqələrin yaradılmasını, həmçinin akademik mübadilənin vacibliyini vurğulayıb.

Görüşdə Azərbaycan və Efiopiya arasında təhsil sahəsində əlaqələrin cari vəziyyəti və gələcək inkişaf perspektivləri müzakirə edilib.

## Məktəblilər arasında epistolyar inşa müsabiqəsinə start verilib

"Azərpoçt" Məhdud Məsuliyyətli Cəmiyyəti Təhsil Nazirliyi ilə birgə ümumtəhsil məktəbliləri arasında epistolyar (məktub şəklində yazı) inşa müsabiqəsinə start verib.

Müsabiqəyə biri Ümumdünya Poçt İttifaqı (ÜPİ) tərəfindən olmaqla 3 mövzu təqdim edilib.

Müsabiqə "Təsəvvür edin ki, siz zaman üzrə səyahət edən bir məktubsunuz. Siz öz oxucularınıza hansı müraciəti çatdırardınız?", "Azərbaycan ordusu:100 illik inkişaf yolu" və "Azərbaycan Xalq Cümhuriyyətinin görkəmli şəxsiyyətləri" mövzuları üzrə keçiriləcək.

Müsabiqə üzrə inşa yazıları aprelin 1-dək təqdim edilməlidir. Müsabiqədə birinci yer üzrə 3 nəfər olmaqla hər biri 150 manat (hər bir mövzu üzrə 1 nəfər), ikinci yer üzrə 6 nəfər olmaqla hər biri 100 manat (hər bir mövzu üzrə 2 nəfər) və üçüncü yer üzrə 9 nəfər olmaqla hər biri 50 manat (hər bir mövzu üzrə 4 nəfər) məbləğində pul mükafatı müəyyən edilib.

ÜPİ-nin təklif etdiyi birinci mövzu üzrə qalib elan edilən inşa yazısı isə Azərbaycan Respublikası adından Ümumdünya Poçt İttifaqının mərkəzi olmasına - İsveçrənin Bern şəhərinə göndəriləcək.

Azərbaycan, rus və yaxud ingilis dillərindən birində yazılacaq inşaların həcmi 1000 sözdən artıq olmamalıdır. Müsabiqənin şərtlərinə əsasən, ÜPİ-nin üzvü olan hər bir ölkədən yazılar 5 may 2018-ci il tarixindən gec olmayaraq təşkilatın Beynəlxalq Bürosuna göndərilməlidir. Müsabiqə şərtlərinə görə, toplanan inşalar YUNESKO-nun təşkil etdiyi münsiflər heyətinə təqdim olunacaq. Sonda 3 əsas qalib və 5 laureat seçiləcək.

Qaliblər qızıl, gümüş, bürünc medallarla, laureatlar isə xüsusi hədiyyələrlə mükafatlandırılacaq. Qızıl medalın sahibi olan məktəbli Beynəlxalq Büronun prizini almaq üçün İsveçrənin Bern şəhərinə dəvət olunacaq.

Gümüş və bürünc medalların sahiblərinin adları, ən yaxşı inşa yazısı ilə birlikdə "Poçt ittifaqı" jurnalında çap olunacaq. Müsabiqədə iştirak etmək istəyən hər bir şagird inşa yazısını iştirakçı vərəqi ilə birlikdə rayon poçt filiallarına, şəhər poçt filialları üzrə Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi 36, "Azərpoçt" MMC (İndeks: AZ1000) ünvanına göndərməlidir. Mükafatlandırma mərasimi hər il oktyabrın 9-da Ümumdünya Poçt Günü keçirilir.

Qeyd edək ki, Ümumdünya Poçt İttifaqı (ÜPİ) bu təşkilata üzv ölkələrin poçt administrasiyaları ilə birgə 47 ildir ki, müvafiq müsabiqəni təşkil edir.

## Gənc istedadlar üçün xüsusi təqaüdün məbləğinin artırılması və "Gənc istedadlar üçün xüsusi təqaüdlər təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 13 sentyabr tarixli 662 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, gənc istedadlara dövlət qayğısını artırmaq məqsədi ilə **qərara alıram:**

**1.** Azərbaycanın gənc istedadlarının "Qızıl kitabı"na adları yazılmış gənc istedadlar üçün xüsusi aylıq təqaüdün məbləği 2018-ci il martın 1-dən artırılaraq 400 (dörd yüz) manat müəyyən edilsin.

**2.** "Gənc istedadlar üçün xüsusi təqaüdlər təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 13 sentyabr tarixli 662 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997-ci il, № 3, maddə 251; 2007, № 2, maddə 146) 1-ci hissəsində "300" rəqəmləri "400" rəqəmləri ilə əvəz edilsin.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 22 fevral 2018-ci il*

## Dünya Skaut Hərəkatı Təşkilatının nümayəndə heyəti ilə görüş




Fevralın 20-də təhsil nazirinin müavini Firudin Qurbanov Dünya Skaut Hərəkatı Təşkilatının nümayəndə heyəti ilə görüşüb.

Görüşün məqsədi Dünya Skaut Hərəkatının qeyri-formal təhsil sahəsindəki təcrübəsi haqqında ətraflı məlumat əldə edərək bunu ölkəmizin məktəbdənkənar təhsil müəssisələrində tətbiq etmək olub.

Hərəkatın Təşkilati inkişaf üzrə qlobal direktoru Devid Berq 2017-ci ildə 41-ci Dünya Skaut Konfransı və 13-cü Dünya Skaut Gənclər Forumunun Azərbaycanda keçirilməsinin çox böyük əhəmiyyət daşıdığını nəzərə çatdırıb, Avrasiya regionu, həmçinin Azərbaycanda skaut hərəkatının genişləndirilməsinin onlar üçün vacibliyini qeyd edib.

Firudin Qurbanov məktəbdənkənar fəaliyyətin, uşaq və gənclərin asudə vaxtlarının səmərəli təşkil edilməsinin zəruriliyini vurğulayaraq, qarşılıqlı əməkdaşlığın gücləndirilməsi istiqamətində danışıqların aparılmasının əhəmiyyətini diqqətə çatdırıb.

Görüşün sonunda tərəflər mövcud əməkdaşlığın genişləndirilməsində maraqlı olduqlarını bir daha ifadə ediblər.

# Daha həyəcanlı və məsuliyyətli günlər qarşıdadır

⇦ Əvvəli səh.1

## "Sabahın alimləri" ABŞ-da keçiriləcək müsabiqədə də qalib olmağı hədəfləyiblər

**Samirə KƏRİMOVA**


Fidan İBRAHİMOVA


Məhəmməd HACIYEV


Adnan BUNYATOV


Əliağa ABDULLAYEV


Cavid HÜSEYNZADƏ


Ceyla HÜSEYNZADƏ

### Bu, son deyil, ABŞ-da ölkəmizi layiqincə təmsil etməyə hazırlaşıram

*Fidan İbrahimova (Bakıdakı akademik Zərifə Əliyeva adına liseyin X sinif şagirdi):* - Liseyin təbiət təmayüllü sinfində oxuyuram. "Sabahın alimləri" VII Respublika müsabiqəsinə qatılanda heç birinci yerə layiq görüləcəyim ağlımdan keçməmişdi, bu, mənim üçün bir əlçatmaz möcüzə idi. Lakin özümə söz vermişdim ki, çox çalışacağam, əlimdən gəldiyi qədər daha çox məlumat toplayacağam və münsiflərə, müəllimlərə layihəmin mahiyyətini çatdıracağam. Sonda aylardır çəkdiyim əziyyətim hədər getmədi. Biologiya üzrə I yerə layiq görüldüm və ən yaxşı layihə müəllifi kimi ABŞ-da keçiriləcək İntel İSEF-Beynəlxalq Elm və Mühəndislik Sərgisində ölkəmizi təmsil etmək hüququ qazandım. Təqdim etdiyim layihə "Xlorella mikroyosununun metabolizminin məhsuldar istiqamətdə dəyişdirilməsi" adlanır. Bu mövzu məni çox maraqlandırırdı. Biz tədqiqatlarımız zamanı müşahidə etdik ki, müxtəlif stress şəraitləri yaratdıqda, metabolizmi istənilən istiqamətə yönəltmək olar və beləliklə, bir çox bioakiv maddəni, məsələn nişasta, zülal, lipidləri əldə edə bilərik. Bu layihə üzərində işləməkdə, müxtəlif tədqiqatların aparılmasında mənə bir çox insanın köməyi olub. İlk olaraq aylarca mənə dəstək olan elmi rəhbərim Şaiq Mehdiyevə minnətdarlığımı bildirirəm. Mənə düzgün istiqamət verdiyinə görə tanınmış mütəxəssis, professor Ralfrid Həsənova xüsusi təşəkkür etmək istəyirəm. Tədqiqatları aparmağımız üçün Bakı Dövlət Universiteti tərəfindən hər cür şərait yaradılmışdı. Tədqiqatlar apararkən özümü sanki bir alim kimi hiss edirdim. Aylardır məni əhatə edən bu elmi mühitdən razı qalmaqla bərabər, özüm üçün praktik biliklər də əldə etdim.

Mənə hər zaman dəstək olan direktorumuz Mehriban Vəliyevaya, sinif rəhbərim Nigar Axundovaya, biologiya və informatika üzrə fənn müəllimlərim- Natalya Qurbanovaya və Kərim Tahiroğluna təşəkkür edirəm. Müsabiqədə iştirak etməyimdə onların zəhməti əvəzolunmazdır.

Düşünürəm ki, bu müsabiqə bizlərə özünü elmi mühitdə göstərə bilmək üçün möhtəşəm bir şansdır. Müxtəlif ideyalara və abstrakt düşüncəyə malik olan şagirdlərin tanınmasında əla fürsətdir. Dövlətimiz tərəfindən yüksək təhsil almağımız üçün hər cür şərait yaradılıb. Təhsil Nazirliyinin biz şagirdlərin düşüncə tərzlərinin inkişafı, innovativ layihələrlə çıxış etməsi üçün reallaşdırdığı belə müsabiqələr çox önəmlidir. Müsabiqə keçirilən 3 gün ərzində maraqlı məlumatlar əldə etməklə yanaşı, digər məktəblərin şagirdləri ilə ünsiyyətimiz də maraqlı oldu. Bir sözlə, müsabiqə bizlərə unudulmaz təcrübə qazandırdı.

Lakin bu, son deyil... ABŞ-da keçiriləcək İntel İSEF-Beynəlxalq Elm və Mühəndislik Sərgisində ölkəmizi layiqincə təmsil etməyə hazırlaşıram. İnanıram ki, oradan da qələbə ilə geri dönəcəyəm. Bunun üçün isə daha çox çalışmaq, oxumaq gərəkdir.

### Layihəm kütləvi quş ölümlərinin qarşısını alacaq

*Məhəmməd Hacıyev (Bakıdakı 238 nömrəli tam orta məktəbin XI sinif şagirdi):* - Artıq ikinci dəfədir "Sabahın alimləri" müsabiqəsində iştirak edirəm. Keçən il o qədər də hazırlıqlı olmadığımdan yer tuta bilməmişdim. Öz səhvlərimdən nəticə çıxararaq, bu il daha ciddi və məsuliyyətlə hazırlaşdım və müsabiqəyə layihəmi təqdim etdim. Ekologiya və ətraf mühitin idarəolunması üzrə I yerə layiq görüldüm. Hazırladığım layihəm "İnnovativ külək turbinləri" adlanır. İşimin əsas məqsədi küləyin sürəti az olan müddətdə külək turbinlərindən səmərəli istifadə və istehsal olunan enerjini təxminən 2.5-2.8 dəfəyə qədər artırmaqdır. Bununla yanaşı, qurğunun bir çox avantajları misal göstərilə bilər. İlk olaraq "İnnovativ külək turbinləri" kütləvi quş ölümlərinin qarşısını alacaq. İkincisi, radiosiqnallara maneə törətməyəcək, vibrasiyanın ciddi şəkildə qarşısı alınacaq və s. Mən inanıram ki, bu qurğu nəinki ekoloji, həm də iqtisadi baxımdan məhsuldar olacaq.

Layihəm üzərində xeyli işləmişdim. Hər gün qurğu ilə bağlı ağlıma daha maraqlı və kreativ fikirlər gəlirdi. İnanırdım ki, yer tuta bilərəm, ancaq birinci yerə çıxıb ölkəmi ABŞ-da təmsil etmək ağlıma gəlməzdi.

Qeyd etməliyəm ki, "Sabahın alimləri" həyatımda iştirak etdiyim ən həyəcanlı, rəqabətli və eyni zamanda qayğılı müsabiqələrdən biridir. Müsabiqə özümü inkişaf etdirmək üçün yaxşı şərait yaradıb. İstər elmi və fəlsəfi, istərsə də psixoloji və mənəvi cəhətdən bu müsabiqə şəxsi inkişaf üçün əvəzolunmazdır. Xüsusilə, yeni tanışlıqlar, hətta deyərdim ki, dostluqlar müsabiqəyə əsrarəngiz çalar qatır.

Sözsüz ki, bu uğurumda mənim məktəbimin, başda direktorumuz İlqar Talıbov olmaqla, digər müəllimlərimin də zəhməti çoxdur. Bu işdə müəllimim Tamella Kərimova nəzəri baxımdan mənə yardımçı olub. Sinif rəhbərim Sürəyya Məmmədova, direktor müavinləri Səadət Rzayeva, Zemfira İsayeva, Ruhəngiz Heydərovanın üzərimdə əməyi vardır. Xüsusilə, elmi rəhbərim Səyalı Əliyeva belə bir nəticə əldə etməyimdə müstəsna rol oynayıb. O, mənimlə birgə bir çox ərazidə, stansiyalarda və alternativ enerji üzrə ixtisaslaşmış şirkətlərlə görüşdə oldu. Və bu nailiyyətimə görə ona öz dərin təşəkkürümü bildirirəm. Eyni zamanda, atam Tofiq Hacıyevə də öz minnətdarlığımı bildirirəm ki, hər bir işdə mənə dayaq olaraq dəstəkləyib.

Qarşıda məni daha həyəcanlı və məsuliyyətli günlər gözləyir. ABŞ-da ölkəmizi təmsil etmək daha məsuliyyətli və eyni zamanda qürurvericidir. Bildiyiniz kimi, İntel İSEF-Beynəlxalq Elm və Mühəndislik Sərgisinə dünyanın bir çox guşələrindən şagirdlər müxtəlif layihələrlə qatılacaq. Biz azərbaycanlı şagirdlər də uğur qazanmağa iddialıyıq. Niyə də yer tutmayaq? Təhsilimizin uğurları getdikcə artmaqdadır. Mən inanıram ki, biz bunu ABŞ-da da sübut etməyi bacaracağıq.

### Layihə qənaətlilik baxımından faydalıdır

*Adnan Bunyatov (Bakıdakı akademik Zərifə Əliyeva adına liseyin X sinif şagirdi):* - Mən bu müsabiqədə artıq ikinci dəfədir ki, iştirak edirəm. Keçən il II yerə layiq görülmüşdüm. Builki müsabiqədə sinif yoldaşım Əliağa Abdullayevlə birlikdə "Neftin fiziki-kimyəvi xassələrinin dəyişilməsində elektromaqnit sahəsinin rolu" adlı layihə ilə iştirak etdik və fizika, astronomiya bölməsi üzrə I yerə layiq görüldük. Bizim təqdim etdiyimiz layihənin məqsədi neftin qatılığını azaltmaq və neftin çıxarılmasını asanlaşdırmaqla yanaşı, miqdarını çoxaltmaqdır. 10 ay bu layihənin üzərində işləmişik. Layihə qənaətlilik baxımından faydalıdır və ekoloji cəhətdən zərərsizdir. Buna görə də inanırdıq ki, təqdim etdyimiz işlə yer tuta biləcəyik. Mən bizimlə ciddi məğul olan elmi rəhbərimiz Aygün Nəsibovaya, bizi dəstəkləyən və uğur qazanacağımıza inanan bütün şəxslərə təşəkkür edirəm.

### Nə yaxşı ki, Təhsil Nazirliyi tərəfindən belə bir müsabiqə keçirilir

*Əliağa Abdullayev (Bakıdakı akademik Zərifə Əliyeva adına liseyin X sinif şagirdi):* - Birinci dəfə idi ki, belə bir nüfuzlu müsabiqədə iştirak edirəm. Və ilk iştirakım mənə uğur gətirdi. Fizika, astronomiya bölməsi üzrə I yeri qazanaraq ən yaxşı layihə müəllifi olduq. Dostum, eyni zamanda, sinif yoldaşım Adnanın dedikləri ilə mən də şərikəm. Müsabiqə yeni dostlar qazanmağıma, ən əsası, respublikanın tanınmış alim və mütəxəssisləri ilə işgüzar əməkdaşlıq etməyimə imkan yaratdı. Özünəgüvən hissi formalaşdırdı.

Şəxsən mən neft haqqında biliklərimi daha da artırdım. Düşünürəm ki, gələcəkdə neft ilə bağlı başqa işlər də görə bilərəm. Bu müsabiqə biz gənclərə kreativ fikirlərimizi öz tədqiqatlarımızda tətbiq etməyimizə yardımçı oldu.

Nə yaxşı ki, Təhsil Nazirliyi tərəfindən belə bir müsabiqə keçirilir və bizim kimi gənclərə bu innovativ yarışmalarda öz elmi potensialımızı üzə çıxarmağımıza imkan və şərait yaradılır.

### Amma birinciliyi qazanmaq lap əla oldu...

*Cavid Hüseynzadə (Bakıdakı akademik Zərifə Əliyeva adına liseyin X sinif şagirdi):* - Mən bacım Ceyla ilə birlikdə müsabiqədə iştirak etdim. Hər ikimiz birinci dəfə idi ki, bura qatılırdıq. Təbii ki, işləməyə başlayanda yer tutmaq arzusunda idik. Amma birinciliyi qazanmaq lap əla oldu. Kompüter elmləri üzrə ən yaxşı layihə müəllifi seçildik. Çalışdıq ki, müsabiqədə maraqlı bir iş ortaya qoyaq. Layihəmizin adı "TreLop" ("Track and record location of people" TreLop) adlanır. Bu, bir proqramdır. Biz ilk vaxtlar bunu yaddaşı zəif olan, yaşlı nəsil üçün nəzərdə tutsaq da, sonradan onun daha geniş istifadəsi üzərində işləməyə başladıq. Məsələn, bu proqram telefona yüklənir və onunla internetdən istifadə etmədən telefon sahibinin harada, nə zaman olmasını rahatlıqla müşahidə edə bilərik. Eyni zamanda, bu proqramın ən vacib üstünlüklərindən biri də yaddaşı zəif olan insanların nəyi itirməsini, ya da harada olmasını rahatlıqla təyin etməsidir. Bu layihə üzərində 5 ay işləmişik.

Müsabiqə zamanı Azərbaycanın müxtəlif bölgələrindən gələn şagirdlərlə, onların kreativ layihələri ilə tanış olduq. Özümüzə yeni dostlar qazandıq. Və ən əsası, bu müsabiqə özümüzə inamımızı artırdı, işimizə daha həvəslə yanaşmağa sövq etdi. Nəticədə Amerikada Azərbaycanı təmsil etmək şansı qazandıq.

### Müsabiqə vasitəsilə biz tanındıq...

*Ceyla Hüseynzadə (Bakıdakı akademik Zərifə Əliyeva adına liseyin IX sinif şagirdi):* - Əslində, qardaşım layihəmiz haqqında məlumat verdiyi üçün mən müsabiqə barədə danışmaq istərdim. Mən də birinci dəfə idi ki, belə bir nüfuzlu yarışmada iştirak edirdim. İlk olaraq onu deyim ki, qatıldığım "Sabahın alimləri" özünün obyektivliyi və şəffaflığı ilə seçilən, biz şagirdlərə elmi layihələrini beynəlxalq səviyyədə nümayiş etdirməyə şərait yaradan ən nüfuzlu müsabiqədir. Bunun üçün yarışmanın əsas təşkilatçısı olan Təhsil Nazirliyinə şagirdlər adından təşəkkür etmək istəyirəm. Üç gün ərzində respublikanın tanınmış elm adamları, mütəxəssisləri ilə yaxından ünsiyyətdə olduq, layihələrimizlə bağlı təqdimatlar etdik. Əldə etdiyimiz uğura görə elmi rəhbərimiz Vüqar Hüseynliyə, üzərimizdə əməyi olanların hər birinə dərin təşəkkürümüzü bildiririk.

Müsabiqə vasitəsilə biz tanındıq, ən yüksək yerə layiq görüldük. Eyni zamanda, ABŞ-da keçiriləcək İntel İSEF-Beynəlxalq Elm və Mühəndislik Sərgisində iştirak edəcək şagirdlər arasında biz də varıq. Bundan gözəl nə ola bilər ki? Ümid edirəm ki, ölkəmizi layiqincə təmsil edəcəyik.

# “Əsas məsələ valideynin qeydiyyatı düzgün aparmasıdır”



## *İlhamə Abdullayeva:* “Elektron sənəd qəbulu sistemindən istifadə üçün heç bir ödəniş tələb olunmur”

**Ruhiyyə DAŞSALAHLI**

2018-2019-cu dərs ili üçün Təhsil Nazirliyinin birbaşa tabeliyindəki lisey və gimnaziyalarda, Bakı, Gəncə, Sumqayıt şəhərləri və Abşeron rayonu üzrə ümumi təhsil məktəblərində I sinfə şagird qəbulu elektron sistem vasitəsilə həyata keçiriləcək.

Dünən, yəni fevralın 22-də, saat 10.00-da Bakıda start götürən prosesin ilk günü sistemdə gərginlik yaşanıb və *“mektebeqebul.edu.az”* saytına girişdə məhdudiyyətlər yaranıb. Bu və digər məsələlərlə bağlı “Azərbaycan müəllimi” qəzetinin suallarını Bakı Şəhəri üzrə Təhsil İdarəsinin İnformasiya təminatı sektorunun müdiri İlhamə Abdullayeva cavablandırıb.

*- Elektron qeydiyyat sistemi açıldığı ilk gündən problemlər yaşandı. Bu nə ilə əlaqədardır və gözlənilirdimi?*

- Paytaxtdakı ümumi təhsil məktəblərinin mövcud məktəbəhazırlıq qruplarındakı 24 000-dən çox uşağın I sinfə qeydiyyatı mektebeqebul.edu.az sistemi tərəfindən avtomatik olaraq aparıldığına və minlərlə valideynin eyni anda övladını qeydiyyatdan keçirmək istədiyinə görə I sinfə uşaqların elektron qeydiyyatı sistemində müvəqqəti ləngimələr müşahidə olundu. Amma valideynlərin nəzərinə çatdırmaq istəyirəm ki, uşaqların I sinfə elektron qeydiyyatı prosesi Bakı şəhərində fevralın 22-dən sentyabrın 15-nə qədər olan müddətdə davam edəcək. Qarşıda kifayət qədər müddət olduğu üçün valideynlərin narahatlıq keçirməsinə heç bir səbəb yoxdur.

*- Təhsil Nazirliyinin birbaşa tabeliyindəki lisey və gimnaziyalarda qeydiyyat müddəti nə vaxta qədərdir?*

- Təhsil Nazirliyinin birbaşa tabeliyindəki lisey və gimnaziyalara ərizələrin qeydiyyatı fevralın 22-dən mayın 31-dək aparılır. Təhsil Nazirliyinin birbaşa tabeliyindəki lisey və gimnaziyalara, Bakı Şəhəri üzrə Təhsil İdarəsinin tabeliyində fəaliyyət göstərən 160 nömrəli Klassik Gimnaziya və 287 nömrəli “Zəkalar” liseyinə 2018-2019-cu dərs ili üçün I sinfə, ilk növbədə, həmin ümumi təhsil müəssisələrinin müəyyən edilmiş mikroərazisində yaşayan vətəndaşların ərizələrinin qeydiyyatı aparılır. Qeyd olunan ümumi təhsil müəssisələrinə müəyyən edilmiş mikroərazidə yaşayan vətəndaşların uşaqları müsabiqədənkənar qəbul edilir. Digər ərazilərdə yaşayan valideynlər (qanuni nümayəndələr) isə uşaqlarını qeyd olunmuş ümumi təhsil müəssisələrinə yalnız müsabiqə yolu ilə qəbul üçün qeydiyyatdan keçirə bilərlər. Həmin uşaqlar üçün müsabiqə iyun ayı ərzində keçiriləcək.

*- Ötən il lisey və gimnaziyaların mikroərazisində yaşayanların uşaqlarının qəbulunda problemlər yaşandı. Lisey və gimnaziyalarda həmin uşaqların müsabiqəyə qatılması üçün əlavə tələblər qoyulduğuna dair faktlar ortaya çıxdı. Bu il belə faktların təkrarlanmaması üçün hansısa tədbirlər nəzərdə tutulub?*

- Valideyn qeydiyyatı düzgün həyata keçiribsə, sistem avtomatik olaraq onu qeydə alır. Yaxud İşçi Qrup 3 gün ərzində həmin valideynin müraciətinə baxaraq onun xeyrinə qərar verir. Burada əsas məsələ valideynin səhv etməməsidir. Tutaq ki, hər hansı lisey və ya gimnaziyanın xidməti ərazisində yaşayan valideyn “müsabiqəyə yazıl” düyməsini seçibsə, bu onun özünün yaratdığı problemdir. Yaxud ola bilər ki, valideyn yaşayış yerinin məktəbin xidməti ərazisində olduğunu düşünə bilər, halbuki onun ünvanının həmin xidməti əraziyə düşməməsi mümkündür.

*- Xidməti ərazilər necə müəyyən olunur?*

- Məktəblərin xidməti ərazilərini sadəcə Bakı Şəhəri üzrə Təhsil İdarəsi və Təhsil Nazirliyi müəyyən etmir. Bu, icra hakimiyyətlərinin nümayəndələri ilə birgə həyata keçirilir. Valideynin yaşayış yeri müəyyən olunmuş xidməti ərazidə yerləşirsə, buna baxmayaraq, yenə də onun övladının müsabiqəyə cəlb edilməsi cəhdləri olursa, rahat şəkildə BŞTİ-yə və Təhsil Nazirliyinə müraciət edə bilər. Onun hüququ tanınacaqdır. Burada heç bir narahatçılıq yoxdur.

*- Məktəbəhazırlıq qruplarında komplektləşdirilmiş siniflərin I sinifdə də eyni müəllimə həvalə olunması nəzərdə tutulub...*

- Bu addımı məktəbəhazırlıq qruplarında təhsil alan uşaqların valideynlərinin istəyini nəzərə alaraq atmışıq. 2017-2018-ci tədris ilində məktəbəhazırlıq qruplarında dərs deyən, 2018-2019-cu tədris ilində I sinifdə tədris aparması planlaşdırılan müəllimlərin dərs dediyi siniflərə şamil olunub.

**Məktəblərin xidməti ərazilərini sadəcə Bakı Şəhəri üzrə Təhsil İdarəsi və Təhsil Nazirliyi müəyyən etmir. Bu, icra hakimiyyətlərinin nümayəndələri ilə birgə həyata keçirilir. Valideynin yaşayış yeri müəyyən olunmuş xidməti ərazidə yerləşirsə, buna baxmayaraq, yenə də onun övladının müsabiqəyə cəlb edilməsi cəhdləri olursa, rahat şəkildə BŞTİ-yə və Təhsil Nazirliyinə müraciət edə bilər.**

*- Bəs, valideyn məktəbəhazırlıq qrupunda oxuyan övladı üçün yenidən həmin məktəbə I sinfə qəbul üzrə sorğu yerləşdirməlidirmi?*

- Buna gərək qalmayacaq. Çünki məktəbəhazırlıq qrupunda təhsil alan uşaq üçün sistem tərəfindən təhsil aldığı məktəb və müəllim avtomatik seçilir.

*- Valideyn övladının təhsilini həmin məktəbdə, həmin sinifdə davam etdirməsini istəmirsə, sistemin avtomatik seçimi ona qarşı haqsızlıq deyilmi?*

- Burada da problem yoxdur. Müəllim sistemin seçimi ilə razıdırsa, şəxsi kabinetdən ərizəni çap edib, digər müvafiq sənədlərlə birgə məktəbə təqdim edir. Razı deyilsə, şəxsi kabinetə daxil olaraq yerləşdirilmiş sorğunu silib yenidən məktəb və müəllim seçə bilər.

*- Elektron sistemdən istifadə ilə bağlı çoxsaylı narahatlıqlar var. Bu narahatlıqlardan biri də sistemin ödənişli olmasıyla bağlıdır.*

- Elektron sənəd qəbulu sistemindən istifadə üçün heç bir ödəniş tələb olunmur. İstifadəçi əlaqə vasitəsi olaraq mobil telefon nömrəsini və ya elektron poçt ünvanı qeyd edir. Uşağın valideyni və ya qanuni nümayəndəsi elektron sistemdə məktəbi seçib sorğu yerləşdirir.

*- Məlumdur ki, məktəblərin hamısında şagird qəbulu eyni səviyyədə olmur. I sinfə qəbul üzrə müraciətlərin çox olduğu məktəblərdə şagird qəbulu zamanı hansı prioritetlər nəzərə alınır?*

- Bakı şəhərində yerləşən bir sıra məktəblərdə birinci sinfə onlayn qeydiyyat zamanı valideynləri və ya qanuni nümayəndələri məktəbin müəyyən edilmiş mikroərazisində yaşayanlara, valideynləri və ya qanuni nümayəndələri həmin məktəbdə işləyənlərə, bacı və qardaşları həmin məktəbdə oxuyanlara üstünlük verilir.

*- Bakı şəhəri üzrə I sinfə qəbul zamanı paytaxtda daimi qeydiyyatı olmayan, kirayədə yaşayan vətəndaşlar uşaqlarını elektron sistemdə qeydiyyatdan necə keçirməlidir?*

- Bakıda ərazi prinsipi tətbiq olunan məktəblərdə, ilk növbədə, həmin təhsil müəssisələrinin mikroərazisində daimi qeydiyyatda olan vətəndaşlar övladlarını elektron sistem vasitəsilə qeydiyyatdan keçirəcəklər. Həmin tədris ocaqlarında açılan I siniflərdə yer olarsa, ərazi prinsipi tətbiq olunan məktəblərin mikroərazisində kirayədə yaşayanlar da övladlarının qeydiyyatını apara biləcək. Həmin valideynlərə kirayədə yaşadıqları ərazidə yerləşən məktəbdə sıxlıq olduğu halda, digər məktəbləri seçmələri tövsiyə olunur. Onu da qeyd edim ki, kirayədə yaşayan valideynlər ərazi prinsipi tətbiq olunmayan bütün məktəblərdə övladlarını I sinfə elektron sistem vasitəsilə qeydiyyatdan keçirə bilərlər.

*- Elektron qeydiyyat zamanı bir neçə məktəb seçmək mümkündürmü?*

- Valideynə yalnız bir məktəb seçərək sorğu yerləşdirmək imkanı yaradılır. Yeni məktəbi ancaq sistemə əvvəl yerləşdirdiyi sorğunu ləğv etdikdən sonra seçə bilər.

*- Xarici ölkə vətəndaşının elektron ərizəsinin qeydiyyatı necə aparılır?*

- Azərbaycan Respublikasının ərazisində müvəqqəti və ya daimi yaşamaq üçün Dövlət Miqrasiya Xidmətindən aldığı icazə vəsiqəsi və xarici ölkənin doğum haqqında şəhadətnaməsi əsasında aparılır.

*- 6 yaşı tamam olmayan uşaqların qeydiyyatı ilə bağlı nə yenilik var?*

- 6 yaşı sentyabrın 16-dan dekabrın 31-dək tamam olan, xüsusi istedadı ilə fərqlənən uşaqların valideynlərinin (qanuni nümayəndələrinin) elektron ərizələrinin qeydiyyatı Təhsil Nazirliyinin birbaşa tabeliyindəki lisey və gimnaziyalara fevralın 22-dən mayın 31-dək, Bakı Şəhəri üzrə Təhsil İdarəsinin tabeliyindəki ümumi təhsil müəssisələrinə fevralın 22-dən iyunun 20-dək aparılır.

*- 6 yaşı tamam olmayan uşaqlar elektron qeydiyyatdan keçirildikdən sonra onların məktəbə qəbulu üçün nə tələb olunur?*

- Bu məqsədlə Müsabiqə Komissiyası fəaliyyət göstərir. Həmin Komissiya “Xüsusi istedada malik uşaqların vaxtından əvvəl I sinfə qəbulu Qaydaları”na əsasən, iyun-iyul ayları ərzində müsahibə keçirir. Təhsil Nazirliyinin birbaşa tabeliyindəki lisey və gimnaziyalara qəbul üzrə müsabiqədə iştirak edib uğur qazananlar və dövlət ümumi təhsil müəssisələrində dövlət hesabına məktəbəhazırlıq qrupunu bitirmiş uşaqlar I sinfə müsabiqədənkənar qəbul oluna bilər. Müsabiqə Komissiyasında müsahibədən keçməzsə, valideynlər Bakı Şəhəri üzrə Təhsil İdarəsi tərəfindən təşkil edilən Apelyasiya komissiyalarına iyul-avqust ayları ərzində müraciət edə bilərlər.

*- Yaşı 8-dən yuxarı olan uşaqların I sinfə qəbulu mümkündürmü?*

- Yaşı 8-dən yuxarı olan uşaqlar təhsil nazirinin 29.05.2014-cü il tarixli, 645 nömrəli əmri ilə təsdiq edilmiş “Fərdi təhsilin təşkili haqqında Qaydalar”ın tələblərinə uyğun olaraq fərdi təhsilə cəlb olunurlar. Onların valideynləri *www.mektebeqebul.edu.az* saytında qeydiyyatdan keçdikdən sonra yaşayış yerindən arayış, 2 ədəd 3x4 sm ölçüdə rəngli fotoşəkil, valideynin (və ya qanuni nümayəndənin) və uşağın şəxsiyyətini təsdiq edən sənəd, ehtiyac yaranarsa, sağlamlıq haqqında arayışla (forma 26U) həftənin II və IV günləri Bakı Şəhəri üzrə Təhsil İdarəsində yaradılmış müvafiq komissiyaya müraciət etməlidir. Valideynlərə həmin komissiyaya uşağı da özləri ilə gətirmələri tövsiyə olunur.

*- Bakı şəhərində sağlamlıq imkanları məhdud uşaqların I sinfə qəbulu necə həyata keçirilir?*

- Sağlamlıq imkanları məhdud uşaqların I sinfə qəbulu üçün valideyndən onun və uşağının şəxsiyyətini təsdiq edən sənədin əsli və surəti; tibbi arayış; 2 (iki) ədəd 3x4 sm ölçüdə rəngli fotoşəkil; yaşayış yerindən arayış tələb olunur. Həmin sənədlərlə birlikdə həftənin III və V günləri Nəsimi rayonu 268 nömrəli xüsusi məktəbdə (ünvan: Bakı şəhəri Nəsimi rayonu, Süleyman Rüstəm küçəsi 38) təşkil olunmuş Pedaqoji-Tibbi-Psixoloji komissiyaya müraciət etməlidirlər. Valideynlərə həmin komissiyaya uşağı da özləri ilə gətirmələri tövsiyə olunur.

*- I sinfə qəbulla əlaqədar sual yarandıqda hara müraciət etmək lazımdır?*

- Elektron ərizənin qeydiyyatı ilə əlaqədar şəhər və rayon ərazisində fəaliyyət göstərən Alternativ Qeydiyyat Mərkəzlərinə, bütün hallarla bağlı şəhər və rayon ərazisində fəaliyyət göstərən Apelyasiya Komissiyasına müraciət edə bilərlər. Bakı Şəhəri üzrə Təhsil İdarəsinin (012) 599-12-22 nömrəli telefonu (daxili: 6076; 6124), eləcə də *info@baku.edu.gov.az* elektron poçt ünvanı hər kəsin xidmətindədir. Təhsil Nazirliyinin Telefon Məlumat Mərkəzinə (nömrə - 146) də zəng etməklə, suallara aydınlıq gətirmək mümkündür.

# Xalq Təhsili Muzeyində anım mərasimi

“Təhsil müəssisələrində Xocalı soyqırımının iyirmi altıncı ildönümünün keçirilməsi barədə” Azərbaycan Respublikası Təhsil Nazirliyinin 12 fevral 2018-ci il tarixli əmrinə əsasən Xalq Təhsili Muzeyində Xocalı soyqırımına həsr olunmuş anım mərasimi keçirilib. Mərasimdə Bakının Pirşağı qəsəbəsində yerləşən Xocalı şəhər 2 nömrəli tam orta məktəbin şagird və müəllimləri, Nəsimi rayon 5 nömrəli Uşaq-Gənclər İnkişaf Mərkəzinin direktoru, dərnək rəhbərləri və dərnək üzvləri iştirak ediblər. Anım mərasimini giriş sözü ilə muzeyin direktoru L.Bayramova açaraq, Xocalı soyqırımının bəşər tarixində baş vermiş ən faciəvi hadisələrdən biri olduğunu deyib və erməni silahlı qüvvələrinin törətdiyi bu vandalizm aktını qətiyyətlə pisləyib. Soyqırım qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib.



Anım mərasimində Xalq Təhsili Muzeyinin Elmi-kütləvi iş şöbəsinin kiçik elmi işçisi Z.Orucova “Tarixin qan yaddaşı” mövzusunda məruzə edib. Çıxış edənlərdən Xocalı şəhər 2 nömrəli tam orta məktəbin müəllimi, faciənin canlı şahidi Səidə Cəfərova o qanlı gecə barədə xatirələrini ürək ağrısı ilə danışıb, valideyn Xalidə Aslanova belə tədbirlərin keçirilməsinin gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunmasında böyük əhəmiyyət kəsb etdiyini vurğulayıb. Nəsimi rayon 5 nömrəli UGİM-nin direktoru Könül Mustafayeva isə Xocalı faciəsi zamanı mənfur düşmənin əliyalın dinc sakinlərə qarşı törətdiyi insanlığa sığmayan qəddarlığı qətiyyətlə pisləyib.

Xocalı şəhər 2 nömrəli tam orta məktəbin şagirdlərinin ifasında söylənilən şeirlər, Nəsimi rayon 5 nömrəli UGİM-in “Bədii qiraət” və “Məktəbli teatrı” dərnəklərinin üzvlərinin ifasında Xocalı soyqırımına həsr olunmuş “Vətən ağrılıdır, bu matəm günü” adlı ədəbi-bədii kompozisiya, musiqinin müşayiəti ilə göstərilən videoçarx tədbir iştirakçılarını duyğulandırıb və onlarda mənfur düşmənə nifrət və vətənə məhəbbət hissini bir daha alovlandırıb .

Tədbirin sonunda iştirakçılar Xalq Təhsili Muzeyi fondunun sənəd və materiallarından, Nəsimi rayon 5 və Nizami rayon 3 nömrəli UGİM -nin dərnək üzvlərinin rəsm işlərindən ibarət “Xocalı soyqırımı” adlı sərgi ilə tanış olublar.

# Soyqırım səbəbkarlarının cəzalandırılması mütləqdir

## Birmingem Universitetində Xocalı faciəsi anılıb

**Oruc MUSTAFAYEV**

Dünyanın nüfuzlu universitetlərində təhsil alan azərbaycanlı tələbələr akademik təhsillə yanaşı, həm də yaşadıqları ölkələrdə Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında fəallıq nümayiş etdirirlər. Belə tələbələrimizdən biri də “2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı” çərçivəsində Böyük Britaniyanın Birmingem Universitetində təhsil alan Məhəmməd Ağamirzəyevdir. M.Ağamirzəyev 2015-ci ilin dekabrında Birmingem Universitetində Azərbaycan Cəmiyyətini təsis edərək hazırda quruma rəhbərlik edir. M.Ağamirzəyevlə əlaqə saxlayaraq cəmiyyətin Birmingem Universitetində gördüyü işlərlə maraqlandıq.

“2015-ci ilin dekabr ayında cəmiyyəti təsis etmiş və bu yolla Azərbaycanda gedən inkişafın, tariximizin, adət-ənənələrimizin və bizə qarşı göstərilmiş ədalətsizliklərin dünya ictimaiyyətinə çatdırılması, təbliği ilə məşğul olaraq azacıq da olsa, rahatlıq tapmışam”, - deyə tələbəmiz bildirir. Cəmiyyətin sədrinin səyləri ilə universitetin tələbə ittifaqına məxsus binanın girişində sərgi açılıb, ali məktəbdə təhsil alan tələbə və müəllimlərə Xocalı soyqırımı barədə əsl həqiqətlər çatdırılıb. Onlara soyqırımı əks etdirən məlumat kitabçaları paylanıb.

Tədbir zamanı, əslən fransalı olan, universitetin Siyasi Elmlər və Beynəlxalq Tədqiqatlar İnstitutunun mühazirəçisi də buraya baş çəkərək Xocalı hadisəsi ilə yaxından tanış olub. Mühazirəçi baş vermiş qanlı faciə ilə yaxından tanış olduqdan sonra təəssüratlarını paylaşıb: “Bu və bu kimi soyqırımların səbəbkarlarının cəzalandırılması mütləqdir. Azərbaycana qarşı edilmiş bu vəhşiliklərin qarşılığında sizin sülh tərəfdarı olmağınız böyük müdriklik göstəricisidir. Ümidvaram ki, yaxın gələcəkdə ədalət bərpa olunar”.

Ziyarətçi tələbələrdən biri isə nümayiş olunan foto və məlumatlarla tanış olduqdan sonra faciənin onu kədərləndirdiyini bildirib: “Mən yay tətilində Bakıda oldum. Sizin şəhəriniz çox gözəl, camaatı isə çox istiqanlı və qonaqpərvərdirlər. Bu cür mehriban bir xalqa qarşı belə bir vəhşiliyin edilməsini bilmək insanı daha çox sarsıdır”.

Sərgi zamanı yüzlərlə məlumat kitabçaları paylanılıb.

# Birinci sinfə elektron qəbulun əhatəsi genişləndi

## Məktəbəhazırlıq qruplarına cəlb edilən uşaqlar üçün proses daha da asanlaşdı

⇦ Əvvəli səh.1

Ruhiyyə DAŞSALAHLI

Qeyd etdiyimiz kimi, bu tədris ilindən elektron xidmətə daha iki böyük şəhər və ölkənin ən böyük rayonu da qoşulur. Ancaq Gəncə və Sumqayıt şəhərlərinin, eləcə də Abşeron rayonunun sakinləri övladlarını arzuladıqları məktəblərdə qeydiyyatdan keçirmək üçün bir az gözləməli olacaqlar. Çünki adıçəkilən ərazilərdə elektron qəbul martın 12-dən start götürəcək.

Təhsil Nazirliyinin İctimaiyyətlə əlaqələr sektorunun müdiri Cəsarət Valehov bildirib ki, Abşeron rayonu, Gəncə və Sumqayıt şəhərlərində təqribən 16-17 min uşaq birinci sinfə gedəcək.

### Lisey və gimnaziyalara qəbul

Təhsil Nazirliyinin birbaşa tabeliyindəki lisey və gimnaziyalara da I sinfə şagird qəbulu valideynin (qanuni nümayəndənin) elektron ərizəsinin *mektebeqebul.edu.az* saytında qeydiyyatı yolu ilə həyata keçiriləcək. Bakı Şəhəri üzrə Təhsil İdarəsinin İctimaiyyətlə əlaqələr sektorunun müdiri Bəşarət Məmmədov bildirib ki, qeydiyyat ümumtəhsil müəssisələrində olduğu kimi, fevralın 22-dən başlasa da, sentyabra deyil, may ayının 31-dək aparılacaq.

B.Məmmədov onu da qeyd edib ki, ötən ildən tətbiq edilən yeniliyə əsasən, Təhsil Nazirliyinin birbaşa tabeliyindəki ümumi təhsil müəssisələrində və Bakı Şəhəri üzrə Təhsil İdarəsinin tabeliyində fəaliyyət göstərən 287 nömrəli "Zəkalar" liseyi, eləcə də 160 nömrəli Klassik Gimnaziyada 2018-2019-cu dərs ili üçün birinci sinfə, ilk növbədə, həmin ümumi təhsil müəssisələrinin müəyyən edilmiş mikroərazisində yaşayan vətəndaşların ərizələrinin qeydiyyatı aparılır. Digər ərazilərdə yaşayan valideynlərin və yaxud qanuni nümayəndələrin uşaqları qeyd olunan ümumi təhsil müəssisələrinə yalnız müsabiqə yolu ilə qəbul üçün qeydiyyatdan keçə bilərlər. Müsabiqənin iyun ayının ikinci yarısında keçirilməsi planlaşdırılır.

### Məktəbəhazırlıq qruplarına qəbul da elektronlaşdırılır

Ötən tədris ilində 5 yaşlıların 55, bu il isə 65 faizi məktəbəhazırlıq qruplarında təhsilə cəlb edilib. Bakı şəhər məktəblərində artan faiz göstəriciləri Bakıətrafı - Qaradağ, Sabunçu, Suraxanı kimi rayonların məktəbləri hesabına olub. Bakı Şəhəri üzrə Təhsil İdarəsinin İnformasiya təminatı sektorunun müdiri İlhamə Abdullayeva "Azərbaycan müəllimi" qəzetinə açıqlamasında ildən-ilə artan dinamikanı məktəbəhazırlıq qruplarının dövlət hesabına olması ilə əlaqələndirib: "Nəticədə ildən-ilə daha çox uşağı əhatə edən proqram 2020-ci il üçün qoyulan hədəfə çatacaq. Belə ki, həmin il məktəbəhazırlığa cəlb edilənlərin 5 yaşlı uşaqların 90 faizini əhatə edəcəyinə dair proqnozlar özünü doğruldur".

### Məktəbəhazırlıq qruplarına cəlb edilən uşaqların məktəbəqəbul prosesi asanlaşır

Məktəbəhazırlıq qruplarında təhsil alan uşaqların valideynlərinin istəyini nəzərə alaraq, onların I sinifdə də eyni sinifdə komplektləşdirilməsi və eyni müəllimə həvalə olunması nəzərdə tutulur. Bu qayda 2017-2018-ci tədris ilində məktəbəhazırlıq qruplarında dərs deyən, 2018-2019-cu tədris ilində I sinifdə tədris aparması planlaşdırılan müəllimlərin dərs dediyi siniflərə şamil olunur. Odur ki, övladı məktəbəhazırlıq qrupunda təhsil alan valideynlər fevralın 22-də sistem açılan kimi ismarıc alır. Göndərilən ismarıcda məktəbəhazırlıq qrupunda övladına dərs deyən müəllimin birinci sinfi açılıbsa, bu barədə valideynlərə məlumat verilir. Lakin onu da qeyd etməliyik ki, məktəbəhazırlıq qruplarında təhsil alan uşaqların valideynləri birinci sinfə qəbul zamanı məktəb seçimində sərbəstdir. Belə ki, onlar uşağının birinci sinfə məktəbəhazırlıq keçdiyi məktəbdə deyil, arzuladığı başqa məktəbdə getməsinə də qərar verə bilər. Odur ki, məktəbəhazırlıq sinfində dərs deyən müəllimi deyil, başqa müəllimi, hətta başqa məktəbi seçənlər bu sorğunu silib elektron ərizəsini istədiyi kimi qeyd etməlidir. Əks halda, ərizəni birbaşa çap edib tələb olunan digər sənədlərlə birgə məktəbə təqdim edə bilər. Bu, elektron sistemin tətbiq olunduğu rayonlarda da eyni qaydada həyata keçiriləcək.

C.Valehov qeyd edib ki, bu il Abşeron, Gəncə və Sumqayıtdan birinci sinfə gedəcək 17 minə yaxın uşağın 8000-dən çoxu məktəbəhazırlıq mərhələsinə cəlb olunanlardır. Bu da ona dəlalət edir ki, onlar bir təhsil mərhələsindən digərinə daha rahat keçid edəcəklər.

### Qeydiyyat

Bəs, məktəbə kimlər qəbul edilir və onların qeydiyyatı necə aparılır?

Ümumi təhsil müəssisələrinin I sinfinə 15 sentyabr 2018-ci il tarixinədək 6 yaşı tamam olan, eləcə də Təhsil Nazirliyi tərəfindən müəyyən edilmiş qaydada xüsusi istedadlı uşaqların vaxtından əvvəl I sinfə qəbulu üzrə müsahibədən uğurla keçən 16 sentyabr 2012-ci il tarixindən 31 dekabr 2012-ci il tarixinədək olan dövrdə anadan olmuş və dövlət ümumi təhsil müəssisələrində ödənişsiz məktəbəhazırlıq qrupunu bitirmiş uşaqlar qəbul edilir.

Məktəbəhazırlıq qruplarında təhsil alan yaşı az uşaqlar, yəni məktəb yaşı sentyabrın 16-dan dekabrın 31-nə qədərki müddətdə tamam olan uşaqlar müsabiqəsiz birinci sinfə qəbul ediləcəklər. Məktəbəhazırlıq qruplarına cəlb edilməyənlər üçün də qeydiyyat açıqdır və Bakı şəhərində fevralın 22-dən iyunun 20-dək davam edəcək.

Uşağı bu tələbə uyğun olan valideynlər sentyabrın 15-dək davam edən elektron ərizənin qeydiyyatı prosesində məktəbi, təlim dilini və müəllimi seçmək imkanına malikdir. Bu imkanları dəyərləndirmək üçün əvvəlcə *"məktəbəqəbul.edu.az"* saytında "şəxsi kabinet" yaradır, növbəti addımda övladını qeydiyyatdan keçirir, daha sonra arzuladığı məktəbi, bölməni və müəllimi seçir.

B.Məmmədovun sözlərinə görə, ötən ildən tətbiq edilən müəllim seçimi valideynlər tərəfindən xüsusilə razılıqla qarşılanıb. Çünki ötən ilə qədər valideynlər arzuladığı müəllim, onun sinfində yer olub-olmaması ilə bağlı suallarına cavab tapmaq üçün məktəbə yaxınlaşmalı olurdularsa, artıq buna ehtiyac qalmır. Çünki elektron sistemə daxil olan kimi bütün bu suallarının cavabını tapır: "Hətta valideynlərdən xahiş edirik ki, qeydiyyatdan keçənə qədər məktəblərə getməsinlər".

Məktəbəhazırlıq qruplarına qəbul isə ötənilki kimi tədris ilinin sonu - iyun, iyul və avqust aylarında elektron qaydada həyata keçiriləcək. Valideyn "mektebeqebul.edu.az" saytına daxil olaraq, övladı üçün istədiyi məktəbəhazırlıq qrupunu, hətta müəllimi seçəcək. Builki yenilik ondan ibarətdir ki, məktəbəqəbul elektron qaydada aparılan rayonlarda məktəbəhazırlıq üçün də elektron qaydada müraciət etmək mümkün olacaq.

### Qeydiyyatdan keçə bilmirsinizsə...

Təhsil Nazirliyi valideynlərin imkanlarını və yarana biləcək problemlərini nəzərə alıb. Məsələn, evində internet çıxışı olmayan valideynlər Bakı şəhəri üzrə 52 qeydiyyat mərkəzindən birinə yaxınlaşa bilərlər. Məsul şəxslər onlara nəinki şərait yaradacaq, hətta qeydiyyatdan keçməkdə kömək də göstərəcəklər.

Alternativ qeydiyyat mərkəzləri Gəncə, Sumqayıt və Abşeronda da təşkil edilib. Gəncə şəhəri üzrə 5, Sumqayıt şəhəri üzrə 4, Abşeron rayonu üzrə 6 məktəbdə Alternativ qeydiyyat mərkəzləri yaradılıb. Həmin mərkəzlərin yerləşdiyi məktəbi və ünvanı da "mektebeqebul.edu.az" saytından əldə etmək mümkündür.

Həmçinin I sinfə şagird qəbulu prosesində valideynlərlə (qanuni nümayəndələrlə) qeydiyyat və sənəd qəbulu üzrə yarana biləcək mübahisəli məsələlərin həlli məqsədilə Bakı şəhəri üzrə 6, Gəncə şəhəri üzrə 1, Sumqayıt şəhəri üzrə 1 və Abşeron rayonu üzrə 1 ümumi təhsil müəssisəsində Apelyasiya Komissiyası təşkil olunub.

Onu da qeyd edək ki, vətəndaşları maraqlandıran məsələlərə daha geniş aydınlıq gətirmək üçün BŞTİ-nin rəsmi "Facebook" səhifəsində 22 fevral-2 mart 2018-ci il tarixlərində I sinfə qəbulla bağlı suallara cavab veriləcək.

### Ərizənizi digər sənədlərlə birgə götürüb gəlin...

Övladını elektron qeydiyyatdan keçirən şəxs həmin ərizəsini çap etməklə digər sənədlərlə birlikdə məktəbə təqdim edəcək. Bunun üçün də fevralın 22-dən başlayaraq qeydiyyatdan keçən hər kəs məktəblərə yaxınlaşa bilər. Lakin bunun üçün həftənin 2 günü ayrılıb. Belə ki, iyul ayı istisna olmaqla, fevralın 22-dən sentyabrın 15-dək hər həftənin cümə və şənbə günləri məktəblərdə sənəd qəbulu həyata keçiriləcək. Bunun üçün məktəblərin girişində elanlar asılacaq. Həmin elanlarda sənədlərin qəbul saatları və qəbul edən şəxsin adı göstəriləcək.

### Yerləşdirmədə üstünlük veriləcək...

Yerləşdirilmədə qəbul prosesində daha tez müraciət edənlərə üstünlük veriləcək. Tutaq ki, avqust ayında müraciət edənlərin istəyi əgər sinifdə yer varsa, müsbət dəyərləndiriləcək. Əks halda, onlara başqa yaxın məktəblərə getmək tövsiyə ediləcək. Yerləşdirmə zamanı ilk növbədə xidməti ərazidə yaşayanlara üstünlük veriləcək. Valideyninin çalışdığı, ya da bacı və ya qardaşının oxuduğu məktəbdə oxumaq istəyən uşaqlar üçün də bu, yerləşdirmə zamanı üstünlük olacaq. Ancaq bunun üçün də valideynin vaxtında qeydiyyatdan keçərək bu istəyini bildirməsi şərtdir. Tutaq ki, avqust ayında reallaşdırılan qeydiyyat zamanı sinif dolubsa, yerləşdirmə zamanı belə üstünlüklər də əhəmiyyətini itirir.

### Elektron sistem rəğbət qazanır

Ötən 4 il ərzində Bakı şəhərində uğurla sınaqdan keçirilən ümumtəhsil məktəblərində birinci sinfə elektron qəbul müsbət rezonans doğurub. 4 illik təcrübə bu sistemin bir çox üstünlüyünü də ortaya çıxarıb. Həmin üstünlüklər də ona böyük rəğbət qazandırıb. Ölkə ərazisində sistemin tətbiqini arzulayan valideynlərin sayı durmadan artır. Elə bunun nəticəsidir ki, bu ildən elektron qəbulun əhatə dairəsi genişləndirilib.

# Səriştə əsaslı təhsil islahatların uğuru üçün olduqca vacibdir

## ADPU-nun Pedaqoji Forumunda ilk dinləmə keçirilib

Niyazi RƏHİMOV



"Səriştə peşəkar fəaliyyət üçün başlıca meyardır". Bu fikri fevralın 21-də Azərbaycan Dövlət Pedaqoji Universitetində ilk dəfə keçirilən Pedaqoji Forumda təhsil eksperti Asif Cahangirov səsləndirib. Onun sözlərinə görə, bu səriştə əsaslı təhsil islahatların uğurla həyata keçirilməsi və bütövlükdə təhsil sahəsinin inkişafı üçün olduqca vacibdir. Forumda ekspert "Təhsil strategiyasının əsas dayağı: səriştə əsaslı təhsil" mövzusundakı təqdimatında bildirib ki, səriştə əsaslı təhsil "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda həyata keçiriləcək əsas vəzifələrdən biri kimi qarşıya qoyulub: "Hazırda universitetlərin təhsil-tədqiqat innovasiya mərkəzlərinə çevrilməsi aktual vəzifədir. Universitetlərin tədqiqat universitetlərinə çevrilməsi istiqamətində tədbirlər həyata keçirilir. Bu vəzifənin uğurla həyata keçirilməsində səriştə əsaslı təhsil mühüm rol oynayır. Səriştə - bilik, bacarıq, təcrübə, qabiliyyətdir. Səriştə biliyə əsaslanır, bacarıq və qabiliyyətin məcmusu kimi qiymətləndirilir. Səriştə məxsusi bilikdir, spesifik qabiliyyətdir. Biliklərin praktiki istifadəsi vacibdir. Səriştə əsaslı təhsildə nəzəriyyə praktika ilə birləşdirilir, elmi-nəzəri biliklər əməli fəaliyyətdə tətbiq edilir. Səriştə konkret fəaliyyət nəticəsində əldə edilir, konkret şəraitdə özünü büruzə verir və peşəkar fəaliyyət üçün başlıca meyardır. Səriştə əsaslı təhsil müasir dünyada geniş yayılmış ömürboyu təhsil üçün də vacibdir. Təhsilyönümlü ali təhsildən təlimyönümlü ali təhsilə keçid qarşımızda vacib bir vəzifə kimi dayanır. Tələbə-gənclərə elmi-tədqiqat fəaliyyəti aşılanmalı, onlarda elmi-tədqiqat metodologiyalarından istifadə bacarıqları formalaşdırılmalıdır". Hər bir şəxsə konkret olaraq bir səriştənin aşılanmasının zəruriliyini deyən ekspert bunun üçün müasir təlim metodları, zəruri tədris vasitələrinin seçilməli olduğunu vurğulayıb.

Tədbirdə ADPU-nun tədris işləri üzrə prorektoru, dosent Eldar Aslanov Pedaqoji Forum haqqında məlumat verərək bildirib ki, forum ölkədə elmi-pedaqoji müzakirələrin keçirildiyi daimi platformadır. Pedaqoji Forum hər ilin sentyabr-may aylarında ölkədə və xaricdə təhsil və pedaqoji fikir sahəsində böyük təcrübəyə, elmi-tədqiqat nəticələrinə malik alimlərin və ekspertlərin dinləmələrinin keçirilməsi üçün imkandır. Forumun dinləmələrinin ayda bir dəfə keçirilməsi planlaşdırılır.

Təhsil eksperti, professor Şahlar Əsgərov tədbirdə çıxış edərək son vaxtlar ADPU-da yaradılan təhsil mühitindən, ali məktəbdə görülən məqsədyönlü işlərdən danışıb. Forumdakı mövzunun aktuallığını deyən professor təqdimatı yüksək qiymətləndirib. Tədbirdə ADPU-da son vaxtlar səriştə əsaslı təhsil baxımından pedaqoji təhsilin məzmununda, təhsil prosesinin təşkilində baş verən dəyişikliklər, müəllim hazırlığına spesifik yanaşmalar və digər vacib məqamlarla bağlı maraqlı və səmərəli fikir mübadiləsi aparılıb, iştirakçıların sualları cavablandırılıb.

ADPU-nun rektoru, professor Cəfər Cəfərov tədbirdə çıxış edərək yüksək səviyyəli konseptual təqdimata görə A.Cahangirova təşəkkür edib və ziyalılıq mühitinin formalaşmasında böyük önəm kəsb edən belə təqdimatların gələcəkdə də ardıcıl keçiriləcəyini vurğulayıb. Belə forumların universitetdə təhsilin keyfiyyətinin artmasına təsir edəcəyindən ümidvar olduğunu deyib.

# Mövzular çox asan dildə şagirdlərə çatdırılır

## ARTİ-də Finlandiyadakı azərbaycanlı müəllimlə görüş

Azərbaycan Respublikasının Təhsil İnstitutunda (ARTİ) Finlandiya-Azərbaycan Assosiasiyasının vitse-prezidenti, Helsinki şəhəri tədris idarəsində Azərbaycan dili fənnini tədris edən Arzu Oqtayla görüş keçirilib. Görüşdə ARTİ-nin Elmi-Pedaqoji Mərkəzinin rəhbəri Faiq Şahbazlı, institutun direktor müavini Rəfiq Qəndilov, beynəlxalq əməkdaşlıq şöbəsinin müdiri Almaz Həsrət, şöbənin digər əməkdaşları iştirak ediblər. Görüşün keçirilməsində əsas məqsəd Arzu Oqtayın təqdimatında Finlandiyanın təhsil sistemi haqqında geniş məlumat əldə etmək olub.



Məlumat üçün bildirək ki, görüş ARTİ-nin beynəlxalq əməkdaşlıq şöbəsinin müdiri, əməkdar müəllim Almaz Həsrətin təşəbbüsü ilə keçirilib.

Öncə ARTİ-nin Elmi-Pedaqoji Mərkəzinin rəhbəri Faiq Şahbazlı Təhsil İnstitutunun tarixi və strukturu barədə məlumat verib. Təhsilin keyfiyyətinin daim yüksəkdə qalması üçün institutda aparılan fəaliyyətdən danışan F.Şahbazlı bununla kifayətlənmədiklərini və institut əməkdaşları ilə birgə daim pedaqoji təhsildə müsbətyönlü qabaqcıl beynəlxalq təcrübəni öyrəndiklərini vurğulayıb.

Finlandiyada yaşayan Arzu Oqtay çalışdığı tədris ocağındakı pedaqoji fəaliyyəti barədə geniş məlumat verib. Finlandiya təhsilini praktiki olaraq işdə tətbiqi ilə yanaşı, öz nümunəsindəki fəaliyyətindən geniş danışıb. Finlandiya təhsil sisteminin dünyada uğurlu təhsil modeli kimi qəbul edilməsinin bəzi məqamlarını açıqlayıb. Təhsil proqramlarının (kurikulumlarının) heç də Azərbaycan təhsil proqramından fərqlənmədiyini bildirən A.Oqtay Finlandiyada dərslərdə mövzuların çox asan dildə şagirdlərə çatdırıldığını vurğulayıb. Dərslərin akademik və elmi dildə deyil, şagirdlərin yaş səviyyələrinə uyğun çox asan və daha tez qavranılan dildə keçirilməsinə görə uğur qazandıqlarını deyib.

F.Şahbazlı ARTİ-nin rəhbərliyi və kollektivi adından A.Oqtayı Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə diaspor quruculuğundakı səmərəli fəaliyyətinə görə "Tərəqqi" medalına və Diasporla İş üzrə Dövlət Komitəsinin fəxri fərmanına layiq görüldüyü üçün təbrik edib. Sonda Təhsil İnstitutu ilə qarşılıqlı əməkdaşlığın və davamlı görüşlərin keçirilməsinin vacibliyini vurğulayaraq, maraqlı və məzmunlu söhbətə görə A.Oqtaya təşəkkür edib.

# Beynəlxalq Ana Dili Günü qeyd olunub

Bakı Şəhəri üzrə Təhsil İdarəsinin tabeliyindəki ümumi təhsil müəssisələrində 21 fevral Beynəlxalq Ana Dili Günü ilə əlaqədar tədbirlər keçirilib. Bakı məktəblərində "Ana dilimizi sevək və qoruyaq", "Dilimiz-dəyərimizdir", "Ana dilim-doğma dilim", "Ana dilimiz-Milli sərvətimizdir", "Mənim dilim" və digər müvafiq mövzularda tədbirlər, inşa yazı müsabiqələri, ədəbi-bədii kompozisiyalar, "dəyirmi masa"lar, xüsusi dərslər və məşğələlər təşkil edilib.

Bakı Şəhəri üzrə Təhsil İdarəsi və yerli icra qurumları əməkdaşlarının, ziyalıların, şair və yazıçıların, məktəblərin pedaqoji kollektivi, valideyn və şagirdlərin iştirak etdiyi tədbirlərdə Beynəlxalq Ana Dili Gününün tarixindən danışılıb, özünəməxsusluğu ilə seçilən Azərbaycan dilinin keçdiyi inkişaf yoluna nəzər yetirilib.

Tədbirlərdə şagirdlərə öz doğma dilinin varlığını hiss etmək, onunla qürur duymaq, onu qorumaq, inkişaf etdirməklə bağlı söhbət açılıb. Qeyd olunub ki, Azərbaycan dilinin dövlət dili səviyyəsinə yüksəlməsində ümummilli lider Heydər Əliyevin tarixi xidmətləri var. Bu gün də Azərbaycan dövləti milli-mənəvi dəyərlərin qorunmasına və dilimizin inkişafına qayğı ilə yanaşır.

Şagirdlər ana dilimizə həsr edilən şeirlər, müdrik kəlamlar, mahnılar söyləyib və ədəbi-bədii kompozisiyalar nümayiş etdiriblər. Tədbirlərdə Azərbaycan dilinin inkişafına həsr olunmuş videoçarxlar da nümayiş etdirilib.

Qeyd edək ki, paytaxt məktəblərində 21 fevralın Beynəlxalq Ana Dili Günü kimi qeyd edilməsinin əsas məqsədi Azərbaycan dilinin tarixi mərhələləri, rəngarəngliyi və bu dildə yaranmış əsərlər barədə şagirdlərin məlumatını genişləndirmək, ana dilimizi gələcək nəsillərə ötürmək üçün onlarda doğma dilimizə sevgi və hörmət hissini daha da artırmaqdan ibarətdir.

# Təhsildə sosial şəbəkələr: reallıq, yoxsa utopiya?



⇦ Əvvəli səh.1

## Pedaqoji mühit üçün müasir problemlər

Rüstəm QARAXANLI

Əgər internet hər kəsin həyatında varsa, deməli gənclər, yeniyetmə və məktəblilər də bu reallıqdan kənarda deyillər. Son bir neçə ildir mübahisə mövzusu olan "internet və sosial şəbəkələr uşaqların tərbiyəsi və davranışlarına necə təsir edir" problemi aktuallığını itirməsə də, hər halda belə bir reallığı da hamı üçün anlaşılan edib: razılaşmalıyıq ki, gənc nəsli internetsiz, daha konkret isə sosial şəbəkələrsiz qoya bilməyəcəyik. Dünyanın aparıcı dövlətlərində sosial şəbəkələrdən təhsil prosesində yararlanmağa başlanıldığından, belə demək mümkündürsə, heç buna cəhd də etməməliyik!

Ötən saylarımızda problemlə bağlı yazımızda dünyanın bir neçə ölkəsində Facebook və Twitter-dən təhsil prosesində istifadə olunmasına dair faktlardan söhbət açılmışdı. Bundan əlavə qeyd edə bilərik ki, bir sıra yerlərdə sırf məktəb və təhsil problemləri, habelə tapşırıqların yerinə yetirilməsi üçün lokal sosial şəbəkələr fəaliyyət göstərir. Ancaq onlar yuxarıda adları çəkilən servislər qədər populyar deyillər. Bunun bir neçə səbəbi var. Birincisi, istənilən sosial şəbəkə "sakin"i mövcud ünsiyyət vasitəsini dəyişməyə meyilli deyil. Burada onun dostları, həmfikirləri var və aralarındakı münasibətlər illərlə formalaşıb. İkincisi, sosial şəbəkənin sırf təhsilə bağlılığı amili bir çox məktəbli və yeniyetmənin onlardan "qaçması"na səbəb olur. "Məktəbdə onsuz da yoruluruq, bir tərəfdən də internetdə dərs" deyən gənclər üçün dünyaca populyar olan servislər daha cəlbedicidir: axı burada hər şey var - əyləncədən tutmuş fantastikayadək, xəbərdən başlayaraq online filmlərədək, şəbəkə oyunlarından... dərsədək. Məhz bu səbəbdən Qərbdə və əsasən Cənubi-Şərqi Asiyanın iqtisadi cəhətdən qabaqcıl ölkələrində təhsil prosesində Facebook və Twitter kimi sosial şəbəkə servisləri xüsusilə populyardır.

Forumlar, bloqlar, viklər, təhsil portalları və avtomatlaşdırılmış distant təhsil sistemləri güclü didaktik və metodiki üstünlüklərə malik olsalar da, populyarlıq və kommunikasiya miqyası sarıdan sosial şəbəkələrlə rəqabət apara bilməzlər. Təəssüflə olsa da qeyd etməliyik ki, müasir tələbə və məktəblilərin informasiya və kommunikasiya mədəniyyətləri informatika dərslərində və peşəkar pedaqoqlar tərəfindən yaradılmış keyfiyyətli təhsil resurslarında deyil, populyar sosial şəbəkələr hesabına formalaşır və bu, qaçılmazdır. Əksər hallarda bu, uşağın internetə "düşdüyü" andan etibarən istifadə etdiyi ilk resurs olur. Müəyyən mənada həm də bu səbəbdən pedaqoqlar tərəfindən yaradılan tədris dizaynı gənclər üçün cəlbedici deyil. Buna görə də müəllim əlavə vaxt sərf edib uşağı internetdə yaratdığı tədris mühitinə uyğunlaşdırmağa çalışır. Nəticədə uşağın tapdığı rahat və asan mühitlə pedaqoqun təklif etdiyi təhsil müstəvisi arasında bir kompromis, körpü tapmaq məcburiyyəti meydana gəlir.

Azərbaycanda bu problemin hələ aktual olmamasına baxmayaraq, ABŞ-da və Avropada sosial şəbəkələrdən təhsil prosesində yararlanmağın mümkünlüyü məsələsi xeyli müddətdir ciddi müzakirə mövzusudur. Sosial şəbəkələrdən istifadənin üstünlükləri kimi aşağıdakılar göstərilir:

**Əlbəttə, sosial media şəbəkə təhsilində yeganə vasitə deyil. Pedaqoji birlik tədris fəaliyyətinin müxtəlif formalarının ortaya çıxarılmasına çalışmalıdır. Bu günə olan reallıq isə ondan ibarətdir ki, biz sosial şəbəkələr və virtual ünsiyyət forumlarının təhsil prosesində oynaya biləcəyi rolun miqyasını tam dərk edə bilməmişik.**

- Sosial şəbəkələrin interfeysi və ideoloji aydınlığı imkan verir ki, ona müraciət edən gənc auditoriya vaxtına qənaət edib təklif olunan daha dar çərçivəli resurslara uyğunlaşmaqdan vaz keçsin. Təhsilalanların daima ünsiyyətə meyillilikləri baxımından sosial şəbəkələrdə həmyaşıdları və həmfikirləri ilə ünsiyyət (təhsil məsələləri ilə bağlı) onların oxumağa motivasiyalarını artırmış olur;
- Virtual tədris qruplarındakı forumlar gənclərin təkbaşına, yaxud kollektiv halda tədris materialını tərtib etmələrinə şərait yaradır. Söhbət məqalələr, müzakirələr, multimedia kitabxanalarından gedir. Bu, fərdi dərketmə fəaliyyətini stimullaşdırır, konkret yaradıcı və intellektual nəticənin əldə edilməsi müddətini qısaldır, hərtərəfli qiymətləndirmə və əldə edilmiş informasiyanın üzləşdirilməsi imkanlarını genişləndirir;
- Müəllimlə şagird arasında daimi yüksək səviyyəli ünsiyyət tədris prosesinin mütəmadiliyini təmin edir. Kursun nəzəri sualları və təhsilalanların layihə işləri dərsin çərçivələrini aşaraq effektivliyi təmin edir;
- Kommunikativ mühitin multimedialılığı video və audio-materialların, interaktiv əlavələrin yüklənməsi və baxışını asanlaşdırır;
- İşin fərdi və qrup formasında aparılması materialın əxz olunması və fərdi ünsiyyət təhsil trayektoriyalarının yaradılmasına imkan verir və s.

Sosial şəbəkələrin təhsil prosesində istifadə olunmasının problemli tərəfləri kimi isə aşağıdakılar qeyd edilir:

- Müəllimlərdə motivasiya qabiliyyətinin və İKT-savadın səviyyəsinin aşağı olması onlara sosial şəbəkələrdə tam və hərtərəfli peşəkar fəaliyyət göstərmək üçün yetərli olmur;
- Daimi tədris rejimində müəllimin də öyrədilməsi və prosesə dəstək istiqamətində istifadə olunan xərclər artır;
- Bir sıra məktəblərdə auditoriyalarda sosial şəbəkələrə çıxış məhdudiyyəti var.

Qərbdə bu problemlərin öhdəsindən müəyyən mənada gələ bilirlər. Belə ki, müəllimlərin informasiya texnologiyaları sahəsində savadlarının artırılması üçün ixtisasartırma kursları təşkil olunur, onların sosial şəbəkə resurslarından təhsildə yararlanma sahəsində əldə etdikləri uğurlar maddi və mənəvi cəhətdən dəstəklənir. Əlbəttə, sosial media şəbəkə təhsilində yeganə vasitə deyil. Pedaqoji birlik tədris fəaliyyətinin müxtəlif formalarının ortaya çıxarılmasına çalışmalıdır. Bu günə olan reallıq isə ondan ibarətdir ki, biz sosial şəbəkələr və virtual ünsiyyət forumlarının təhsil prosesində oynaya biləcəyi rolun miqyasını tam dərk edə bilməmişik. Açığını qeyd etmək lazımdır ki, pedaqoji mühitin böyük bir qismi bu barədə heç bir dəfə olsun belə düşünməyib. Ancaq düşünməyə nəinki dəyər, buna məcburuq: yalnız bu halda sosial şəbəkələrdən məktəblərdəki neqativ hallardan daha çox təhsil və nailiyyətlər barədə məlumatlar ala bilərik.

# "İnteraktiv "açıq dərs""

## "Naxçıvan şəhəri İslam mədəniyyətinin paytaxtı kimi" mövzusu tədrisdə



AMEA Naxçıvan Bölməsi və Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin birgə təşkilatçılığı ilə muxtar respublikanın ümumtəhsil məktəblərinin şagirdləri üçün növbəti interaktiv "açıq dərs"də əsrlərdən bəri yaşadılan və yüksək dövlət qayğısı ilə əhatə olunan islami dəyərlər, İslam mədəniyyəti abidələrinin qorunub saxlanması, bərpası və təbliği sahəsində aparılan işlər haqqında şagirdlərə ətraflı məlumat verilib.

AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Fəxrəddin Səfərlinin apardığı dərsdə bildirilib ki, İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin mədəniyyət nazirlərinin 2009-cu ilin oktyabr ayında Bakı şəhərində keçirilən VI konfransında Naxçıvan şəhəri 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı elan olunub.

Şagirdlərin diqqətinə çatdırılıb ki, bəşər sivilizasiyasının ən qədim mərkəzlərindən biri olan, qaynaqlarda Naksuana, Nəxcuan, Noşəva, Nəşevi və sair adlarla xatırlanan Naxçıvan şəhəri bütün dövrlərdə, xüsusilə İslamın intibah dövründə həmişə Azərbaycanın ictimai-siyasi və mədəni həyatında mühüm rol oynayıb, Azərbaycan Atabəyləri, Hülakülər, Qaraqoyunlular, Ağqoyunlular və Səfəvilər dövründə ölkənin inkişaf etmiş şəhərləri ilə bir sırada dayanıb. Naxçıvan Muxtar Respublikası, həmçinin onun paytaxtında bir sıra möhtəşəm memarlıq abidələri-türbələr, buzxanalar, körpülər, məscidlər, mədrəsələr və digərləri zəmanəmizədək gəlib çatıb. Əsası çox qədim zamanlara söykənən Naxçıvan mədəniyyəti orta əsrlərdə, xüsusilə müsəlman intibahı dövründə daha da inkişaf edib, burada Azərbaycan memarlığının ən möhtəşəm qollarından biri olan Naxçıvan məktəbi yaranıb, bu məktəb memarlıq tariximizə Əcəmi Əbubəkr oğlu Naxçıvani kimi görkəmli memar bəxş edib. Onun Naxçıvan şəhərində ucaltdığı Möminə xatın, Yusif Küseyir oğlu türbələri, Qoşa minarəli baştağ, Came məscidi Azərbaycan memarlığının möhtəşəm nümunələri olmaqla yanaşı, həm də İslam mədəniyyətinin çox gözəl örnəkləridir.

Fəxrəddin Səfərli bildirib ki, ümummilli lider Heydər Əliyevin ölkəmizdə ikinci dəfə hakimiyyətə qayıdışından sonra xalqımızın mənəvi irsinə münasibət tamamilə dəyişib. Beləliklə, qədim memarlıq nümunələri, geniş mənada ümumislam mədəniyyətinə aid bütün abidələr böyük dövlət qayğısı ilə əhatə edilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun diqqət və qayğısı ilə bu tədbirlər çox yüksək səviyyədə həyata keçirilir. Qeyd etmək lazımdır ki, təkcə Naxçıvan şəhərində Möminə xatın türbəsi, İmamzadə kompleksi, Miryaqub xanəgahı, Buzxana, Xan sarayı, Xan sarayının yardımçı binası, Came və Pirqəmiş məscidləri, Zaviyə-mədrəsə kompleksi bərpa olunub, Kazım Qarabəkir Paşa və Həzrəti Zəhra məscidləri tikilib əhalinin istifadəsinə verilib. İndiyədək muxtar respublika ərazisində 70-ə yaxın müxtəlif təyinatlı tarixi mədəniyyət abidəsi orijinallığı saxlanılmaqla yüksək səviyyədə bərpa olunaraq xalqa qaytarılıb.

Alim bildirib ki, təkcə 2016-cı ildə Azərbaycan xalqının məğlubedilməzlik rəmzi olan Culfa rayonundakı Əlincəqalada, XII əsr Azərbaycan memarlığının təkrarolunmaz nümunələrindən sayılan Gülüstan türbəsində, Şərur rayonunun Xanlıqlar (Parçı) kəndindəki imamzadədə bərpa işləri başa çatdırılıb, Babək rayonunun Nehrəm kəndində isə möhtəşəm məscid inşa edilərək əhalinin istifadəsinə verilib. Hazırda Kəngərli rayonunun Qarabağlar kəndində XII-XIV yüzilliklərə aid Qarabağlar Türbə Kompleksində, Şərur rayonunun Yengicə kəndindəki hamamda, Naxçıvan şəhər və Nehrəm kənd İmamzadə Komplekslərində bərpa işləri aparılmaqdadır.

Bütün bunlarla yanaşı, son illərdə Naxçıvanda müasir infrastruktur, şəhərə gələn qonaqların yerləşdirilməsini, istirahətini, gəzintisini, ekskursiyalarını təşkil etmək üçün yaradılan şərait də Naxçıvan şəhərinin İslam Mədəniyyətinin Paytaxtı seçilməsində başlıca amil rolunu oynayıb. Belə ki, İslam Ölkələri Elm, Təhsil və Mədəniyyət Təşkilatının (İSESKO) təklifi ilə İslam Konfransı Təşkilatının üzvü olan ölkələrin mədəniyyət nazirlərinin 2004-cü il dekabrın 15-17-də Əlcəzairdə keçirilmiş IV konfransında təsdiqlənmiş "İslam mədəniyyətinin paytaxtları" proqramına əsasən hər hansı bir şəhərin İslam mədəniyyətinin paytaxtı elan olunması üçün həmin şəhər bir sıra keyfiyyətlərə malik olmalıdır. Belə ki, həmin paytaxt ölkə və region səviyyəsində mühüm tarixi keçmişə, İslam və bəşər mədəniyyətində elm, incəsənət, ədəbiyyat sahəsində töhfələrə, elmi-tədqiqat, arxeoloji təhsil mərkəzlərinə, fərdi və kollektiv şəkildə mədəni tədbirlər təşkil edən qurumlara malik olmalıdır. Müasir Naxçıvan şəhəri isə bütün bu tələblərə cavab verir.

Dərsdə vurğulanıb ki, Naxçıvan şəhərində, bütövlükdə muxtar respublikada iyirmi ildən bəri aparılan məqsədyönlü siyasət, xüsusilə genişmiqyaslı abadlıq və quruculuq işləri, milli və dini dəyərlərə hörmət və ehtiram, yüksək dövlət qayğısı ilə onların qorunması, inkişaf etdirilməsi, Azərbaycan, eyni zamanda İslam mədəniyyətinə mənsub abidələrin bərpası, qorunub saxlanması, bu işlərin yüksək səviyyədə təbliği, beynəlxalq ictimaiyyətə çatdırılması xüsusi rol oynayıb. 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı seçilməsi Naxçıvan şəhərinin islami dəyərlərə və mədəniyyətlərarası dialoqa verdiyi töhfələrlə əlaqədardır.

"Açıq dərs" muxtar respublikanın 200-dən artıq ümumtəhsil məktəbində izlənilib.

# Pedaqoji təcrübənin başlanğıc konfransı keçirilib

## Dərslərin İKT vasitəsilə keçirilməsi tövsiyə olunub

Nuray ƏSGƏROVA

"Naxçıvan" Universitetinin pedaqoji və xarici dillər fakültələrinin əyani şöbə üzrə təhsil alan tələbələrinin 2017-2018-ci tədris ilinin yaz semestrində keçəcəkləri pedaqoji təcrübəyə həsr olunmuş konfrans keçirilib. Konfransı giriş sözü ilə universitetin rektoru, professor İsmayıl Əliyev açaraq bildirib ki, pedaqoji təcrübə tələbələrin ali təhsil zamanı aldıqları nəzəri bilikləri tətbiq etmələri, pedaqoji mühitə uyğunlaşmaları, pedaqoji prosesi dərindən mənimsəmələri baxımından mühüm əhəmiyyət kəsb edir.

Rektor, ümumtəhsil məktəbləri ilə əməkdaşlığın möhkəmləndirilməsinə, yüksək ixtisaslı kadr hazırlığına xidmət edəcək pedaqoji təcrübə zamanı məsuliyyət və nizam-intizamın vacib amil olmasından bəhs edib, dərslərin informasiya-kommunikasiya texnologiyaları vasitəsilə keçilməsi, tərbiyəvi tədbirlərin təşkili ilə bağlı tövsiyələrini çatdırıb.

Konfransda Naxçıvan Muxtar Respublikasının təhsil naziri Məmməd Qəribov çıxış edərək ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulan milli təhsil strategiyasının bugünkü uğurlarından, bu siyasətin muxtar respublikada nümunəvi şəkildə davam etdirilməsindən, elm və təhsilin inkişafına hərtərəfli dövlət qayğısı göstərilməsindən danışıb. Bildirilib ki, "Naxçıvan" Universiteti də göstərilən qayğıdan nəsibini alan Azərbaycan ali məktəbləri arasında özünəməxsus yeri olan müasir tipli təhsil ocağıdır. Nazir qeyd edib ki, pedaqoji təcrübə ali məktəbin tədris planında xüsusi yeri olan bir prosesdir. Pedaqoji təcrübə bütövlükdə təhsil müəssisəsi professor-müəllim heyətinin müəyyən mərhələ üzrə elmi-pedaqoji əməyinin nəticələrini aşkarlayacaq bir vasitədir. Növbəti pedaqoji təcrübə də gənclərin qocaman pedaqoqların zəngin və nümunəvi iş təcrübələrini öyrənmələri, eləcə də gələcəyin mükəmməl pedaqoqları kimi yetişmələri baxımından öz bəhrəsini verəcəkdir.

Sonra xarici dillər fakültəsinin dekanı Yasin Babazadənin, pedaqoji fakültənin dekan müavini Nazim Mahmudovun, pedaqogika və psixologiya kafedrasının müdiri Nəzakət Yusifovanın, metodist Tural Paşayevin və ali təhsil ocağının tərbiyə işləri üzrə prorektoru Əli Yusifovun çıxışları dinlənilib. Bildirilib ki, ümumilikdə 112 nəfər tələbə Heydər Əliyev adına tam orta məktəbdə, 8 nömrəli tam orta məktəbdə və 15 nömrəli tam orta məktəbdə 7 həftəlik təcrübə keçəcəklər. Çıxışlarda o da vurğulanıb ki, təcrübə zamanı ixtisas metodistləri mütəmadi olaraq məktəblərdə olmalı, tələbələrə lazımi tövsiyələr verməli, dərslərdə iştirak etməli və sınaq dərsin müzakirəsini təşkil etməlidirlər. Tələbələr təsdiq olunmuş cədvəl üzrə dərsə başlamazdan ən azı bir gün əvvəl icmalları hazırlamalı, ixtisas metodisti və fənn müəllimi tərəfindən yoxlanılıb razılıq verildikdən sonra dərsi aparmalıdırlar.

# Bakı Slavyan Universiteti tarixi yubileylər ərəfəsində



**Telman CƏFƏROV,**
*Bakı Slavyan Universitetinin tədris işləri üzrə prorektoru, professor*

## Azərbaycançılıq ideyalarının və multikultural dəyərlərin yayılması hədəf seçilib

**BSU-nun xarici universitetlərdə təşkil olunmuş 7 Azərbaycanşünaslıq, Azərbaycan dili və mədəniyyəti mərkəzləri üçün konkret fəaliyyət planı hazırlanmışdır. Fəaliyyət planında Azərbaycan Xalq Cümhuriyyətinin tarixini, azərbaycançılıq ideyalarını və xalqımızın dövlətçilik ənənələrini, müstəqillik ideallarını, milli-mədəni dəyərlərimizi, ulu öndərin Azərbaycançılıq məfkurəsini xarici auditoriyalarda tanıdan və təbliğ edən tədbirlərə, telekörpülərə, "dəyirmi masa"lara, intellektual yarışlara və mühazirələrə yer verilir.**

2018-ci il xalqımız üçün olduqca əlamətdar yubileylər ilidir. Möhtərəm Prezidentimiz İlham Əliyevin sərəncamı ilə bu il Şərqdə ilk parlamentli respublikanın - Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 və ulu öndər Heydər Əliyevin anadan olmasının 95 illik yubileyləri qeyd olunur. Bu əlamətdar tarixi hadisələr ölkəmizdə Azərbaycan Respublikası Prezidentinin seçkiləri ilə bir araya təsadüf edir. Ölkənin ictimai-siyasi və mədəni həyatında önəmli olan bu tədbirlər universitetlərimizin tədris, təlim-tərbiyə, elmi-tədqiqat və beynəlxalq əlaqələri istiqamətində fəaliyyətində ciddi canlanmaya səbəb olmaqla, professor-müəllim və tələbə heyətinin konkret layihələrə cəlb edilməsi üçün geniş perspektivlər açıb. Göstərilən əlamətdar hadisələrin hər biri ilə bağlı Bakı Slavyan Universitetində konkret tədbirlər planları hazırlanmış, Azərbaycan Respublikası Təhsil Nazirliyinin müvafiq tövsiyələri də nəzərə alınmaqla onlar Elmi Şurada müzakirə və təsdiq olunmuş, universitetin müvafiq strukturlarında, fakültə və şöbələrdə hazırlıq işlərinə start verilmişdir. Bu məzmunda tədbirlərin xüsusilə slavyan və digər ölkələrin BSU nəzdində fəaliyyət göstərən tədris-mədəniyyət mərkəzlərində, universitetin xaricdəki Azərbaycanşünaslıq, Azərbaycan dili və mədəniyyəti mərkəzlərində təşkili və keçirilməsinə böyük önəm verilir.

Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 və ulu öndər Heydər Əliyevin anadan olmasının 95 illik yubileyləri münasibətilə universitetdə fəaliyyət göstərən bütün tədris-mədəniyyət mərkəzlərinin illik iş planlarına əlavələr edilmiş, BSU-nun xarici universitetlərdə təşkil olunmuş 7 Azərbaycanşünaslıq, Azərbaycan dili və mədəniyyəti mərkəzləri üçün konkret fəaliyyət planı hazırlanmışdır. Fəaliyyət planında Azərbaycan Xalq Cümhuriyyətinin tarixini, azərbaycançılıq ideyalarını və xalqımızın dövlətçilik ənənələrini, müstəqillik ideallarını, milli-mədəni dəyərlərimizi, ulu öndərin Azərbaycançılıq məfkurəsini xarici auditoriyalarda tanıdan və təbliğ edən tədbirlərə, telekörpülərə, "dəyirmi masa"lara, intellektual yarışlara və mühazirələrə yer verilir. BSU-nun bütün tədris-mədəniyyət mərkəzlərində müvafiq ölkələrin səfirlikləri ilə müştərək tədbirlər, ədəbi-bədii kompozisiyalar, təqdimatlar, rəsm və fotosərgilərin təşkili planlaşdırılıb.

Tədbirlər planında BSU-nun xaricdəki mərkəzlərinin göstərilən yubileylərlə bağlı elmi, elmi-kütləvi, tədris-metodiki ədəbiyyatlarla və Azərbaycanın tanıdılmasına yönələn məlumat kitabçaları ilə təmin olunması, mərkəzlərin milli geyimlər və rəmzlərlə, onların nəzdindəki kitabxana fondunun yeni ədəbiyyatlarla təchizi, universitetin aparıcı alimlərinin xaricdəki mərkəzlərimizdə mühazirələri və görüşləri nəzərdə tutulub.

2016-cı ildə özünün 70 illik yubileyini təntənə ilə qeyd edən Bakı Slavyan Universiteti ötən təqvim ilində həmtəsisçisi və naşiri olduğu "Azərbaycanda rus dili və ədəbiyyatı" jurnalının da 70 illiyini bayram etdi. Yubiley tədbirlərində ölkəmizin təhsil və elmi ictimaiyyətinin, mətbuatın nümayəndələri ilə yanaşı, universitetin əməkdaşlıq etdiyi xarici universitetlərin təmsilçiləri, o cümlədən, Bolqarıstan Respublikasının vitse-prezidenti xanım Marqarita Popova iştirak etdi. Universitetin 70 illik yubileyi ərəfəsində birinci tədris korpusunun əsaslı şəkildə təmiri və yenidən qurulması, ən yeni tədris avadanlıqları və texnologiyaları ilə təchiz edilməsi, 50 nəfərədək universitet əməkdaşının müxtəlif dövlət təltiflərinə - "Əməkdar elm xadimi", "Əməkdar müəllim", "Əməkdar jurnalist" fəxri adlarına, "Tərəqqi" medalına, "Qabaqcıl təhsil işçisi" döş nişanına, "Azərbaycan Respublikası Təhsil Nazirliyinin Fəxri Fərmanı"na layiq görülməsi, son iki il ərzində tələbə qəbulu planının yüksək səviyyədə yerinə yetirilməsi və buna uyğun olaraq professor-müəllim heyətinin əməkhaqlarının artırılması və s. tədbirlər universitet həyatında ciddi canlanma yaratdı.

Ötən təqvim və tədris ili BSU-nun tədris, elmi-tədqiqat və beynəlxalq əlaqələrində daha yaddaqalan oldu. Azərbaycanın müxtəlif ölkələrlə, eləcə də slavyan ölkələri ilə diplomatik əlaqələrinin yaranmasının 25 illiyi kimi mühüm beynəlxalq tədbirlər məhz BSU-da qeyd edildi. Ukrayna Respublikasının və Bolqarıstan Respublikasının Azərbaycandakı səfirliklərinin təşəbbüsü ilə universitetimizdə təşkil olunan və həmin ölkələrə aid BSU tədris-mədəniyyət mərkəzlərinin yaxından iştirakı ilə keçirilən tədbirlərində slavyan ölkələrini təmsil edən səfirlərlə yanaşı, 30-dan artıq digər ölkənin səfirlərinin, beynəlxalq təşkilatların nümayəndələrinin iştirakı regionun ən böyük və nüfuzlu rusistika və slavistika mərkəzi kimi tanınan ali təhsil ocağına marağın göstəricisidir. Təsadüfi deyil ki, BSU nümayəndələri ötən il ölkəmizdə keçirilən Beynəlxalq humanitar forumlarda fəal təmsil olunmuş, yüksək səviyyəli qonaqları qəbul etmiş, tələbələrə Bolqarıstan Respublikasının vitse-prezidenti İliyana Yotovanın, rusiyalı siyasətçilər Aleksandr Duqin və Gennadi Burbulisin, amerikalı jurnalist Peter Tasenin və başqalarının mühazirə və ustad dərslərini dinləmək imkanı yaradılmışdır. ADA Universitetinin xətti ilə xaricdən dəvət olunmuş beynəlxalq əlaqələr üzrə tanınmış mütəxəssislərin BSU tələbələri üçün mühazirələri artıq ənənə şəklini almışdır. Bu günlərdə milli bayramımız Novruz ərəfəsində Bolqarıstan Respublikasının Azərbaycandakı səfirliyinin təşəbbüsü ilə bu ölkənin Avropa Birliyinə sədrliyi ilə bağlı təqdimatın BSU-da keçirilməsinin planlaşdırılması da universitetimizin slavyan ölkələrinin, onların dil və mədəniyyətlərinin öyrənilməsi və təbliği işində davamlı fəaliyyətinin təzahürüdür.

BSU əməkdaşları Rusiyanın 27 universiteti ilə bağlanılmış ikitərəfli müqavilələrə əsasən Moskva, Sankt-Peterburq, Ufa, Kazan, Stavropol, Tula, Volqoqrad və s. şəhərlərdə, eləcə də MDB paytaxtlarında (Bişkek, Astana, Düşənbə, Kişinyov) keçirilən onlarla beynəlxalq tədbirlərin iştirakçısı olmuş, Rusiya-Azərbaycan Universitetləri Assosiasiyasının tədbirlərində və Rusiya-Azərbaycan regionlararası forumlarda iştirak etmişlər. 2017-ci ilin aprelinə təsadüf edən və Kişinyovda keçirilən Slavyan universitetlərinin II Forumunda tədris işləri üzrə prorektor, professor T.H.Cəfərovun rəhbərliyi ilə professor-müəllim və tələbə heyətini təmsil edən nümayəndələrin fəallığına görə BSU YUNESKO-nun xüsusi diplomuna layiq görülmüşdür.

Ötən tədris ilində BSU qrant layihələri əsasında iki Beynəlxalq elmi konfransa ev sahibliyi etmiş, ulu öndərin anadan olmasının 94-cü ildönümü münasibətilə keçirilən ənənəvi "Azərbaycanşünaslığın aktual problemləri" adlı IX Beynəlxalq elmi konfransı xarici universitetlərdə fəaliyyət göstərən Azərbaycan dili və mədəniyyəti mərkəzlərinin nümayəndələri də qatılmaqla yüksək səviyyədə təşkil etmişdir. Beynəlxalq Rus Dili və Ədəbiyyatı Müəllimləri Assosiasiyası (MAPRYAL) ilə birgə keçirilən və Azərbaycanda rus dili və ədəbiyyatının tədrisi problemlərinə həsr olunan beynəlxalq elmi konfransda MAPRYALın və Rusiya Təhsil Akademiyasının prezidenti, akademik Lyudmila Verbitski, Rusiya Xalqlar Döstluğu Universiteti, Puskin adına Dövlət Rus Dili İnstitutu, Ukrayna, Belarus, Gürcüstan və Qazaxıstan universitetlərini təmsil edən 40-dan artıq metodist-alim, ali və orta məktəb müəllimi iştirak etmiş, qrant layihəsi çərçivəsində BSU rusistləri və metodistlərinin müəllifliyi ilə yazılmış ali və orta məktəblər üçün "Rus dili" və "Literatura" dərslik komplekslərinin təqdimatı olmuşdur. "Milli kimlik" mövzusunda (layihə rəhbəri: prof.R.Qeybullayeva) BSU-nun Kembric Universiteti ilə birgə keçirdiyi konfrans professor-müəllim heyəti, doktorant və magistrantların iştirakı ilə elmi müzakirələrə imkan vermişdir. Bu beynəlxalq konfransda yerli mütəxəssislərlə yanaşı, Böyük Britaniyanın Oksford və Kembric, Türkiyənin Qazi və Mərmərə universitetlərinin professorlarının iştirakı problemlə bağlı maraqlı müzakirələrə səbəb olub.

Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 və ulu öndər Heydər Əliyevin anadan olmasının 95 illik yubileylərinə hazırlıq tədbirləri çərçivəsində universitet hazırda 7 xarici universitetdə fəaliyyət göstərən Azərbaycanşünaslıq, Azərbaycan dili və mədəniyyəti mərkəzləri, bu universitetlərin özləri ilə əlaqələrə xüsusi önəm verir. Universitet rəhbərliyi BSU-da və onun xaricdə təşkil etdiyi mərkəzlərdə (Moskva Dövlət Linqvistik Universiteti, Müqəddəs Oxridski adına Sofiya Universiteti, Kiyev Linqvistik Universiteti, Poltava Ticarət-Sənaye Akademiyası, Çerniqov Dövlət Universiteti, M.Tank adına Belarus Dövlət Pedaqoji Universiteti, Ural Dövlət Universiteti) azərbaycanşünaslığın inkişafı ilə bağlı Prezident İlham Əliyevin 2008-ci il tarixli sərəncamına müvafiq olaraq, hər il konkret tədbirlər planı həyata keçirir. Son bir il ərzində BSU-nun rektoru, professor Nurlana Əliyevanın rəhbərliyi ilə nümayəndə heyəti Bolqarıstanda olmuş, Sofiya Universitetindəki mərkəzin əməkdaşları ilə görüşmüş, Novruz bayramına təsadüf edən bu səfər zamanı milli dəyərlərimizin geniş təqdimatı keçirilmişdir. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə bərpa edilmiş "Trapezitsa" Memarlıq Muzey-Qoruğu ziyarət edilmiş, Sofiya universitetlərində mühazirələr təşkil olunmuşdur.

Kiyev Linqvistik Universiteti və M.Tank adına Belarus Dövlət Pedaqoji Universiteti ilə müştərək elmi əsərlər çap olunmuş, Çerniqov Dövlət Texnologiya Universitetində Azərbaycan dili və mədəniyyəti mərkəzi, Azərbaycan dili Bazar günü məktəbi fəaliyyətə başlamışdır. BSU-nun rektoru, professor N.M.Əliyeva və elmi işlər üzrə prorektor R.M.Novruzov göstərilən universitetin Fəxri professoru adına layiq görülmüşlər.

Nəzdində Azərbaycan dili və mədəniyyəti mərkəzləri fəaliyyət göstərən slavyan universitetlərinin tələbələri üçün Azərbaycan dili üzrə Yay və Qış məktəbləri zəngin və maraqlı proqramları ilə əcnəbi tələbələrdə böyük maraq doğurur. Keçən ilin yayında Müqəddəs Oxridski adına Sofiya Universitetinin, bu qış tətili zamanı isə Moskva Dövlət Linqvistik Universitetinin "Azərbaycan dili" ixtisası üzrə təhsil alan tələbələri üçün BSU-da xüsusi proqram üzrə dil hazırlığı kursları təşkil olunmuş, tələbələr paytaxtımız və bölgələrimizlə tanış edilmişlər.

BSU-nun "Azərbaycanşünaslıq" Tədris-mədəniyyət mərkəzi sadalanan bütün xarici mərkəzlər üçün tarixi hadisələrlə bağlı tədbirlər planı tərtib etmiş, qarşılıqlı mütəmadi məlumat mübadiləsi təmin olunmuşdur. Ulu öndərin 95 illiyinə həsr olunan və universitetin təşkilatçılığı ilə keçirilən beynəlxalq elmi konfransa BSU-nun xaricdəki Azərbaycan dili və mədəniyyəti mərkəzlərindən elmi məruzələrin tezisləri qəbul edilməkdədir.

BSU nəzdində fəaliyyət göstərən tədris-mədəniyyət mərkəzləri universitetdə təmsil olunan ixtisaslara, dil və mədəniyyətlərə müvafiq olaraq, müxtəlif layihələr həyata keçirir. Mədəni-kütləvi tədbirlər üstünlük təşkil etsə də, bir sıra mərkəzlər, o cümlədən, Yunan, Polşa, Belarus, Rusiya, Ukrayna mərkəzləri builki fəaliyyətlərində bədii tərcümələrə, lüğətlərin və məlumat kitabçalarının tərtibinə üstünlük veriblər. Ötən ilin noyabrında Yunanıstanın Azərbaycandakı səfiri Nikolaos Kanellosla BSU-da görüşdən sonra onun təşəbbüsü ilə 8 ölkənin səfirinin iştirakı ilə "XXI əsr: dünyaya baxış, təhsil və mədəniyyətin harmoniyası" mövzusunda "dəyirmi masa" keçirildi. Yunanıstanın Azərbaycandakı səfirliyinin və BSU-nun Yunan mərkəzinin təşəbbüsü ilə müasir yunan ədəbiyyatının tanınmış nümayəndəsi Amanda Mixalokulu ilə 21 fevral 2018-ci il tarixdə təşkil olunan görüşdə onun yunanşünas tələbələrimiz tərəfindən dilimizə çevrilmiş hekayələrinin təqdimatı böyük maraqla qarşılandı. BSU-nun "Luğət mərkəzi"nin müdiri, professor T.Şükürbəyli və M.Tank adına Minsk Pedaqoji Universitetinin dosenti V.Stariçonokun müəllifliyi ilə "Belarusca-azərbaycanca, Azərbaycanca-belarusca" lüğəti tərtib olunmuş və nəşr edilmişdir.

BSU-nun Polşanın Torun Universiteti, "Adam Marşalek" Holdinqi ilə sıx əməkdaşlıq əlaqələri ənənəvi olaraq bu ölkədə keçirilən Asiya Konqresində universitetimizin alimlərinin iştirakına şərait yaradıb. BSU nümayəndə heyəti keçən il 14-15 may tarixlərinə təsadüf edən konqresdə iştirak etmiş, növbəti - V Beynəlxalq Asiya Konqresinin (9-11 may, 2018-ci il) Polşa və Azərbaycanın dövlət müstəqilliyinin 100 illik yubileyinə həsr olunması barədə razılıq əldə edilmişdir. Göstərilən konqresin təşkilat komitəsinə BSU alimlərinin məruzələri təqdim olunmuşdur. Torun Universitetində keçiriləcək növbəti Asiya Konqresində universitetimizin nümayəndə heyətinin iştirakı maraqla gözlənilir.

BSU-nun beş nəfər tələbəsi M.Tank adına Minsk Pedaqoji Universitetində keçirilən "MDB ulduzları" festivalında Azərbaycanı təmsil etmiş, bir qrup rusiyaşünas tələbəmiz isə Soçidə keçirilən intellektual yarışlarda fərqlənmişlər. Yaxın günlərdə M.Tank adına Minsk Pedaqoji Universiteti rektorunun Azərbaycana, BSU rektorunun Belarusa səfərləri, eləcə də Moskva Dövlət Linqvistik Universiteti rektorunun Bakıya gəlişi, BSU nümayəndə heyətinin isə Minskdə keçiriləcək konfransda iştirakı planlaşdırılıb.

BSU nəzdində tədris-mədəniyyət mərkəzlərinin fəaliyyətini gücləndirmək, universitetdə tədris olunan əcnəbi dillər üzrə tələbələrin danışıq vərdişlərini inkişaf etdirmək, onların tələbə və müəllim mübadiləsi proqramlarında iştirak imkanlarını genişləndirmək məqsədilə xarici mütəxəssislərin ilboyu və ya müəyyən müddətə tədris prosesinə cəlbinə diqqət artırılıb. Polşa, Almaniya və Çexiyadan dəvət olunmuş əcnəbi müəllimlər tədrislə yanaşı, nəşr və tərcümə layihələrinə də qoşulublar.

Müxtəlif slavyan dilləri ("Tərcümə" ixtisası) və ölkələri ("Regionşünaslıq") üzrə bakalavriat səviyyəsini bitirən tələbələrin BSU ilə əməkdaşlıq edən Rusiya, Polşa, Çexiya, Belarus, Ukrayna universitetlərində magistratura təhsilini davam etdirmələri, "Erasmus+", "Mövlana" Beynəlxalq proqramları üzrə tələbə mübadiləsində daha çox tələbənin iştirakı üçün universitetin Beynəlxalq şöbəsi müvafiq təqdimatlar edir. Azərbaycanın bir sıra universitetlərinin, o cümlədən, BSU-nun iştirak etdiyi yeni "Erasmus+" Beynəlxalq mübadilə proqramı (PETRA) ali təhsil ocaqlarımızda tədris və təlimə, elmi innovasiyaların tətbiqinə və "Elektron universitet" layihəsinin icrasına dəstək olacağına, həm də ölkənin paytaxtda və regionda yerləşən universitetləri arasında əlaqələrin yaranmasına və möhkəmlənməsinə xidmət edəcək.

BSU-da əcnəbi vətəndaşların, o cümlədən, MDB məkanında yaşayan soydaşlarımızın bakalavriat, magistratura və doktorantura səviyyələrində təhsil almalarına lazımi şərait yaradılıb. Son iki ildə dövlətlərarası müqavilələr əsasında Çin, Vyetnam, Türkiyə vətəndaşlarının magistratura şöbəsində "Rus dili" ixtisası üzrə təhsil almaq üçün müraciətlərinin sayı artıb. Tələbə qəbulu kampaniyasının təşkili məqsədilə Əcnəbi tələbələrlə iş üzrə dekanlığın, Beynəlxalq şöbənin, Türk araşdırmaları mərkəzinin əməkdaşları Türkiyə, Rusiya və Misirə ezam olunublar.

Hazırda universitetdə ulu öndərin 95 illiyinə, onun çoxşaxəli fəaliyyətinə, dil-ədəbiyyat, mədəniyyət və azərbaycanşünaslıq məsələlərinə münasibətinə həsr olunmuş elmi məcmuə hazırlanır. Azərbaycan, rus və ingilis dillərində tərtib olunan bu məcmuə ümummilli liderin təşəbbüsü ilə yaradılmış BSU-nun inkişafında onun rolunu vurğulamaq, universitetin qazandığı müvəffəqiyyətləri, xarici universitetlərdə fəaliyyət göstərən Azərbaycan dili və mədəniyyəti mərkəzlərində və bu tədris ocağının özündə təşkil olunmuş tədris-mədəniyyət mərkəzlərində görülən işləri işıqlandırmaq məqsədi güdür.

Universitetin nəzdində fəaliyyət göstərən Rusiya tədris-mədəniyyət mərkəzləri (Moskva və Sankt-Peterburq auditoriyaları) Rusiya İnformasiya-Mədəniyyət Mərkəzi ilə müştərək yubiley tədbirləri, yaradıcılıq gecələri, yeni dərsliklərin və kitabların təqdimatlarını keçirib. Puşkin, Lermontov, Yesenin, Axmatova yaradıcılığına həsr olunmuş ədəbi-bədii gecələrə tələbələrlə yanaşı, orta məktəb şagirdləri və müəllimləri dəvət olunub. Artıq neçə illərdir ki, BSU Rusiya İnformasiya-Mədəniyyət Mərkəzinin təşkilatçılığı və Təhsil Nazirliyinin dəstəyi ilə keçirilən Rus dili üzrə Respublika olimpiadasının və Puşkiniana müsabiqəsinin yekun mərhələsinə ev sahibliyi edir.

Bu tədris ilində BSU-nun müəllimi Maya Cəfərquliyeva MDB üzrə "Ən yaxşı gənc alim" Beynəlxalq müsabiqəsinin qalibi olmuş, Rusiya İnformasiya-Mədəniyyət Mərkəzi BSU əməkdaşları professor Flora Naciyevanı və dosent İlahə Carçıyevanı "İlin ən yaxşı rus dili və ədəbiyyatı müəllimi" elan etmişdir.

MDU-nin Bakı Filialı və Rusiya İnformasiya-Mədəniyyət Mərkəzində rus dilində təşkil olunan, Rusiyanın etnoqrafiyasına, coğrafiya və tarixinə həsr edilən imla müsabiqələrində, rusca kütləvi imla yazısında BSU-nun rus bölmələrinin tələbələri ilə yanaşı, Azərbaycan bölmələrinin də tələbələrinin fəal iştirakına şərait yaradılıb.

BSU Rusiya Xalqlar Döstluğu Universiteti tərəfindən icra olunan "Şəbəkə universiteti" layihəsində iştirakını davam etdirir və "Filologiya (rus dili və ədəbiyyatı)" ixtisası üzrə magistratura səviyyəsində ikili diplom verir.

Universitet Azərbaycan və rus dillərində təlimlə yanaşı, bir sıra ixtisaslar üzrə ingilis dilində tədris prosesinin təşkilini planlaşdırır. Bu aylarda Monteneqro və Rumıniyada Azərbaycan dili və mədəniyyəti mərkəzlərinin açılması barədə razılıq əldə olunub, əməkdaşlıq müqavilələri imzalanıb.

BSU Qafqazda və Zaqafqaziyada rusistikanın mərkəzi kimi ali və orta təhsil pilləsində pedaqoji və elmi-pedaqoji kadrların ixtisasartırma, ixtisasdəyişmə və stajkeçmə tədbirlərinə xüsusi önəm verir. Son iki ildə bu məqsədlə Rusiyanın bir sıra aparıcı universitetləri ilə (Rusiya Xalqlar Dostluğu Universiteti, Moskva Dövlət Pedaqoji Universiteti, Puskin adına Dövlət Rus Dili İnstitutu) müştərək proqramların icrası davam etdirilib.

Ulu öndərin 13 iyun 2000-ci il tarixli fərmanı ilə keçmiş M.F.Axundov adına APRDƏİ-nin bazasında yaradılmış Bakı Slavyan Universitetinin slavyan ölkələrində fəaliyyət göstərən Azərbaycan dili və mədəniyyəti mərkəzləri bu gün azərbaycanşünaslığın və xalqımıza xas olan multikultural dəyərlərin MDB və Avropa məkanında yayılmasına xidmət edir, yunan-slavyan və roman-german mədəniyyəti nümunələrinin Azərbaycanda tanıdılmasına və gənc nəslin bu mədəni irsə dərindən yiyələnməsinə səy göstərir. Azərbaycan xalqının ümummilli lideri, Avrasiya məkanında və bütün dünyada gedən inteqrasiya və əməkdaşlıq tendensiyalarının gözəl bilicisi Heydər Əliyevin ideyası əsasında yaradılmış bu ali məktəbdə təkcə slavyan və türk xalqlarının tarixi və ədəbi-mədəni əlaqələrinin deyil, həm də Avrasiya arealını Qərblə birləşdirən tarixi, mədəni, ədəbi, dil və dini münasibətlərin öyrədilməsinə və gündəmdə saxlanılmasına ciddi əhəmiyyət verilir.

# Təhsilin keyfiyyətinin yüksəldilməsində qiymətləndirmənin rolu

**Nəbi MAHMUDOV,**
*Bakı şəhəri 83 nömrəli məktəb-liseyin direktoru, riyaziyyat üzrə fəlsəfə doktoru*

## Təhsilverənlərin formativ qiymətləndirmə ilə bağlı peşəkarlıq səviyyəsi artırılır

“Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”nda təhsilin keyfiyyətinin yüksəldilməsi, təhsilverənlərin peşəkarlıq və təhsilalanların səriştəlilik səviyyəsinin artırılmasına ciddi önəm verilir. Burada təhsilalanın səviyyəsinin təhsilverənin səviyyəsindən asılı olduğu qeyd olunur və təhsil müəssisələrində çalışanların peşəkarlıq səviyyəsinin yüksəldilməsi hədəf kimi qarşıya qoyulub.

Bu baxımdan Azərbaycan Respublikası Təhsil Nazirliyinin 28 avqust 2017-ci il tarixli 261 nömrəli əmri ilə 2017-2018-ci dərs ilinin “Ümumi təhsildə keyfiyyət ili” elan edilməsi fəaliyyətlərin ümumi təhsilin keyfiyyətinin artırılması istiqamətində birləşdirilməsini təmin etməyə xidmət edir.

Məktəbin, ümumilikdə bütün tipdən təhsil müəssisələrinin əsas vəzifəsi təhsilin keyfiyyətini yüksəltməkdən - keyfiyyətli təhsil verməkdən, bu gün sabahın tələblərinə cavab verən mütəxəssisini yetişdirmək üçün əməli fəaliyyət göstərməkdən ibarətdir. Bu isə həyata keçiriləcək fəaliyyətlərin əsaslandırılmış şəkildə müəyyən olunmasını, ilkin olaraq düşünülmüş fəaliyyət planının (planlaşdırmanın) yaradılmasını tələb edir.

Bakı Şəhəri üzrə Təhsil İdarəsinin məktəblərin fəaliyyətlərinin istiqamətlərini ümumi şəkildə müəyyən edən və təhsil müəssisələrinə təklif olunan fəaliyyət planları əsasında hər bir təhsil müəssisəsinin özünün spesifik xüsusiyyətlərinə uyğun fəaliyyət planı hazırlaması və həyata keçirməsi təqdirəlayiq hal olmaqla, təhsil müəssisələrində ciddi canlanmanın yaranmasını təmin etmişdir. Bizim məktəb-liseydə də fəaliyyət tərtib edilmiş, müzakirə və qəbul olunmuş əməli plan əsasında həyata keçirilir.

Planda hədəflər və onların həyata keçirilmə alqoritmi müəyyən olunur. İl çərçivəsində fənlərin (o cümlədən, ana dili və riyaziyyat fənlərinin) tədrisi vəziyyətini öyrənmək, onların təhsilalanlar tərəfindən keyfiyyətli mənimsənilməsinə nail olmaq üçün ilkin olaraq təhsilalanların və təhsilverənlərin fəaliyyətlərinin izlənilməsi və qiymətləndirilməsi həyata keçirilir.

Tədris ilinin ilk ongünlüyündə təhsilalanların fənlər üzrə əvvəlki tədris ilində reallaşdırılmış alt məzmun standartları üzrə mövcud nailiyyət səviyyəsi müəyyən edilir - diaqnostik qiymətləndirmə keçirilir. Bu qiymətləndirmənin nəticələri təhsilverənə öz fəaliyyətini qurmaq üçün istiqamət verir və o, hansı təhsilalana necə fərdi yanaşacağını müəyyən edir.

Dərs ili ərzində təhsilverənin tədris prosesində təhsilalanların fəaliyyətini izləməsi və bacarıq səviyyələrini qiymətləndirməsi daim diqqət mərkəzində saxlanılır. Təhsilverənin dərsləri müşahidə olunur, onun təhsilalanların fəaliyyətini qiymətləndirmə bacarığı, bu zaman qiymətləndirmə səviyyələrinə uyğun vasitələrdən istifadə etməsi qiymətləndirilir, çatışmazlıqlar olduğu halda, onların aradan qaldırılması üçün təhsilverənə zəruri məsləhətlər verilir, dəstək göstərilir.

“Ümumi təhsil məktəblərində məktəbdaxili qiymətləndirmənin aparılmasına dair müvəqqəti Təlimat”a uyğun olaraq tədris vahidi, bölmə və s. üzrə kiçik summativ qiymətləndirmə aparılır. Bundan sonra hər bir təhsilalanın bacarıq səviyyəsi onun kiçik summativ qiymətləndirmə nəticələri ilə tutuşdurulur. Bu tutuşdurma nəzarəti həyata keçirənlərə təhsilalanların tədris vahidi üzrə fəaliyyətinin təhsilverən tərəfindən düzgün qiymətləndirilib-qiymətləndirilmədiyi barədə informasiya verir. Məsələn, təhsilalanın 15.09 - 25.10 müddətində fəaliyyəti ana dilindən 7 dəfə qiymətləndirilib, müəllimin formativ qiymətləndirmə dəftərində qeydlər edilib (I, II, I, I, II, II, I) və bu tədris vahidinin sonunda aparılmış kiçik summativ qiymətləndirmədə təhsilalan “2” (və ya “3”) qiymət alıb. Buradan görünür ki, təhsilverən təhsilalanın fəaliyyətini düzgün izləyib və onun bacarıq səviyyəsini düzgün qiymətləndirib. Həmin təhsilalan kiçik summativ qiymətləndirmədə “4” (və ya “5”) almış olduğu təqdirdə isə təhsilverənin təhsilalanın fəaliyyətini (bacarıq səviyyəsini) düzgün qiymətləndirmədiyi, subyektivizmə yol verdiyi müəyyən olunur, araşdırma aparılır. Təhsilalanın bacarıq səviyyəsi III, IV, IV, III, IV, III, IV kimi qiymətləndirildiyi və onun kiçik summativ qiymətləndirmə nəticəsi “2” (və ya “3”) olduqda da təhsilverən haqqında eyni nəticəyə gəlinir. Bu “nəticələr” təhsilverənin qiymətləndirmə səviyyəsi barədə həyəcan siqnalı verir və idarəedənlər onun səbəbini araşdırır, aradan qaldırılması üçün zəruri addımlar atır. Tədris prosesində fəaliyyətin izlənilməsi, onun kiçik summativ qiymətləndirmə nəticələri ilə müqayisə edilməsi formativ qiymətləndirmənin əhəmiyyətini - təhsilin keyfiyyətinin yüksəldilməsində onun önəmli rol oynadığını göstərir. Bu baxımdan təhsil müəssisələrində təhsilverənlərin formativ qiymətləndirmə ilə bağlı peşəkarlıq səviyyəsinin artırılması qayğısına qalınır: müəllimlərin dərsləri planauyğun olaraq izlənilir, fənn metodbirləşmə yığıncaqlarında müzakirə edilir və onlara əməli köməklik göstərilir.

Noyabr ayının ikinci həftəsində fənlər üzrə tədris ilinin ilk iki ayı ərzində reallaşdırılmış alt məzmun standartlarının mənimsənilmə səviyyəsini müəyyən etmək üçün müvafiq komissiya - monitorinq və qiymətləndirmə qrupu tərəfindən I-IV səviyyələrdə qiymətləndirmə vasitələri (açıq tipli tapşırıqlar) hazırlanır, paralel siniflərdə eyni vasitələr əsasında monitorinq aparılır, nəticələr ümumilikdə və hər bir tapşırıq üzrə qiymətləndirilir, çatışmazlıqlar müəyyən edilir, onların başvermə səbəbləri araşdırılır, nəticələr operativ olaraq direktoryanı müşavirələrdə müzakirə olunur, şagirdlərə və valideynlərə bildirilir, çatışmazlıqların aradan qaldırılması üçün təhsilalan, təhsilverən və valideynlərə zəruri tövsiyələr verilir və həyata keçirilməsi nəzarətdə saxlanılır.

Məsələn, 2016-2017-ci dərs ilində ibtidai təhsil səviyyəsinin 4-cü siniflərində təhsilalanların ana dilindən oxuyub-anlama səviyyəsinin, riyaziyyatdan isə oxuyub-anlama və tətbiqetmə bacarıqlarının müəyyən edilməsi üçün müvafiq monitorinqlər aparılmış, həmin vaxt nəticələri təhsilverənlər və təhsilalanlarla müzakirə edilmiş, valideynlərin diqqətinə çatdırılmış, onların münasibətləri öyrənilmişdi. Keçən müddət ərzində tədris prosesində baş vermiş dəyişikliklərin müəyyən edilməsi məqsədi ilə cari dərs ilinin noyabr ayında 4-cü siniflərdə ana dili və riyaziyyatdan həmin tapşırıqlar əsasında monitorinq aparıldı, nəticələri əvvəlki tədris ilində 4-cü siniflərdə təhsil almış şagirdlərin nəticələri ilə müqayisəli təhlil edildi. Müqayisə göstərir ki, bu dərs ilində təhsilalanların ana dilindən oxuyub-anlama, dinləyib-anlama və riyaziyyatdan oxuyub-anlama və tətbiqetmə bacarıqları sahəsində müəyyən irəliləyişlərə nail olunub. Bunlar 2016-2017-ci və 2017-2018-ci tədris illərinin noyabr aylarında 4-cü siniflərdə ana dili və riyaziyyatdan eyni tapşırıqlar əsasında aparılmış monitorinqlərin nəticələrinin diaqramla təsvirlərindən aydın görünür.

Müəyyən müddətdən sonra 2-ci, 3-cü və s. monitorinqin aparılması, nəticələrinin qiymətləndirilməsi və əvvəlki monitorinqin nəticələri ilə müqayisə olunması - dəyərləndirmənin həyata keçirilməsi nəzərdə tutulur. Qeyd edək ki, dəyərləndirmənin nəticələri barədə pedaqoji şuraya məlumat verilir, müzakirələr əsasında qəbul edilən qərarın icrası üçün təhsilverənə həyata keçirilməsi zəruri olan tövsiyələr hazırlanaraq təqdim olunur. Bu dəyərləndirmələr təhsilin keyfiyyətinin yüksəldilməsinə xidmət edir.

Beləliklə, deyə bilərik ki, tədris ilinin əvvəlində təhsilalanların ilkin səviyyəsinin təyin olunması (diaqnostik qiymətləndirmənin aparılması), tədris prosesində təhsilalanların fəaliyyətinin izlənilməsi və bacarıq səviyyəsinin müəyyən edilməsi (bu zaman formativ qiymətləndirmə vasitələrindən istifadə olunması), nəticələrinin tədris vahidi, bölmə və s. üzrə aparılan kiçik summativ qiymətləndirmələrin, həmçinin monitorinqlərin nəticələrilə tutuşdurulması ilə təhsilalanların inkişaf tendensiyası haqqında informasiya əldə olunur və onunla təhsilverənin fəaliyyəti qiymətləndirilir, peşəkarlıq səviyyəsi müəyyən edilir.

Tutuşdurma nəticələrinin müzakirəsi, müvafiq tövsiyələrin verilməsi təhsilverənin məsuliyyətini, öz üzərində çalışaraq peşəkarlıq səviyyəsini artırmasını, nəticə etibarı ilə təhsilalanların səviyyəsinin artırılmasını - təhsilin keyfiyyətinin yüksəldilməsini təmin edir.

Göstərilənlərə əməl edilməsi - hədəflərin düzgün təyin olunması, tədris prosesinin həyata keçirilməsi, reallaşdırılmış alt məzmun standartları üzrə təhsilalanların nailiyyət səviyyəsinin müəyyən edilməsi üçün monitorinqlərin aparılması və nəticələrin qiymətləndirilməsi, prosesin icrasında buraxılan səhvlərin aradan qaldırılması ilə bağlı təkliflərin hazırlanmasını və yeni səviyyədə davam etdirilməsini, qiymətləndirmələrinin qiymətləndirilməsinin aparılmasını tələb edir. Bu isə hədəflərə çatmaqda - təhsilin keyfiyyətinin yüksəldilməsində qiymətləndirmənin əhəmiyyətli rol oynadığını göstərir.

# Azərbaycan dili fənninin tədrisində müasir təlim texnologiyaları

**Sevinc AXUNDOVA,**
*Salyan şəhəri Yusif Qasımov adına 4 nömrəli tam orta məktəbin ibtidai sinif müəllimi*

## İKT-nin imkanlarından, interaktiv lövhədən istifadə tədris prosesini yaddaqalan və maraqlı edir

Müasir təlimin əsas vəzifəsi demokratik ruhlu, müstəqil düşüncəli, yüksək bilik və bacarıqlara yiyələnmiş gənc nəslin tərbiyə olunmasıdır. Bunun üçün tədris prosesində yeni təlim texnologiyalarından istifadə zəruridir. Bu gün təlimdə yeni texnologiyalardan istifadə etməklə təhsilin keyfiyyətinin yüksəldilməsi hər bir müəllimin arzusudur və hər birimiz buna çalışırıq.

Fəal təlimə əsaslanan müasir dərsin mahiyyətini düşünmə, öyrənmə və danışma təşkil edir. Metodik ədəbiyyatlarda müasir dərsin strukturu 7 mərhələdən (motivasiya, problemin qoyuluşu, tədqiqatın aparılması, informasiya mübadiləsi, informasiyanın müzakirəsi, nəticə və ümumiləşdirmə, yaradıcı tətbiqetmə, qiymətləndirmə) ibarət göstərilsə də, əslində bu 3 mərhələni özündə ehtiva edir: öyrənmə, tətbiqetmə, dəyərləndirmə. Göründüyü kimi, 45 dəqiqəlik dərsin bütün mərhələlərində şagird fəaliyyətdədir. Bu zaman o, həm yazılı, həm də şifahi fəaliyyət göstərir.

Hər bir fənn üzrə proqramda (kurikulumda) fənnin xarakterinə uyğun fəaliyyət xətləri verilmişdir. Azərbaycan dili fənn proqramında (kurikulumunda) aşağıdakı fəaliyyət xətləri nəzərdə tutulmuşdur.

- Problemin həlli;
- Mühakiməyürütmə və əsaslandırma;
- Ünsiyyət;
- Tədqiqetmə;
- Tətbiqetmə.

Qeyd edilən fəaliyyətlər məzmun standartlarında öz əksini tapır.

Məzmun standartlarının gerçəkləşdirilməsi zamanı şagird araşdırır, mühakimə yürüdür, münasibət bildirir, fikirlərini əsaslandırır, öyrəndiklərini tətbiq edir və bütün bu fəaliyyətlər həm yazılı, həm də şifahi formada yerinə yetirilir.

Müəllim təlim prosesində müzakirə, rollu oyun, ziq-zaq, karusel, klaster, plan tərtibi, dinlənilmiş mətnlərin şifahi təhlili, dinləmə materialları üzrə müsahibə və s. üsullardan istifadə etməklə şagirdləri axtarışa, problemi həll etməyə sövq edə bilər.

Mən də bir ibtidai sinif müəllimi kimi təhsilimizdəki yenilikləri, yeni təlim texnologiyalarını, kurikulumun tələblərinə cavab verən meyarları öz fəaliyyətimdə tətbiq etməyə səy göstərirəm. İnteraktiv təlim metodlarının, fənn kurikulumlarının tətbiqi ilə bağlı keçirilmiş bir çox kursların dinləyicisi olmuşam.

Öyrəndiyim bu yeniliklərdən daim dərslərimdə istifadə edirəm. İş təcrübəmə əsasən deyə bilərəm ki, istifadə etdiyim yeni metodlar şagirdlərdə idrak fəaliyyətinin, müstəqil mütaliə qabiliyyətinin, hər hansı hadisəyə tənqidi yanaşa bilmək kimi müsbət cəhətlərin inkişafına stimul verir. Fəal təlim metodları ilə aparılan dərslərin şagirdlərin sevincinə, marağına səbəb olduğunun şahidiyəm.

Mən müəllim-şagird münasibətlərinin düzgün qurulmasına da xüsusi diqqət verirəm. Çünki bu münasibətlərin şagirdlərin təhsilə marağının artırılmasında, tədris olunan fənlərin sevdirilməsində mühüm əhəmiyyəti vardır. Pedaqoji fəaliiyyətin belə əməkdaşlıq əsasında qurulması hər bir şagirdin intellektual imkanlarını, meyil və maraqlarını daha düzgün aşkara çıxarmağa imkan verir. Həmçinin mən hər bir şagirdin nə ilə maraqlandığını öyrənir, onun qabiliyyətinin, istedadının düzgün istiqamətləndirilməsinə, eyni zamanda inkişaf etdirilməsinə kömək etməyə çalışıram. Bu cür münasibət uşaqda özünə inam hissi yaradır. Şagird öz bacarığını, nəyə qadir olduğunu ürəklə nümayiş etdirməyə çalışır.

Təlimdə keyfiyyət əldə etmək üçün şagirdlərin psixoloji xüsusiyyətlərini dərindən bilmək xüsusilə vacibdir. Doğrudan da, düzgün qurulmuş müəllim-şagird münasibətləri şagirdlərin təlim marağının artırılmasında mühüm vasitədir. Qarşılıqlı ünsiyyət şagirlərin fəallığına, kollektiv şəkildə işləmələrinə istiqamət verir, şərait yaradır. Şagirdlərə bu cür yanaşma onların qrup işi zamanı da səmərəli əməkdaşlıq etməsinə müsbət təsir göstərir.

Müasir tədris zamanı texniki vasitələrdən istifadə təlimin məzmununu daha da zənginləşdirir. Belə ki, kompüterdə Microsoft Power Point, Microsoft Word, ActivİnspIre, Bandicam proqramlarından istifadə etməklə rəngarəng dərs nümunələri hazırlamaq mümkündür. Bu cür qurulmuş dərslər şagirdlər tərəfindən maraqla qarşılanır və asan mənimsənilir.

Fəal təlimdə dərs motivasiya ilə başlanır. Hər bir dərsdə qoyulan motivasiya şagirddə maraq oyatmaqla bərabər, onu düşündürür, idrak qabiliyyətini yüksəldir, daha fəal olmağa sövq edir.

Məsələn, mən “K” səsi və hərfi” mövzusunu keçərkən lövhədə kartof, traktor, park şəkillərini nümayiş etdirirəm. Hər şəklin altında yazılan adındakı “K” hərfi qırmızı rənglə işarə olunur. Belədə şagirdlər “qırmızı rənglə verilmiş hərflər necə səslənir” sualına asanlıqla cavab verirlər.

Tədqiqatın aparılması zamanı müxtəlif iş formalarından istifadə edirəm. Qrupla iş zamanı onları adlandırmaq üçün həndəsi fiqurlar, rəngli kağızlar, müxtəlif şəkillər, çiçəklər və s. vasitələr seçmək olar. Qrupların yaranmasında istifadə olunan vasitələrin mövzuya uyğun seçilməsi daha yaxşı olar.

Hər qrupa verdiyim tapşırıqların maraqlı, rəngarəng olmasına çalışıram. Bu çox vacibdir. Qrup işinin əhəmiyyəti odur ki, lövhə qarşısında öz fikrini deməyə utanan və ya cəsarət etməyən şagird, yoldaşları ilə birləşib aydın qərar çıxarır və cəsarətli olur.

Tədqiqatın aparılması zamanı vaxt təyin edirəm və zaman ölçüsü kimi müxtəlif vasitələrdən - müxtəlif saat növlərindən, usaq musiqilərindən istifadə edirəm. Vaxtın qoyulması şagirdlərdə məsuliyyət yaratmaqla bərabər, onları vaxtdan səmərəli istifadəyə istiqamətləndirir.

Məlumat mubadiləsi zamanı qrup lideri məlumat verir. Hər qrupun verdiyi məlumat bütün qrup üzvlərinin geniş məlumatlandırılmasına səbəb olur. Onların yaddaşına yeni məlumat daxil olur. Hətta bu zaman şagirdlər yoldaşlarının səhv fikirlərini düzəltməklə yeni fikrə gəlirlər.

Qrupların təqdimatından sonra belə bir cədvəllə qalib olan qrupu göstərmək də maraqlı olar.




“Bandicam” proqramının vasitəsilə internetdən cizgi filmini köçürüb uşaqlara nümayiş etdirmək də məqsədəuyğundur.

Qiymətləndirmə isə tapşırıqları soruşarkən və ya dərsin sonunda aparılır.




Dərslərdə İKT-nin imkanlarından, xüsusilə də interaktiv lövhədən geniş istifadə olunması tədris prosesini daha da yaddaqalan, maraqlı etməklə yanaşı, təhsilin keyfiyyətinin yüksəlməsinə, sərbəst işlərin çoxalmasına, öyrənməyə marağın artmasına zəmin yaradır.

İnteraktiv lövhə ilə iş zamanı şagirdlərin onun imkanlarına olan ilk reaksiyası onlarda özünü aydın büruzə verən coşğunluğun, ruh yüksəkliyinin yaranmasıdır. Bir toxunuşda lövhədə baş verən dəyişikliklərin belə effektli olması dərsə olan həvəsi birə-beş artırır.

Sonda demək istəyirəm ki, əgər müəllim şagirdlərini sevmirsə, onlara bağlı deyilsə, nə müəllim, nə də şagirdlər uğur qazana bilməz. Müəllim şagirdlərini ürəkdən sevəndə onların arasında gözəgörünməz bir bağlılıq yaranır. Bu bağlılıq isə onları uğura aparır.

## "Mənim məktəbim"

Bakı Şəhəri üzrə Təhsil İdarəsi və "Azərbaycan müəllimi" qəzetinin birgə təqdim etdiyi "Mənim məktəbim" layihəsinin məqsədi məktəb direktorlarının rəhbərlik etdikləri təhsil müəssisələri haqqında qələmə aldığı uğur hekayəsini, tədrisin və idarəçiliyin təşkilində həm pedaqoq, həm də rəhbər kimi müvafiq düşüncələrini geniş ictimaiyyətə çatdırmaqdan ibarətdir.

Layihədə idarəedənin pedaqoji və ictimai-fəlsəfi baxımdan məktəbin əsas hədəflərinə və özünəməxsusluğuna dair yanaşmasına da xüsusi yer verilir. Layihə çərçivəsində mövcud reallığı əks etdirən, təhsil müəssisələrinin qarşısında duran məsələlərin həlli yollarını göstərən, məktəb idarəetməsinə və uğurlu məktəb modelinə dair orijinal, şəxsi fikirlərin və dünya təcrübəsinə əsaslanan faktların yer aldığı məqalələr təqdim olunur.

# Nümunəvi məktəb formalaşdırmaq üçün idarəetməni düzgün qurmalıyıq

## Təhsil müəssisələrinin məqsəd və hədəfləri aydın olmalıdır



**Tünzalə ZEYNALOVA,**
*283 nömrəli tam orta məktəbin direktoru*

Məktəb mühitində uğur qazanmaq üçün ilk növbədə məqsəd və hədəflər düzgün seçilməli, ümumi inkişafa xidmət edən qərarlar vaxtında və yerində verilməlidir. Nailiyyətlər əldə etmək üçün həm də tədris prosesində düzgün vasitə və metodlardan istifadə olunmalı, sağlam pedaqoji kollektiv formalaşdırılmalı, şagird və valideynlərlə işin qurulmasına xüsusi fikir verilməlidir. İşimizi bu amillər əsasında qurmağımızın nəticəsidir ki, hazırda direktoru olduğum məktəb nümunəvi ümumi təhsil müəssisələri sırasındadır.

### Direktorun iş prinsipi

Aydındır ki, məktəbdə uğur qazanılmasında direktorun üzərinə böyük məsuliyyət düşür. O, məktəbin məqsəd və hədəflərinə çatmasını təmin edən cavabdeh şəxsdir. Bu baxımdan direktordan tələb olunur ki, idarəetməni həyata keçirməklə yanaşı, təhsil sisteminə də töhfə verə bilsin, özündə liderlik bacarıqlarını formalaşdırsın.

Fikrimcə, müasir məktəb modelini formalaşdırmaq istəyən direktor ilk növbədə intellektual qabiliyyəti ilə seçilməlidir. O, bilikli, eyni zamanda, məntiq, analiz, mövzu və problemlər üzərində fikri cəmləşdirə bilmək, rəy və düşüncələrini aydın ifadə etmək qabiliyyətinə, müşahidə və qəti qərarvermə bacarığına malik olmalıdır. Direktor həm də güclü xarakteri ilə diqqəti cəlb etməlidir. O, ağılla hiss arasında balans qurmalı, fərqli mühitdə yaşayan və müxtəlif xasiyyətli insanlara uyğunlaşmalı, diqqətli, ehtiyatlı, təşəbbüskar, əzmkar, dinamik və hafizəli olmalıdır. Həmçinin, "Sən" və "Mən" anlayışını "Biz" anlayışına yönəltməli, ətrafdakıların rəğbətini qazanmalı, hadisələrə uyğun hərəkət etməli, güzəştə getməyin və qəti qərarlar verməyin vaxtını dəqiq bilməlidir. Məktəb direktorunun fəaliyyəti həm də dinamik olmalıdır.

Fəaliyyətim dövründə daim bu amillərə əsaslanaraq işi təşkil etməyə çalışmışam. Bunun nəticəsidir ki, işimiz hər zaman uğurlu olub.

### Müəllimlərin fəaliyyətinin qiymətləndirilməsi

Məktəbimizdə nailiyyətlərin əldə olunmasında pedaqoji heyətin əməyi əvəzsizdir. Bu ümumi təhsil müəssisəsindəki 146 müəllim məktəbdə təhsil alan 1371 şagirdə təhsil verməklə yanaşı, həm də onların hər birinə valideyn kimi yanaşır, çətinliklərinin birgə həllinə çalışır. Bu üsul müəllimlərlə şagirdlər arasında səmimi münasibət yaradır, məktəblilər başda direktor olmaqla, hər kəsə fikirlərini sərbəst şəkildə çatdıra, üzləşdiyi çətinlikləri açıqlaya bilir. Bununla da, məktəblilərin təhsil müəssisəsinə inam və etibarı artır, onlar dərslərinə daha məsuliyyətlə yanaşırlar. Bu hal bizim şagirdlərimizi tanımağımıza da kömək göstərir. Bəzən hansısa şagirdin fikirləri, atdığı addımlar, dərsə hazırlaşma üsulu diqqətimizi cəlb edir. Biz dərhal həmin məsələni müzakirə edərək onu digər şagirdlərə misal göstəririk. Bu hal məktəblilər arasında sağlam rəqabət mühiti yaradır, hər bir şagird nümunəyə çevrilmək istəyir.

Məktəbimizdə müəllimlərin fəaliyyəti də daim qiymətləndirilir. Onların bilik və bacarıqları müşahidələr əsasında təhlil edilərək dəyərləndirilmək üçün müxtəlif tədbirlər görülür. Bu üsul da müəllimlər arasında sağlam rəqabət mühiti formalaşdırır və möhkəmləndirir. Hər bir müəllim digər həmkarından fərqlənməyə, dərs dediyi şagirdlərin daha yüksək nailiyyətlər əldə etməsinə çalışır. Bu isə ümumilikdə, məktəbin uğurlarının yüksəlməsinə şərait yaradır.

Bununla yanaşı, müəllimlərimizin bilik və bacarıqlarının artırılması istiqamətində də müvafiq addımlar atılır. Onların öz üzərlərində çalışmasına, yeni texnologiyalardan istifadə bacarıqlarını artırmasına, eləcə də işlərinə daha məsuliyyətlə yanaşmanın təmin olunmasına xüsusi fikir verilir. Bunun üçün məktəbimizdə treninq və seminarlar təşkil olunur. Eyni zamanda, müəllimlərimizin müvafiq institutlar tərəfindən keçirilən tədbirlərdə iştirakı təmin edilir.

Ümumilikdə, qeyd edim ki, məktəbimizdə yüksək elmi biliklərə malik müəllim heyəti fəaliyyət göstərir. Onlara fəaliyyətlərində yüksək nəticə əldə etmək üçün hər cür şərait yaradılıb.

### Şagirdlərə qayğı və nəticə

Məktəbimizdə yaradılan sağlam mühitin, müəllimlərin işlərinə məsuliyyətlə yanaşmanın nəticəsidir ki, şagirdlərimizin nailiyyətləri ilbəil artır. Qeyd edim ki, bu təhsil müəssisəsində məktəblilərin keyfiyyətli təhsil alması üçün bütün imkanlardan istifadə olunur. Səylərimizi səfərbər edirik ki, verdiyimiz təhsildən hər kəs razı qalsın və bu, onların əldə etdikləri nailiyyətlərdə özünü göstərsin.

Ona görə də daim çalışırıq ki, şagirdlərin fənlər üzrə göstəriciləri yüksək olsun. Onlar rayon, şəhər və respublika səviyyəli olimpiada, yarış və müsabiqələrdə fəal iştirak etsinlər. Bu istiqamətdə həyata keçirdiyimiz tədbirlər bəhrəsini də verir. Şagirdlərimiz daim yüksək nəticələr əldə edirlər.

Fikrimcə, məktəblilərin rayon, şəhər və respublika səviyyəsində keçirilən tədbirlərdə iştirakına xüsusi fikir verilməlidir. Belə tədbirlər həm məktəblilərin bilik və bacarıqlarını artırır, həm də onlara özlərini təsdiq etmək imkanı yaradır, gələcəyə hazırlayır.

Məktəbimizdə şagirdlərin yaradıcılıq qabiliyyətinin inkişaf etdirilməsi üçün də mütəmadi işlər görülür, silsilə tədbirlər keçirilir. İl ərzində çoxsaylı layihə, müsabiqə və yarışlar reallaşdırılır. Məktəblilərin şair və yazıçılarla görüşləri təşkil edilir. Belə tədbirlər məktəbliləri həvəsləndirir, onlar yaradıcılıq qabiliyyətlərini inkişaf etdirməyə daha çox səy göstərirlər.

Həmçinin, şagirdlərin milli-mənəvi dəyərlər əsasında tərbiyə olunması işinə də xüsusi diqqət yetirilir. Bu məqsədlə məktəbdə maarifləndirici tədbirlər keçirilir. Eyni zamanda, şagirdlər üçün tarixi məkanlara, mədəniyyət mərkəzlərinə ekskursiyalar təşkil edilir, onlar arasında intellektual oyunlar təşkil olunur.

Görülən bu işlər təlimin keyfiyyətinin və şagirdlərin müvəffəqiyyətinin təmin olunmasına xidmət edir. Bununla yanaşı, məktəblilərin ictimai işlərə cəlb olunmasını da ön plana çəkirik. Belə işlər onların fiziki fəallığını artırır, əməyə məhəbbət hissini yüksəldir.

### Valideynlərlə iş və məktəbin gözləntiləri

Məktəbimizdə müəllim və şagirdlərlə işin düzgün qurulması ilə yanaşı, valideynlərlə səmərəli əməkdaşlıq da təmin edilib. Tez-tez valideynlərlə görüşlər keçirilir, onların fikir və təklifləri dinlənilir. Hər bir valideynin fikri dəyərli hesab olunur. Bəzən valideynlərin fikir və təklifləri müəyyən məsələlərin müsbət həllinə kömək edir.

Valideynlərlə görüşlər şagirdlərin düzgün istiqamətləndirilməsi prosesində də bizə yardımçı olur. Onlarla səmərəli əməkdaşlıq şagirdlərin nailiyyətlərinin artmasına səbəb olur. Ümumiyyətlə, hesab edirəm ki, məktəb direktorları valideynlərlə əməkdaşlıq yaratmaqda maraqlı olmalıdırlar. Əgər şagirdin təlim-tərbiyəsi valideynlə əməkdaşlıq çərçivəsində qurularsa, bu zaman məktəblinin nailiyyətləri daha da yüksələr.

Məqalənin sonunda bildirmək istəyirəm ki, yuxarıda da göstərildiyi kimi, rəhbərlik etdiyim pedaqoji kollektivlə birlikdə göstərdiyimiz səylərin nəticəsində məktəbimizin uğurları getdikcə artır. Həyata keçirilən işlər də bizə uğurlarımızın davamlı olacağını deməyə əsas verir.

**Məktəbimizdə nailiyyətlərin əldə olunmasında pedaqoji heyətin əməyi əvəzsizdir. Bu ümumi təhsil müəssisəsindəki 146 müəllim məktəbdə təhsil alan 1371 şagirdə təhsil verməklə yanaşı, həm də onların hər birinə valideyn kimi yanaşır, çətinliklərinin birgə həllinə çalışır. Bu üsul müəllimlərlə şagirdlər arasında səmimi münasibət yaradır, məktəblilər başda direktor olmaqla, hər kəsə fikirlərini sərbəst şəkildə çatdıra, üzləşdiyi çətinlikləri açıqlaya bilir. Bununla da, məktəblilərin təhsil müəssisəsinə inam və etibarı artır, onlar dərslərinə daha məsuliyyətlə yanaşırlar. Bu hal bizim şagirdlərimizi tanımağımıza da kömək göstərir.**



# Təhsil müəssisəsində "Məzun günü"

Bakı Şəhəri üzrə Təhsil İdarəsinin tabeliyindəki 160 nömrəli Klassik Gimnaziyada ənənəvi "Məzun günü" keçirilib.

Tədbirdə Bakı Şəhəri üzrə Təhsil İdarəsinin əməkdaşları, ümumi təhsil müəssisələrinin direktorları, məktəbin pedaqoji kollektivi, təqaüdçü müəllimlər, məzunlar, şagirdlər və valideynlər iştirak edib.

"Uğur ənənələri" layihəsi çərçivəsində təşkil olunan "Məzun günü"nün əsas məqsədi illərlə formalaşmış ənənəni davam etdirməklə, məzunların məktəbə baxışı əsasında şagirdlərin təhsilə, məktəbə marağını daha da artırmaq, onların məktəbin ictimai həyatında daha fəal iştirakını təmin etməkdən ibarətdir.

Tədbirdə 160 nömrəli Klassik Gimnaziyanın direktoru Faina Ələkbərova təhsil müəssisəsinin keçdiyi inkişaf yolundan, qazandığı uğurlardan danışıb. Məktəbin məzunları arasından kifayət qədər tanınmış şəxslərin çıxdığını, onların Azərbaycanın ictimai-siyasi həyatına layiqli töhfələr verdiyini bildirib.

Daha sonra direktor qonaqlara artıq 67-ci ildir qeyd edilən "Məzun günü" haqqında ətraflı məlumat verib, onları maraqlandıran sualları cavablandırıb.

Görüşdə məktəbin nailiyyətlərini əks etdirən divar qəzetləri, fotostendlər və ötən illərin albomlarından ibarət sərgi təşkil olunub.

Məktəb direktorları çıxış edərək, "Məzun günü" ilə bağlı fikir və təəssüratlarını bildiriblər. Onlar məktəbi bitirən məzunların məktəblə daim əlaqə saxlamalarını təqdirəlayiq bir hal kimi qiymətləndiriblər.

Daha sonra məktəbin məzunları təhsil müəssisəsi ilə bağlı kövrək xatirələrini bölüşüblər.

Tədbir şagirdlərin ifasında şeir və ədəbi-bədii kompozisiyalarla davam etdirilib.

# Birinci sinfə qəbulla bağlı təlim



Bakı Şəhəri üzrə Təhsil İdarəsində (BŞTİ) I sinfə şagird qəbulunun elektron sistem vasitəsilə həyata keçirilməsinə dair təlim keçirilib.

Təlimdə Gəncə Şəhər Təhsil İdarəsi, Sumqayıt Şəhər Təhsil Şöbəsi və Abşeron Rayon Təhsil Şöbəsinin əməkdaşları və həmin regionlarda fəaliyyət göstərəcək Alternativ Qeydiyyat Mərkəzlərinə təhkim olunmuş məsul şəxslər iştirak ediblər.

Təlim zamanı BŞTİ-nin İnformasiya təminatı sektorunun nümayəndələri tərəfindən I sinfə şagird qəbulunun *mektebeqebul.edu.az* elektron sistem vasitəsilə həyata keçirilməsi qaydaları ətraflı şəkildə izah edilib. Eyni zamanda, qeydiyyatdan keçə bilməyən valideynlərin müraciətlərinin cavablandırılması və uşaqların yaş kateqoriyası nəzərə alınmaqla, vətəndaşların yönləndirilməsi məsələləri barədə geniş məlumatlar verilib.

Həmçinin, təlim iştirakçılarına onlayn qeydiyyatdan keçirilə bilməyən sənədlər vasitəsilə elektron qeydiyyatın aparılması prosesi də aydın şəkildə göstərilib.

Sonda təlim iştirakçılarını maraqlandıran məsələlər ətrafında müzakirələr aparılıb, suallar cavablandırılıb.

# Məktəb komandaları arasında yarışma

Bakı Şəhəri üzrə Təhsil İdarəsinin (BŞTİ) tabeliyindəki ümumi təhsil müəssisələrinin şagirdlərindən ibarət komandalar arasında növbəti intellektual oyun keçirilib.

Belə ki, 58, 67, 93 və 167 nömrəli tam orta məktəblərin komandaları "Hazırcavablar" intellektual oyununda yarışıb. Məktəblilər "Dil və ədəbiyyat", "Coğrafiya", "Tarix", "Ordanburdan" və "Hansı?" bölmələri üzrə sualları cavablandırıb.

İntellektual oyunun nəticələrinə əsasən, 67 nömrəli tam orta məktəbin komandası qalib gəlib.

Qeyd edək ki, "Hazırcavablar" intellektual oyunu BŞTİ və AzTV-nin birgə layihəsidir. İntellektual oyun həftədə bir dəfə olmaqla, AzTV-də yayımlanır.

Layihənin əsas məqsədi məktəblilərin intellektual səviyyəsini və dünyagörüşünü artırmaq, onları ictimaiyyətə tanıtmaq, həmçinin, şagirdlərin asudə vaxtını səmərəli təşkil etməkdən ibarətdir. Şagirdlərə özünüifadə vərdişləri aşılamaq, onların fənlərə marağını yüksəltmək, yaradıcı inkişafına təkan vermək və intellektual fəaliyyətə daha geniş miqyasda cəlb olunmasını təmin etmək də layihənin əsas hədəfidir.

## "Doğma yurdum Azərbaycan"

Balakən şəhər 2 nömrəli tam orta məktəbdə Azərbaycan Xalq Cümhuriyyətinin yüz illiyi ilə əlaqədar olaraq "Doğma yurdum Azərbaycan" adlı layihə müsabiqəsi keçirilib. Müsabiqədə V sinif şagirdləri layihələrini təqdim ediblər.

Şagirdlər layihələrini Azərbaycanın keçmişi, bu günü - tarixi və mədəniyyəti barədə araşdırmalar apararaq topladıqları məlumatlardan hazırlayıblar.

Müsabiqədə fərqlənən şagirdlər məktəb rəhbərliyi tərəfindən diplom və hədiyyələrlə mükafatlandırılıblar.

**Vüsalə BƏDƏLOVA,**
*Balakən Rayon Təhsil Şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi*

## Təlimi gürcü dilində olan məktəbdə "dəyirmi masa"

Qax rayonu təlimi gürcü dilində olan Qaxingiloy kənd tam orta məktəbində "Ümumi təhsildə keyfiyyət ili" çərçivəsində "dəyirmi masa" keçirilib. "Dəyirmi masa"da məktəbin pedaqoji kollektivi iştirak edib. İlk olaraq məktəbin direktoru Natella Otaraşvili "Ümumi təhsildə keyfiyyət ili" ilə bağlı Təhsil Nazirliyinin müvafiq əmri, bununla bağlı görülən işlər, qarşıda duran vəzifələr haqqında məlumat verib.

Daha sonra məktəbin təlim-tərbiyə işləri üzrə direktor müavini Pelo Otaraşvili "İstedadlı şagirdlərin seçilməsi və onlarla işin təşkili" mövzusunda məruzə edib. Azərbaycan dili və ədəbiyyat müəllimi Xatirə Şəkiliyeva, digər fənn müəllimlərindən Qalina Poladaşvili, Eteri Papiaşvili, Sisino Emraşvili müxtəlif məruzələrlə çıxış edərək əldə olunan uğurlardan və problemlərdən söz açıblar.

**Günay MAHMUDOVA,**
*Qax Rayon Təhsil Şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi*

## "Ana dilim"

Abşeron rayonu Ceyranbatan qəsəbə 2 nömrəli tam orta məktəbin təşkilatçılığı ilə Ceyranbatan Mədəniyyət Evində Beynəlxalq Ana Dili Gününə həsr olunmuş "Ana dilim" adlı tədbir keçirilib. Tədbirdə məktəb rəhbərliyi, müəllim və şagirdlər iştirak ediblər.

Giriş sözü ilə çıxış edən məktəbin direktoru Leyla İsmayılova fevralın 21-nin Beynəlxalq Ana Dili Günü kimi qeyd olunmasının tarixindən, bu günün əhəmiyyətindən söz açıb.

Qeyd olunub ki, ölkəmizdə Ana dilinin hərtərəfli inkişafı, işlək dilə çevrilməsi, beynəlxalq münasibətlər sisteminə yol tapması ulu öndər Heydər Əliyevin dilin qorunmasına yönələn düşünülmüş siyasətinin nəticəsidir.

Daha sonra tədbir bədii hissə ilə davam edib.

Şagirdlər hazırladıqları səhnəcikləri nümayiş etdirib və ana dilinə aid şeir söyləyiblər.

**Aysel TAHİROVA,**
*Abşeron Rayon Təhsil Şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi*

## "Tarix gecəsi"

Zaqatala şəhər 3 nömrəli tam orta məktəbdə "Tarix gecəsi" keçirilib. Tədbirdə təhsil şöbəsinin əməkdaşları, müəllimlər, şagirdlər və valideynlər iştirak ediblər.

Bədii gecədə tarixin ən qədim dövrlərindən başlayaraq ən yeni dövrədək olan tarixi faktlara nəzər salınıb. Şagirdlər hazırladıqları ədəbi-bədii kompozisiyaları nümayiş etdiriblər.

Daha sonra "Tarixi biliklər" mövzusunda tarixi-intellektual müsabiqə keçirilib. Müsabiqədə fərqlənən şagirdlər fəxri fərman və hədiyyələrlə mükafatlandırılıblar.

**Vüsalə BƏDƏLOVA,**
*Zaqatala Rayon Təhsil Şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi*

## "Yol hərəkəti qaydaları" mövzusunda "açıq dərs"

Şabran şəhər 2 nömrəli ümumi orta məktəbin ibtidai sinif müəllimi Lətifə Məmmədovanın IV sinifdə Həyat bilgisi fənnindən "Yol hərəkəti qaydaları" mövzusunda "açıq dərs"i olub. Müasir təlim üsulları ilə keçirilən dərsdə şagirdlər əyani vasitələrlə yol hərəkəti, yol hərəkəti zamanı diqqət edilməli olan məsələlər, qəza hadisəsi zamanı atılmalı olan addımlar barədə təqdimatlar edib, mövzu ilə əlaqədar müxtəlif məzmunlu maarifləndirici səhnəciklər göstəriblər.

Dərsdə müşahidəçi qismində məktəb direktoru, direktor müavini, psixoloq və digər sinif müəllimləri iştirak ediblər.

**Gülər HÜSEYNOVA,**
*Şabran Rayon Təhsil Şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi*

## "Ana dilimizi sevək, sevdirək"

Ağstafanın təhsil müəssisələrində 21 fevral - Beynəlxalq Ana Dili Günü münasibətilə "Ana dilim varlığımdır", "Ana dilimizi sevək, sevdirək", "Mənim dilim", "Dilimiz qeyrətimiz" və digər müvafiq mövzularda tədbirlər, ədəbi-bədii kompozisiyalar, "dəyirmi masa" və "açıq dərs"lər keçirilib.

Tədbirlərdə Ağstafa Rayon Təhsil Şöbəsinin məsul işçiləri, müxtəlif idarə və təşkilatların nümayəndələri, təhsil müəssisələrinin pedaqoji və şagird kollektivləri iştirak ediblər.

Ana dilimizin qorunub saxlanılmasında, inkişaf etdirilərək bugünkü səviyyəyə çatdırılmasında ulu öndər Heydər Əliyevin misilsiz xidmətlərindən söz açılıb və milli sərvətimiz olan ana dilimizin qorunması istiqamətində hamılıqla çalışmağın vacibliyi vurğulanıb.

Şagirdlər tərəfindən hazırlanmış müxtəlif kompozisiyalar, səhnəciklər, musiqi və rəqs nömrələri nümayiş olunub və şeir söylənib.

**Nəcibə VƏLİYEVA,**
*Ağstafa Rayon Təhsil Şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi*




## "Təbiəti qoruyaq" adlı layihə

Samux şəhər 2 nömrəli tam orta məktəbin VII sinif şagirdləri tərəfindən ingilis dili fənni üzrə "Hoü to protect nature" ("Təbiəti qoruyaq") adlı layihə keçirilib.

Layihənin keçirilməsində məqsəd təbiəti qorumağın müxtəlif yollarını məktəblilərə aşılamaq olub.

Şagirdlər məktəbin həyətində "Təbiəti qoruyaq" şüarları ilə çıxış edərək təbiətin və ətraf mühitin qorunmasının vacibliyi ilə bağlı fikirlərini şifahi və yazılı plakatlar vasitəsilə nümayiş etdiriblər.

Sonda məktəbin həyətində şagirdlər tərəfindən müxtəlif ağaclar əkilib.

**Nurəddin BABAYEV,**
*Samux Rayon Təhsil Şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi*

## "İngilis dili gecəsi"

Sabirabad şəhər Mikayıl Müşfiq adına 4 nömrəli tam orta məktəbdə istedadlı şagirdləri üzə çıxarmaq, onların xarici dil fənninə meyil və maraqlarını artırmaq və inkişaf etdirmək məqsədilə "İngilis dili gecəsi" keçirilib. Fənn gecəsində şagirdlər ingilis dilində şeir söyləyib, mahnı oxuyublar. Şagirdlər arasında söz ehtiyatlarını yoxlamaq məqsədilə yarışlar keçirilib.

Gecəni təşkil edən məktəbin müəllimləri Maya Qəhramanova, Seyidsona Həbibova və Mənzər Hüseynova ingilis dilinin öyrənilməsinin vacibliyindən danışıb və şagirdləri bu dili daha dərindən mənimsəməyə çağırıblar.

# "Müəllim ehtiyac olan yerdə daha çox müəllimdir"

*Rəqsanə Haqverdiyeva:* "Uzun müddət kənd məktəbində işləmək planım var"



**Haqverdiyeva Rəqsanə Tapdıq qızı 1987-ci ildə Qərbi Azərbaycanda dünyaya göz açıb. Bakı Məktəb-Lisey Kompleksində təhsil alıb. Sonra isə Qafqaz Universitetinin İngilis dili və ədəbiyyatı müəllimliyi ixtisasına qəbul olunub. Təhsil aldığı müddətdə Bakı-Anadolu liseyində akademik təcrübə keçib, universitetin nəzdində fəaliyyət göstərən dərnəklərə qoşulub, tədbirlərdə çıxış edib, sertifikatlar əldə edib. Öyrəndiyi dili daha mükəmməl qavramaq üçün "TOEFL" dil kursuna da qatılıb. Sabirabad rayonu Bulaqlı kənd tam orta məktəbində ingilis dili müəllimi işləyir. Bütün bu fəaliyyətlərin gələcək karyerasında ona yaşıl işıq olacağını düşünən ən gənc müəllim maraqlı həmsöhbət kimi fikirlərini bizimlə bölüşdü.**

### Müəllimlərimi karyerama yüksəlməkdə model seçmişəm

- Daima üzərimdə işləyib, özümə qarşı tələbkar olmağa çalışmışam. Hər bir anlayışla bağlı məlumatım olmasını istəmişəm.

Heç zaman yorulmayan, daim yeniliklər edən və axtaran, zaman, məkan, yaxın-uzaq, kənd-şəhər anlayışlarını bir-birindən ayırmayan biri olmuşam. Bir çox işləri bir anda edə bilmək istədiyimdən həmişə zamanın azlığından şikayətlənib, sırf bir şey öyrənim deyə, gecədən zaman oğurlamışam. Əlimdən kitab, dəftər, qələm düşməyən, qonaq gələndə, işıqlar sönəndə bunu dərs öyrənməyə bəhanə etməyən, müəllimlərini sevən və müəllimləri tərəfindən sevilən şagird olmuşam. Bütün özümdə hiss etdiyim mənəvi dəyərləri, əxlaqi keyfiyyətləri, istedadı, bacarığı qarşıma çıxan müəllimlərimin mənə qazandırdığını həmişə özümə etiraf etmişəm. Sevdiyim müəllimlərimin səsi, cizgiləri, xasiyyəti hələ də yaddaşımdadır. Öz müəllimlərimi - Azərbaycan müəllimlərini öz karyerama yüksəlməkdə model seçmişəm.

Müəllimin vəzifəsi yalnız şagirdə dərs izah etmək deyil. Şagird psixologiyasına uyğun olaraq, onlar bizim dediklərimizdən çox etdiklərimizi örnək alırlar. İstəyirəm ki, şagirdlərim məni daima oxuyan, üzərində işləyən müəllim kimi görsünlər və oxumağı sevsinlər. Əsl müəllim şagirdlərində öyrətməkdən çox öyrənmək istəyi yaratmağı bacarmalıdır.

Şagirdlərin hər zaman çox dəyərli fikirləri olur. Mən bu fikirlərə diqqət edirəm. Onlardan öyrənə biləcəyim hər nə varsa, bunu çəkinmədən edirəm.

Yeni başladığım işimdə vəzifəm də, məqsədim də uğur qazanmış şagirdlər yetişdirməkdir.

2017-ci ildə Təhsil Nazirliyi tərəfindən keçirilən Müəllimlərin işə qəbulu imtahanında iştirak edib, 47 bal toplayaraq ilk seçdiyim məktəbə qəbul oldum. Müsahibə mərhələsi mənim üçün çox həyəcanlı idi. Müsahibənin gedişatından artıq uğur qazandığımı anlamışdım. Artıq şəxsi səhifəmdə görünən, lakin iş yerini olacağından əmin olmadığım Sabirabadın Bulaqlı kənd tam orta məktəbi mənim iş yerim idi.

### Budur, mənim arzum realdır

Belə bir deyim var. "Niyyətin hara, mənzilin ora": Ürəyimdə hardasa özümün belə qəbul edə bilmədiyim bir arzum var idi. Hər zaman kənd uşaqlarına dərs demək, onlara dəstək olmaq istəmişəm. Amma bunu necə reallaşdıra biləcəyimi arzu olaraq ürəyimdə saxlamışdım. İşə qəbul imtahanı isə arzuma aparan bir yol idi və budur, mənim arzum realdır. Kənd məktəbində təhsil vermək çətin deyil, sadəcə məsuliyyətimin böyük olduğunu dərk edirəm. Şagirdlərimin məni sevməsi (hər biri məktəbin həyət qapısının önündə qucaqlayaraq qarşılayır məni), fənnimə maraqları, səylə çalışmaları bütün maneələri, çətinlikləri dəf edir. Əslində mən o an özümlə qürur duyuram. "Çətinlik" adlandırılan hisslər mənə əsl müəllim olmaq hissini yaşadır. Bəlkə də çətinliklər adlanan hisslərsiz mən işimi bu qədər sevə bilməzdim. Kənd məktəblərində dərslərimiz odun istisinə qızınan isti münasibətlər əsasında qurulur və dərslərimiz bu istiliklə daha da məhsuldar olur.

### Ailəli müəllimlər üçün gözəl bir şans

Uzun müddət kənd məktəbində işləmək planım var. Əslində ailəli insanlar üçün belə işləməyi çətin bilirlər. Mənə görə isə, həvəsləndirmə tədbirləri məhz ailəli müəllimlər üçün gözəl bir şansdır. Mən də bu şansdan istifadə etmək istəyirəm. Müəllim ehtiyac olan yerdə daha çox müəllimdir. Yeni müəllimlər heç bir çətinliklərdən çəkinməsinlər. Çünki hər kəsin çətinlik anlayışı fərqlidir. Kənd əhalisinin müəllimə sevgisini, hörmətini görməklə mən sənətimlə daha da fəxr edirəm.

Dərs müddətində olduğu kimi, dərsdənkənar vaxtlarda da düşünürəm ki, şagirdlər yaradıcı işlərlə məşğul olub, mütaliə edərək həyatı daha yaxından seyr edib, rəngarəngləşdirə bilərlər. Xüsusi istedadlı uşaqlara diqqət edilərək onlara dəstək göstərilməlidir. Və bu istiqamətdə ciddi addımlar atılır.

3 və 8 yaşlarında övladlarım var. Zamanımı onlarla öyrədici oyunlar oynayaraq keçirirəm. Məktəbə gedərkən, yola sərf olunan 2 saat vaxtımı da əsərlər oxuyuram. Gecədən oğurladığım zamanda şeir yazıram. Əl işlərini çox sevirəm. Vaxtımın geri qalan hissəsini əl işləri edərək başa vururam.

**Xalid NƏCİYEV,**
*Sabirabad Rayon Təhsil Şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi*

**Səhifəni hazırladı:** *Şakir CƏFƏROV*

# Dövlət Proqramı təqaüdçüləri harada işləyirlər?



## Gənclərimiz ölkəmizin inkişafında mühüm töhfələr verir

**Oruc MUSTAFAYEV**

Qloballaşan dünyada hər bir ölkənin gələcəyini təmin edəcək gənc nəslin dövrün tələblərinə uyğun surətdə yüksəkixtisaslı mütəxəssis kimi yetişməsi strateji əhəmiyyət daşıyır. Son illər Azərbaycan Respublikası Təhsil Nazirliyinin istedadlı gənclərin dünyanın nüfuzlu ali məktəblərində təhsil almalarını və peşəkarlar kimi yetişməsini hədəfləyən məqsədyönlü tədbirləri nəticəsində tələbələrimiz öz uğur hekayələrini yazmaqdadır. "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində dünyanın reytinqli ali məktəblərindən məzun olan gənclərimiz artıq ölkəmizin inkişafı naminə öz töhfələrini verməkdədir. Budəfəki yazımız da elm, təhsil, iqtisadiyyat, sənaye, bank, İKT, dövlət qulluğu və digər sahələrdə öz uğurlu karyera tarixçələrini yazan məzunlarımıza həsr olunub. Beləliklə, Dövlət Proqramı təqaüdçüləri harada işləyirlər?



**Vüqar HEYDƏROV,**
*Böyük Britaniyanın Edinburq Universitetinin məzunu*

1991-ci il 14 iyun tarixində Bakı şəhərində anadan olub. 2009-cu ildə 287 nömrəli "Zəkalar" liseyini bitirib. 2009-cu ildə ali məktəblərə keçirilən qəbul imtahanında iştirak edərək II qrup üzrə 680 bal toplayaraq Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "İnzibati idarəetmə" fakültəsinin "Menecment" ixtisasına qəbul olunub. Qəbulda göstərdiyi yüksək göstəriciyə görə Prezident təqaüdünə layiq görülüb. 2013-cü ildə İdarəçilik Akademiyasını bitirib, həmin ildə də Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin MBA proqramına qəbul olunub. 2014-cü ildə həmin proqramın birinci kursunu bitirdikdən sonra xaricdə təhsillə bağlı akademik məzuniyyət götürüb. "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində 2014-2015-ci illərdə Böyük Britaniyanın Edinburq Universitetində "İnsan resurslarının idarə olunması" ixtisası üzrə magistratura təhsili alıb. 2016-cı ilin iyun ayında Azərbaycan Dövlət Neft və Sənaye Universitetində MBA proqramını müvəffəqiyyətlə bitirib.

2012-2014-cü illərdə Fairmont Bakı Otelində heyətin idarəedilməsi üzrə koordinator vəzifəsində çalışıb. 2015-ci ilin sentyabrından 2017-ci ilin mayına kimi "PMD Group"da əvvəlcə insan resursları üzrə mütəxəssis, daha sonra isə baş mütəxəssis kimi fəaliyyət göstərib.

Hazırda "PMD Group"un kənd təsərrüfatı bölümünə tabe olan "Grand-Agro" MMC-də insan resursları üzrə menecer vəzifəsində çalışır.



**Namiq QULİYEV,**
*Böyük Britaniyanın Queen Mary Universitetinin məzunu*

11 fevral 1988-ci il tarixində Naxçıvan şəhərində anadan olub. Bakıdakı 45 nömrəli tam orta məktəbi bitirib. 2005-2009-cu illərdə Azərbaycan Dövlət İqtisad Universitetinin "İqtisadiyyatın tənzimlənməsi" ixtisası üzrə yüksək qiymətlərlə bakalavriat təhsili alıb. Hərbi xidmətini tamamladıqdan sonra 2011-ci ildə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın (indiki Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi) keçirdiyi müsabiqə və müsahibə mərhələlərində yüksək nəticə göstərərək Qiymətli Kağızlar üzrə Dövlət Komitəsində dövlət qulluğuna qəbul olunub. Dörd ilə yaxın müddətdə işlədiyi dövr ərzində nümunəvi dövlət qulluqçusu kimi kollektivin hörmətini qazanıb, daxili audit, qiymətli kağızlar və törəmə maliyyə alətləri kimi bir çox təlim və treninqlərdə iştirak edib. 2014-cü ildə maliyyə sahəsində biliklərini daha da dərinləşdirmək məqsədilə "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"na keçirilən müsabiqədən müvəffəqiyyətlə keçərək Böyük Britaniyada təhsilini davam etdirmək imkanı əldə edib. Queen Mary Universitetində "Maliyyə" ixtisası üzrə magistr dərəcəsi alıb. "Rusiyada bank sektorunun rəqabətlik dərəcəsi" dissertasiya işi fərqlənmə (distinction) ilə qiymətləndirilib.

Hazırda Maliyyə Bazarlarına Nəzarət Palatasında çalışır. Bununla yanaşı, Azərbaycan Dövlət İqtisad Universitetində və Bakı Mühəndislik Universitetində də pedaqoji fəaliyyətini davam etdirir.



**Kənan HƏSƏNOV,**
*Böyük Britaniyanın Nottingem Universitetinin məzunu*

1992-ci il 15 avqust tarixində Rusiya Federasiyasının İrkutsk şəhərində anadan olub. 2009-cu ildə Xətai rayonundakı 245 nömrəli tam orta məktəbi bitirib. Elə həmin ildə Azərbaycan Memarlıq və İnşaat Universitetinin "Sənayenin təşkili və idarə edilməsi" fakültəsinə daxil olub. Bakalavr pilləsində təhsil aldığı zaman müxtəlif intellektual oyunlarının qalibi olub. 2013-cü ildə "Bakinskaya Jemçujina - Bakı İnciləri" adlı beynəlxalq turnirə vəsiqə qazanmış və "Mister X" adlı komandanın kapitanı kimi iştirak edib. Ulu öndər Heydər Əliyevin anadan olmasının 88-ci ildönümünə həsr edilmiş tələbələr və magistrantların XXVIII elmi konfransında iştirak edib və məqaləsi birinci yerə layiq görülüb. 2014-cü ildə "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"nın təqaüdünü qazanmış və magistr dərəcəsi üzrə Birləşmiş Krallığın Nottingem Universitetinin "İT-nin idarəedilməsi" fakültəsinə daxil olub. 2015-ci ildə Nottingem Universitetini fərqlənmə diplomu ilə bitirib. Təhsil aldığı zaman qrup rəhbəri vəzifəsinə təyin edilmiş və Xarici Əlaqələr Departamentində Asiya ölkələri üzrə koordinator vəzifəsində çalışıb. 2012-ci ildən etibarən ERA Marketing Center mərkəzində baş mühasib vəzifəsində, Şimal-Qərb MMC internet provayder şirkətinin təsisçisi kimi fəaliyyət göstərib.

Hazırda ERA Consulting MMC şirkətində layihə rəhbəri və baş analitik, həmçinin Azərbaycan Memarlıq və İnşaat Universitetində "Marketinq və marketinqin əsasları" fənni üzrə mühazirəçi müəllim vəzifələrində çalışır. Xaricdə təhsil aldığı təcrübəyə əsaslanaraq hazırda Distant Təhsil portalı üzərində işləyir.



**Bəhruz MEHDİYEV,**
*Böyük Britaniyanın Heriot Watt Universitetinin məzunu*

14 mart 1992-ci il tarixində Bakıda ziyalı ailəsində anadan olub. Orta təhsilini Bakıdakı Ərəstun Mahmudov adına 220 nömrəli məktəb-liseydə müvəffəqiyyətlə (məktəb birincisi kimi) başa vurub.

2008-ci ildə Bakı şəhəri məktəblərarası fizika fənn olimpiadasında I yerə layiq görülərək Təhsil Nazirliyinin diplomu ilə təltif olunub.

2009-cu ildə Azərbaycan Dövlət Neft ve Sənaye Univesitetinin bakalavr pilləsində "Neft-qaz mühəndisliyi" fakültəsinə daxil olub. 2011-ci ildə Böyük Britaniyanın Aberden Universitetində "Neft - qaz mühəndisliyi" ixtisası üzrə bakalavr təhsilini davam etdirib. 2015-ci ildə bu təhsil ocağını əla qiymətlərlə başa vuraraq məzun olub. 2015-2016-cı ildə vətənə qayıdaraq "bp-Azərbaycan" şirkətində 10 ay müddətində məzun proqramında sınaq müddəti keçib. bp-də məzun proqramında iştirak edərkən sahəsi üzrə ixtisaslı mütəxəssis olmaq üçün magistr dərəcəsində təhsil almaq qərarına gəlib. "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində Böyük Britaniyanın Edinburq şəhərində yerləşən Heriot Watt Universitetinin "Neftqaz yataqlarının qiymətləndirilməsi və idarə olunması" ixtisası üzrə magistratura təhsilini uğurla başa vurub.

Hazırda Bakıda "Halliburton Eurasia Ltd." neft şirkətində çalışır. Bu sahədə ölkəmizə xeyir verməyi, əldə etdiyi nailiyyətləri praktik istiqamətdə daha da artıraraq ixtisaslı kadr kimi ali tədris ocaqlarında uyğun ixtisası üzrə tədqiqatlar aparmağa dair gələcək planları var.



**Mətin İBRAHİMOV,**
*ABŞ-ın Harvard Universitetinin məzunu*

1983-cü ildə Sumqayıt şəhərində anadan olub. 2000-ci ildə Sumqayıtda texniki və təbiət elmləri liseyini əla qiymətlərlə bitirib. 2000-ci ildə Azərbaycan Tibb Universitetinin "Müalicə-profilaktika" fakültəsinə daxil olub. 2003-cü ildə dövlət xətti ilə Türkiyəyə göndərilərək İstanbul Universitetinin "Tibb" fakültəsində təhsilini davam etdirib. 2006-cı ildə baza ali tibb təhsili dərəcəsi alıb. 2006-2012-ci illərdə İstanbul Universiteti "Cərrahpaşa" tibb fakültəsində "Qulaq-burun-boğaz cərrahiyyəsi" ixtisası üzrə rezidentura təhsilini başa vurub. Türkiyədə 15 min həkim arasında TUS sınavında birinci olub. "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində 2012-2014-cü illərdə Harvard Universitetində "Qulaq-burun-boğaz xəstəlikləri" üzrə ixtisasartırma təhsili alıb.

Hazırda Bakıdakı "Oksigen" klinikasında qulaq-burun-boğaz xəstəlikləri üzrə uzman həkim olaraq çalışır.



**Fariz QULİYEV,**
*Kanadanın Alberta Universitetinin məzunu*

22 oktyabr 1984 tarixində Bakı şəhərində anadan olub. 2001-ci ildə Bakıdakı 5 nömrəli kimya-biologiya təmayüllü Respublika liseyini bitirib. Elə həmin ildə 663 balla Azərbaycan Dövlət İqtisad Universitetinin "Beynəlxalq iqtisadi münasibətlər" fakültəsinə daxil olub. Ümummilli lider Heydər Əliyevin tələbələrlə görüşündə iştirak edib. 2005-ci ildə Azərbaycan Dövlət İqtisad Universitetinin "Xüsusi İstedadlar Qrupu"nu fərqlənmə ilə bitirib.

2005-2007-ci illərdə Roçester Texnologiya İnstitutunda (Nyu York, ABŞ) biznes təhsili alıb və tələbəlik müddətində aktiv ictimai fəaliyyət göstərib. 2008-2009-cu illərdə Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyində (İqtisadiyyat və Sənaye Nazirliyi) Xarici Əlaqələr şöbəsinin Beynəlxalq İqtisadi Təşkilatlarda Əməkdaşlıq sektorunda mütəxəssis vəzifəsində çalışıb. "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində 2011-2013-cü illərdə Kanadanın Alberta Universitetində "Təbii resurslar, enerji və ətraf mühitin idarə edilməsi" ixtisası üzrə MBA təhsili alıb.

Hazırda UNEC Biznes Məktəbinin direktor müavini və "İqtisadiyyat və biznesin idarəedilməsi" kafedrasında müəllim vəzifələrində çalışır.



**Hənifə QOCAMANOVA,**
*Böyük Britaniyanın Nottingem Universitetinin məzunu*

1 oktyabr 1992-ci il tarixində Bakı şəhərində anadan olub. 1999 - 2010-cu illərdə Bakıdakı 83 nömrəli tam orta məktəbdə təhsil alıb. 2010-cu ildə ali məktəblərə keçirilən qəbul imtahanlarında iştirak edərək dövlət sifarişi əsasında Bakı Dövlət Universitetinin "Hüquq" fakültəsinə qəbul olunub, 2014-cü ildə universiteti fərqlənmə diplomu ilə bitirib. 2013-cü ildə Bakı Dövlət Universiteti Tələbə Həmkarlar İttifaqı Komitəsinin keçirdiyi müsabiqədə "İlin ən yaxşı tələbəsi" fəxri adı ilə təltif edilib. 2014-cü ildə Birləşmiş Krallığın Nottingem Universitetində "Beynəlxalq kommersiya hüququ" ixtisası üzrə təhsil almaq hüququ qazanıb və "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"nın müsabiqəsindən müvəffəqiyyətlə keçərək Nottinqem Universitetində dövlət hesabına magistratura təhsili almağa başlayıb.

Hazırda özəl konsaltinq şirkətində hüquqşünas vəzifəsində çalışır.



**Cavid MƏMMƏDOV,**
*Böyük Britaniyanın London İmperial Kollecinin məzunu*

1988-ci ildə Bakıda anadan olub. X sinfi Bakıdakı N. Tusi adına Gimnaziyada, XI sinfi isə Amerika Birləşmiş Ştatlarının Vermont ştatında bitirib. 2004-cü ildə ali məktəblərə keçirilən qəbul imtahanlarında iştirak edərək Azərbaycan Memarlıq və İnşaat Universitetinin "Nəqliyyat" fakültəsinin "Tətbiqi-geodeziya" ixtisasına qəbul olunub. 2008-ci ildə təhsilini başa vuraraq bakalavr dərəcəsi alıb. Daha sonra "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində 2011-2013-cü illərdə Böyük Britaniyanın London İmperial Kollecində "Mühəndislik" ixtisası üzrə magistratura təhsilini başa vurub. 2007-2008-ci illərdə bp-də və ABŞ-ın KBR mühəndis - tikinti şirkətlərində iş təcrübəsi qazanıb. 2008-ci ildən Beynəlxalq Mühəndislər İnstitutunun (Institution of Civil Engineers) üzvüdür.

Hazırda bp şirkətində konstruksiya üzrə mühəndis vəzifəsində çalışır.

# Model kimi Avstriya...

⇦ Əvvəli səh.1

Niyazi RƏHİMOV

## ...Mentalitet baxımından Türkiyə təcrübəsi



Azərbaycan Respublikası Təhsil Nazirliyi və Beynəlxalq Təşkilatın birgə layihəsi əsasında yaradılıb. Müəssisə Dövlət Proqramının icrası olaraq model kimi Avstriya, mentalitet baxımından isə Türkiyə təcrübəsinə istinadən yaradılıb. Buna səbəb isə Avropa ölkələrində oğlan və qızların eyni qrup evində tərbiyə alıb yaşadığı halda, Türkiyədə 10 yaşından yuxarı yaşda olan qız və oğlanlar üçün ayrı-ayrı qrup evlərinin təşkil olunmasıdır. Qrup evində 12 nəfər qız uşağı yaşaya bilər. Burada kimsəsiz uşaqlar 18 yaşadək qayğı ilə əhatə olunaraq yaşayır. Lakin 18 yaşdan sonra təhsillərini davam etdirdikləri təqdirdə də onların kiçik qrup evində yaşamasına icazə verilir. Kiçik qrup evində yaşayan məktəb yaşlı uşaqlar evə yaxın ərazidə yerləşən ümumtəhsil məktəbində təhsil alır. Oxucularımızı bu müəssisələrlə yaxından tanış etmək məqsədilə paytaxtda yerləşən 1 nömrəli Ailə tipli kiçik qrup evinə yollandıq. Bu evin kiçik sakinləri üçün yaradılan şəraitlə tanış olduq. Burada çalışanlarla söhbətləşdik.

### "Məqsədimiz bu uşaqları layiqli bir vətəndaş kimi yetişdirməkdir"

Ailə tipli kiçik qrup evinin direktoru Süsən Nəbiyeva bizimlə söhbətində bildirdi ki, burada uşaqların ev mühitində yaşaması üçün hər bir şərait mövcuddur. Məqsədimiz bu uşaqları cəmiyyətə layiqli bir vətəndaş kimi yetişdirməkdir: "Beynəlxalq təcrübədə uğurlu model hesab edilən Ailə tipli kiçik qrup evində uşaqlara ev şəraitində yaşamaq imkanı yaradılır. İlkin olaraq, Kiçik Qrup Evi fəaliyyətə başladığı dövrdən öncə həm Türkiyədə, həm də Vyanada 2 həftəlik təcrübə səfərində olmuşam. Belə ki, bütün iş günü ərzində müəssisənin iş fəaliyyəti ilə, uşaqlara qayğının göstərilməsi, onun bio-psixo-sosial qiymətləndirilməsi və bunun əsasında uşaqlara fərdi inkişaf planın tutulmasını öyrənmişəm. Qrup Evində işləmək üçün internat məktəblərində iş təcrübəsi olan tərbiyəçi-müəllimlər müsabiqə yolu ilə seçilərək 9 aylıq xüsusi ixtisasartırma və yenidənhazırlanma kurslarına cəlb olundu. Bu kursları bitirdikdən sonra Türkiyə Respublikasında təcrübədə olduq. Türkiyədəki təcrübə proqramı Təhsil Nazirliyinin De-institutlaşma və Uşaqların Müdafiəsi İdarəsi tərəfindən elə təşkil edilmişdi ki, 1 saatımız belə səmərəsiz keçmirdi. Türkiyədə təcrübələrdə olduqdan sonra Kiçik Qrup Evində işləyəcək sosial işçilərin işə qəbul ilə bağlı xüsusi testlərdən keçdik. Bu testlər bizim xarakterimizi, psixologiyamızı, liderlik qabiliyyətimizi və digər xüsusiyyətlərimizi üzə çıxarmaq üçün idi. Testlərdən sonra fərdi müsahibəyə dəvət olunduq, bu müsahibədən də uğurla keçərək işə qəbul edildik". Qrup evlərinə uşaqların qəbul edilməsi haqqında da danışan S.Nəbiyeva müəssisədəki qızların uşaq evlərindən və internat məktəblərindən seçilərək gətirildiyünü dedi: Kiçik qrup evinə qəbul edilən uşaqlar tamamilə kimsəsiz uşaqlardır. İllərlə həmin uşaqların valideynləri onlarla maraqlanmamış, arxalarınca gələn olmamışdır. İndi həmin qızların əksəriyyəti artıq övladlığa verilib. Övladlığa verilən uşaqlarımızın hər biri ilə indi də sıx əlaqəmiz var. Hələ ki, haqlarında yalnız xoş sözlər eşidirik. Bu da bizim daha çox həvəslə və səmərəli işləməyimizə stimul yaradır. Ailəyə verilməsi mümkün olmayan qızlar isə dövlət tərəfindən bütün şəraitlə təchiz edilməlidir. Belə ki, onlar "Məzun Evi" sosial xidmət müəssisəsində yaşayış sahəsi ilə də təmin olunurlar. Kiçik qrup evində elə bir şərait yaradılıb ki, uşaqlar ailə mühitinə tam adaptasiya olunurlar". Dövlət uşaq müəssisəsindən fərqli olaraq, Kiçik qrup evində uşaqların ayrıca yataq otaqları, fərdi əşyaları və yazı masaları olduğunu deyən S.Nəbiyeva onların asudə vaxtlarının sərbəst şəkildə, istədikləri kimi qurulmasına şərait yaradıldığını, qızların tərbiyəsi ilə növbəlilik qaydasında sosial işçilərin məşğul olduğunu bildirdi. Uşaqlar müəssisəyə gələn kimi ilk işlərinin onların qiymətləndirilməsini aparmaq olduğunu və bunun çox vacib əhəmiyyət kəsb etdiyini deyən direktor qiymətləndirmənin 5 sahə üzrə aparıldığını diqqətə çatdırdı: "Qiymətləndirmə 5 sahə üzrə aparılır: Tibbi, sosial, pedaqoji, psixoloji və hüquqi. Tibbi qiymətləndirmə 26 saylı Birləşmiş Şəhər Xəstəxanasının sahə həkimi, sosial qiymətləndirmə sosial işçilərimiz, hüquqi qiymətləndirmə De-institutlaşma və Uşaqların Müdafiəsi İdarəsinin hüquqşünası, pedaqoji qiymətləndirmə isə məktəbin müəllimləri tərəfindən aparılır. Bütün nəticələr haqqında yazılı və şifahi məlumatlar sosial işçi tərəfindən uşağın qiymətləndirmə vərəqəsinə qeyd edilir. Sonra qiymətləndirməyə əsasən hər bir uşaq üçün fərdi xidmət və inkişaf planı hazırlanır (1, 3, 6 aylıq və ya 1 illik). Uşaqlarla iş məhz bu planda nəzərdə tutulan sahələr üzrə aparılır. Hansı sahə üzrə problem təcili həll edilməlidirsə, ilk olaraq həmin sahə üzrə iş başlandı. Məsələn, sağlamlıqla bağlı problemi varsa birinci mütləq həkimə yönəldilir, müalicə başlanır. Digər problemlərlə də məhz ardıcıl və paralel olaraq məşğul olunur". Belə bir müəssisədə çalışdığı üçün qürur hissi keçirdiyini qeyd edən S.Nəbiyeva uşaqlara bu cür şərait yaradıldığına görə ölkə Prezidenti cənab İlham Əliyevə xüsusi minnətdarlığını bildirdi.

### "Çalışırıq ki, məktəbdə, cəmiyyətdə bu qızlar ayrı-seçkiliyə məruz qalmasınlar"

Kiçik qrup evinin sosial işçisi Pərixanım İsgəndərova müəssisədə sağlam mühitin olduğunu, uşaqların burada çox rahat və sərbəst şəkildə yaşadığını dedi: "Uşaqların hər bir problemi ilə yaxından maraqlanırıq. Onların təhsilini xüsusi nəzarətdə saxlayırıq. Uşaqların təhsil aldıqları məktəblə sıx əməkdaşlıq edirik. Biz sosial işçilər hər gün uşaqları məktəbə aparıb-gətirirk. Bununla yanaşı tez-tez müəllimlərlə görüşür, uşaqlar haqqında məlumat alırıq. Məktəbdə keçirilən valideyn iclaslarında iştirak edirik. Məktəb rəhbərliyi və bütün kollektiv iş prinsiplərimizi bilir və bizimlə birlikdə bu uşaqların təlim-tərbiyəsində bacardıqları köməkliyi göstərirlər. Çalışırıq ki, məktəbdə, ümumiyyətlə, cəmiyyətdə bu qızlar ayrı-seçkiliyə məruz qalmasınlar. Ona görə də uşağın şəxsi həyatı, hardan gəlməsi, sosial durumu haqqında məlumatların məxfiliyi qorunur, ehtiyac olduqda yalnız sinif rəhbərlərinə, əksər hallarda isə direktora veririk. Maksimum dərəcədə çalışırıq ki, ailədən gələn uşaqlarla bizim uşaqlar arasında fərqlilik hiss olunmasın. Bundan başqa, qızların istək və qabiliyyətləri nəzərə alınaraq onları ətrafda fəaliyyət göstərən dərnəklərə cəlb edirik. Onların içərisində rəqs, şahmat, rəsm, tikiş, bacarıqlı əllər və s. dərnəklərə cəlb olunan uşaqlar var".

### "Biz onların hər uğuruna bir ana kimi sevinirik"

Müəssisənin digər sosial işçisi Mətanət Ağazadə də bizimlə fikirlərini bölüşüb. O, Kiçik qrup evi yarandığı gündən burada çalışdığını və müəssisədə, sözün həqiqi mənasında, bir ailə mühitinin formalaşdığını deyir: "Buradakı uşaqları öz övladlarımız bilirik. Münasibətlərimiz səmimiyyət əsasında qurulub. Biz onlara yüksək qayğı ilə yanaşırıq. Uşaqlarımızın istər təhsilləri, istərsə də tərbiyələri ürəkaçandır. Bu, bizi həm sevindirir, həm də qürurlandırır. Biz onların hər uğuruna bir ana kimi sevinirik. Uşaqlarımız müxtəlif tədbirlərdə iştirak edirlər. Bundan başqa, təhsil aldıqları məktəbdə keçirilən fənn olimpiadası, müsabiqə və yarışlarda da onların iştirakını məktəb rəhbərliyi ilə birgə təmin edirik. Vaxtaşırı onları şəhər gəzintisinə, teatra və müxtəlif əyləncəli yerlərə aparırıq". Ev tapşırıqlarının yerinə yetirilməsində uşaqlara kömək etdiklərini, istiqamət verdiklərini deyən M.Ağazadə bu işdən həm də böyük zövq aldığını da qeyd etdi.

### "Məqsədimiz qızları həm də bir ana kimi cəmiyyətə hazırlamaqdır"

Kiçik qrup evinin aşpazı Dilarə Dadaşova uşaqların qidalanması üçün müxtəlif çeşiddə xörəklər bişirdiyini bildirdi. O, müəssisədə hər evdə olduğu kimi mövsümi və gündəlik xörəklərin hazırlandığını və uşaqların bu yeməkləri iştahla yediklərini dedi: "Qızlara yemək hazırlamağı, müxtəlif ev işlərində nələr etmək lazım olduğunu öyrədirəm. Çalışıram ki, onlar müstəqil həyata qədəm qoyanda evdarlığı, yemək bişirməyi bacarsınlar. Məqsədimiz qızları həm də bir ana kimi cəmiyyətə hazırlamaqdır. Qızlarımız da maşallah, yemək bişirməyə, süfrə açmağa çox həvəslidirlər. Bayramlarda və ad günlərində mənə yardımçı olurlar. Onlarla müxtəlif şirniyyatlar bişirir, salatlar hazırlayırıq. Onlar şirniyyatların hazırlanmasına daha həvəslə yanaşırlar. Yemək hazırlayarkən uşaqların xüsusi istəklərini də nəzərə alırıq. Artıq buradakı qızların hansı xörəyi daha çox xoşladıqlarını da bilirəm. Axı biz bir ailəyik".

# İnklüziv təhsilə aparan xəstəliklər

Yusif ƏLİYEV

## Rett sindromu haqqında nə bilirik

1994-cü ildə İspaniyanın Salamanka şəhərində qəbul edilmiş "Xüsusi təhsil hüququna dair Salamanka Bəyannaməsi"ndə yazılıb: "Məktəb bütün uşaqları, onların fiziki, intellektual, sosial, emosional, dil və digər xüsusiyyətlərinə baxmayaraq qəbul etməlidir. Bu, əqli və fiziki ləngiməsi olan uşaqlara da aiddir...". Dünyada inklüziv təhsilin inkişafına güclü təkan vermiş bu mötəbər sənəddə bizim indi "sağlamlıq imkanları məhdud" ifadəsi ilə adlandırdığımız əqli və fiziki ləngiməsi olan uşaqların təhsilə cəlb olunması qeyd olunub. Məqsəd məhz sağlamlıqlarındakı problemlər üzündən təhsildən kənarda qalan, cəmiyyətdən təcrid olunan belə uşaqların təhsil hüququnu gerçəkləşdirmək, onlara ətrafındakılarla normal ünsiyyət qura bilmək şansı verməkdir.

Rəsmi statistikaya görə, hazırda ölkəmizdə 60 mindən çox sağlamlıq imkanları məhdud şəxs var ki, onların da, təxminən, 20 faizi xüsusi, o cümlədən də inklüziv təhsilə cəlb olunub. Bəs belə şəxslərin əqli və fiziki inkişaflarında ləngimələr nədən yaranır? Nə üçün əksər hallarda dünyaya normal uşaq kimi gələn bu insanlar sonralar "sağlamlıq imkanları məhdud olanlara" çevrilirlər?

Səbəblər çoxdur və onların sırasında irsi və irsi olmayan xəstəliklər öndə gəlir.

### Sevinc kədərlə əvəzlənir...

...Ailədə övlad dünyaya gəlir. Ata-ana hədsiz sevinc içərisindədir. Dünyaya gələn hər körpə həm də özü ilə ailəyə hesabsız ruzi gətirir, ailəni daha da möhkəmləndirir, valideynlərin məsuliyyət yükünü artırır.

Aylar keçir, körpə yavaş-yavaş böyüyür. Hər şey normal gedir: uşaq qığıldayır, ataanasının üzünə gülür, valideynlərinin dindirməsinə reaksiyalar verməklə onlara sanki dünyanı bəxş edir. Və günlərin bir günü ana hiss edir ki, deyəsən, körpəsi inkişafdan qalıb, əllərinin əvvəlki nizamlı hərəkəti də hiss olunmur. Deyilən sözə əvvəlkitək tez və təbəssümlə reaksiya vermir. Başı da, deyəsən, bir qədər böyüyüb. Yaş yarımı var, amma bir yaşında olanda indikindən daha yaxşı yeriyirdi...

Ananın həyəcanı ataya da sirayət edir. Və... körpə həkimlərin, psixoloqların pasiyentinə çevrilir. Uzun müayinələrdən sonra məlum olur ki, uşaqda Rett sindromu xəstəliyinin əlamətləri var. Bir müddət də keçəndən sonra diaqnoz tam dəqiqləşir. Ailənin, necə deyərlər, qara günləri başlayır. Artıq əvvəlki sevincdən əsər-əlamət qalmayıb. Əvəzində valideynlərin özlərinin belə adını eşitmədikləri, mahiyyətini bilmədikləri xəstəlik ailəyə sarsıntı, stress, əsəb gərginlik gətirib.

Ürək ağrıdan mənzərədir. Lakin daha ürəkağrıdıcı bu barədəki rəsmi statistikadır: təxminən, dünyaya gələn hər 23 min uşaqdan birində bu sindrom müşahidə edilir.

### Rett sindromu

Bakı şəhəri Psixo-Sosial Reabilitasiya və İnkişaf Mərkəzinin psixoloqu Fuad Bayramovun bildirdiyinə görə, Rett sindromu əllərin məqsədyönlü istifadəsinin itirilməsi, fərqli əl hərəkətləri, beyin yavaşıması və baş böyüməsi, yerimə pozuntuları ilə xarakterizə olunan bir xəstəlikdir. Autizm, beyin iflici və ya qeyri-spesifik inkişaf pozuntuları kimi Rett sindromunun da diaqnozu çox çətindir. Xəstəlik ilk dəfə 1964-cü ildə həkim Andreas Rett tərəfindən müəyyən olunub. Buna görə də onun adı ilə adlandırılıb. Rett sindromunda beynin idrak, sensor, emosional, motor funksiyalarının fəaliyyətinə mənfi təsir göstərən amillər öyrənmə, danışıq, sensor duyğular, əhval, hərəkət, nəfəs, ürək funksiyası, çeynəmə, udma və həzmetmə sistemində problemlərə gətirib çıxarır. Rett sindromu 2010-cu ilə qədər klassik və atipik olmaqla 2 hissəyə ayrılıb. Lakin 2010-cu ildə psixoloq-həkim Neyl və dostları tərəfindən onun yeni bir növü də müəyyən olunub və xəstəlik 3 diaqnoz kriteriyaları üzrə gözdən keçirilməyə başlanıb.

F. Bayramov deyir ki, Rett sindromunun əsas meyarları məqsədli hərəkətlərin, qazanılmış nitqin qismən və ya tamamilə itirilməsi, əllərin qıvrıma, sıxma, bir-birinə vurma, ağıza salma, ovma və s. kimi tipik hərəkətlərinin, bəsit funksiyalarının itirilməsi, tarazlığın pozulmasıdır. Xəstələyin 4 klinik irəliləmə mərhələsi var. Birinci -fasilə mərhələsi 6 aydan 18 aya qədər olan dövrü əhatə edir və inkişafın dayanması, göz kontaktının pozulması, oyun marağının azalması, baş böyüməsinin yavaşıması kimi faktorlarda özünü göstərir. Psixoloqun fikrincə, normal inkişaf edən uşaqlarda Rett sindromunun əlamətləri yaş yarımından, yəni 18 aydan sonra özünü tam bürüzə versə də irəlidə sadalanan faktorların bəziləri, xüsusən də göz kontaktının pozulması, oyun marağının azalmasını uşaqda 6 aylığından da müşahidə etmək mümkündür. Bu faktorlar isə autizm xəstəliyinin də simptomları olduğundan bəzi mütəxəssislər tələskənliyə yol verib xəstəyə autizm diaqnozu qoyurlar. Müalicə də bu istiqamətdə aparıldığından heç bir müsbət nəticə əldə edilmir ki, bu da təəssüf ediləcək haldır. Ona görə də mütəxəssis həmkarlarına Rett sindromlu xəstələrə diaqnoz qoyarkən uşağın yaş yarımı tamam olanadək gözləməyi məsləhət görür.

İkinci klinik mərhələ sürətli dağılma mərhələsi adlanır və 1-4 yaş arası dövrü əhatə edir. Bu mərhələdə inkişafın pozulması, məqsədli əl istifadəsinin itirilməsi, stereotip əl hərəkətlərinin inkişafı, düzənsiz nəfəs kimi problemlər ortaya çıxır.

Növbəti - 3-cü mərhələ yalançı sabit mərhələdir ki, bu da 2-10 yaş dövrünü əhatə edir. Bu mərhələ mental retardasiya və otistik özəlliklərin artması, qalın motorun disfunksiyası kimi problemlərin ortaya çıxması ilə xarakterizə olunur.

4-cü - sonuncu mərhələ isə gec motor pozulma mərhələsi olub 5-25 yaşları əhatə edir. Bu mərhələdə hərəkətin azalması, onurğanın skalyoz formasında inkişafı, duyğusal əlaqənin yaxşılaşması, boş baxışlar (gözün bir nöqtəyə dikilməsi) özünü göstərir.

### Müalicə düzgün aparıldıqda...

F.Bayramovun dediyinə görə, başqa xəstəliklərdə olduğu kimi Rett sindromunun müalicəsində də əsas məsələ xəstə izlənməsində diaqnozun düzgün qoyulmasıdır. Bu, problemin həll olunmasının, hardasa, 40-50 faizini təşkil edir. Əgər diaqnoz düzgün qoyularsa və müalicə düzgün aparılarsa qısa müddətdə müsbət nəticələr görmək olar. Digər mühüm bir məsələ uşaqda bu problemin olduğunu ailəyə bildirmək və onu Rett sindromu haqqında ətraflı məlumatlandırmaqdır. Bu zaman mümkün risklər də valideynlərin nəzərinə çatdırılmalıdır. Mütəxəssislər belə uşaqlarla gün ərzində maksimum 3 saat məşğul ola bilir. Bu işdə əsas ağırlıq valideynlərin üzərinə düşür. Bu baxımdan valideynlərin səbrli, təmkinli olması və mütəxəssislərlə sıx əlaqədə çalışması əsas şərtlərdəndir.

Rett sindromunun tamamilə aradan qaldırılmasına kömək edən bir müalicə hələlik tapılmasa da, mütəxəssisin fikrincə, bir sıra müalicə üsullarından istifadə etməklə bu xəstələrlə uğurlu müalicə və reabilitasiya işləri aparmaq mümkündür. Bu istiqamətdə birinci mərhələ medikal müalicədir ki, burada sırf dərman preparatlarından istifadə olunur. Bu, simptomatik və dəstəkləyici müalicədir. İkinci mərhələ occupational müalicədir ki, bu zaman xəstənin hərəkət edə bilməsinə və özbaşına bəzi əl hərəkətləri etməsinə yönəlik özəl çalışmalardan istifadə olunur, məsələn, yemək yemə, geyinmə, soyunma, istədiyi bir şeyi ələ götürmə və s. Bunda məqsəd xəstənin bəzi əl hərəkətlərindən istifadəsini təmin etməkdir. Bu zaman psixoloq inkişafetdirici müəllimlə işləyə bilər. Digər bir müalicə nitq müalicəsidir ki, onun da hədəfi özünü ifadə edə bilmə, dil inkişafının dəstəklənməsidir. Dördüncü istiqamət fiziki müalicə olub xəstənin tarazlıq qura bilməsini artırmaq məqsədi daşıyır. Bu, skalyozu olan şəxslərin duruşunu düzəltmək üçün də gərəklidir. Bunlardan başqa alternativ müalicə növləri də vardır ki, buraya, əsasən, akapunktur, masaj, yoqa, heyvanlar ilə terapiya, musiqi terapiyası, hidroterapiya daxildir. F.Bayramov bildirir ki, bu məqsədlə onların mərkəzində son vaxtlar istifadə olunan immunterapiya da çox faydalıdır.

Rett sindromundan əziyyət çəkən uşaqların qidalanması da çox önəmlidir. Belə ki, onlar gün ərzində 6 dəfə qidalanmalı, gündəlik qidalanma rasionu yüksək kalorili olmalıdır. Belə uşaqlarda dişləmə və udma problemi olduğu üçün qidalar blenderdən çəkildən sonra uşağa verilməlidir. Qida rasionuna D, B, C vitaminləri və kalsium əlavə olunmalıdır.

Mütəxəssisin fikrincə, yaxşı müalicə və düzgün qulluq bu uşaqların ömrünü uzada və onlar normal insanlar kimi yaşaya bilərlər.

# Pedaqogika və psixologiya problemləri üzrə elmi şura: reallıqlar və vəzifələr

## Elmi-pedaqoji, psixoloji tədqiqatların müasir yanaşmalar əsasında daha da dərinləşdirilməsi və genişləndirilməsi vacibdir

**İntiqam CƏBRAYILOV,**
*Respublika Elmi-Tədqiqatların Əlaqələndirilməsi Şurası Pedaqogika və Psixologiya Problemləri üzrə Elmi Şuranın sədri, pedaqogika üzrə elmlər doktoru, Təhsil İnstitutunun Təhsil nəzəriyyəsi şöbəsinin müdiri*

Bu gün Azərbaycanda həyata keçirilən islahatlar, xüsusilə təhsil sahəsində görülən işlər onun yenidən qurulmasına – yeni təhsil sisteminin formalaşdırılmasına xidmət göstərir. Bu işin uğurla yerinə yetirilməsində təhsil elminin üzərinə ciddi vəzifələr düşür. Yeni təhsil məzmununun yaradılması, texnologiyaların, idarəetmə strukturu və sairin formalaşdırılması üçün ilkin olaraq tədqiqatların əlaqələndirilməsinə, düzgün planlaşdırılmasına ehtiyacın yaranması aydın şəkildə diqqəti cəlb edir. Bu baxımdan, AMEA Respublika Elmi-Tədqiqatların Əlaqələndirilməsi Şurasının 5 dekabr 2014-cü il tarixli qərarı ilə yaradılmış Pedaqogika və Psixologiya Problemləri üzrə Elmi Şura (PPPEŞ) bu missiyanı yerinə yetirir. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 4 dekabr 2017-ci il tarixli qərarı ilə Elmi-Tədqiqatların Əlaqələndirilməsi Şurası haqqında Əsasnamə təsdiq olunub.

Pedaqogika və Psixologiya Problemləri üzrə Elmi Şuranın əsas məqsədi respublikada pedaqogika və psixologiya sahəsində aparılan fundamental tədqiqatların aktuallığının artırılması, elmi, elmi-metodik işlərin keyfiyyətinin yüksəldilməsi, mövzuların seçimində təkrarlanmaların aradan qaldırılması, eyni zamanda pedaqogika və psixologiya elmlərinin və texnologiyalarının inkişaf meyilləri nəzərə alınmaqla yeni elmi istiqamətlərin müəyyənləşdirilməsi, elmi tədqiqatların əlaqələndirilməsi, elm və təhsilin inkişafının təmin edilməsi, yüksək ixtisaslı elmi kadrların hazırlanması, elmi-texniki potensialın qorunması, Azərbaycan elminin beynəlxalq elm məkanına inteqrasiyasının sürətləndirilməsi, elmi tədqiqatların və innovasiya siyasətinin səmərəliliyinin artırılması və s. istiqamətlərdə nəzərdə tutulmuş işlərin həyata keçirilməsi kimi müəyyən edilib.

Şura müvafiq qaydalar əsasında daimi işini və iclaslarını təşkil edir, Şurada qeydiyyata alınan elmi-tədqiqat mövzularını sistemə salır, respublikada pedaqogika və psixologiya sahələri üzrə aparılan elmi tədqiqatların ümumi mənzərəsini əks etdirən yekun əlaqələndirmə planına daxil edilməsi üçün müvafiq təkliflər hazırlayır. Bununla bərabər Şuranın zəruri sənədlərinin (yerlərdən daxil olmuş tematik planlar, müvafiq iclas protokolları, təşkilatlarla olan yazışmalar, hesabatlar) saxlanılmasının təmin olunması, təqdim olunan mövzuların hüquqi qüvvəyə minməsi üçün vacib sənədlərin işlənib hazırlanması və lazımi ünvanlara təqdim edilməsi məsələlərinə də diqqətlə yanaşır. Mühüm vəzifələrdən biri kimi onu da qeyd etməliyik ki, bu Elmi Şura respublikada pedaqogika və psixologiya sahələri üzrə yekun tədqiqat planına daxil olan elmi tədqiqatların tədqiqi vəziyyətini müntəzəm olaraq izləyir, Azərbaycan Milli Elmlər Akademiyası, Təhsil Nazirliyi, müvafiq ali təhsil müəssisələri ilə müntəzəm əlaqə saxlayır, qarşılıqlı informasiya mübadiləsi aparır.

Elmi Şuranın qarşıya qoyulan məqsəd və vəzifələrinin layiqincə həyata keçirilməsi üçün pedaqogika və psixologiya sahələri üzrə respublikada işlənmiş və hazırda işlənən dissertasiya mövzularının müasir elektron bazası yaradılmışdır. Qısa bir müddətdə ötən son 15 ildə müvafiq sahələr üzrə şuranın qərarları ilə təsdiq edilmiş 1500-dən artıq dissertasiya mövzusu haqqında ətraflı məlumatlar elektron proqrama yüklənib. Elektron proqrama yüklənmiş dissertasiya mövzuları həm də vəsait kimi hazırlanmış (Pedaqogika və psixologiya problemləri: dissertasiya mövzuları 1992-2016-cı illər) və 2017-ci ildə çap olunmuşdur. Bu vəsaitdə 1200 dissertasiya mövzusu haqqında məlumat verilir.

Qeyd edək ki, Elmi Şura öz işini müvafiq Əsasnaməyə uyğun həyata keçirir .Ayrı-ayrı təhsil müəssisələrindən pedaqoji-psixoloji və xüsusi metodika sahəsində fəlsəfə doktoru və elmlər doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan müvafiq materiallar elektron qeydiyyatdan keçirildikdən sonra dissertasiya mövzularına ilkin rəyin verilməsi məqsədilə mütəxəssislərə təqdim edilir.

Şuranın iclaslarında müzakirə zamanı aşkara çıxarılan qeyri-aktual, az səmərəli və təkrarlanan mövzular geriyə qaytarılır və onların daha aktual yeni mövzularla əvəz edilməsi tövsiyə olunur. Eyni zamanda Pedaqogika və Psixologiya Problemləri üzrə Elmi Şura mütəxəssislərin və müzakirə zamanı çıxış edən Elmi Şura üzvlərinin rəyinə əsaslanaraq mövzuların əksəriyyətini təsdiq edir. Təsdiq olunmuş mövzular strateji elmi istiqamətlərə uyğun qruplaşdırılıb sistemə salınır və respublikada pedaqogika, psixologiya və metodika sahələri üzrə aparılmış və aparılan tədqiqatların ümumi mənzərəsini əks etdirən "Yekun əlaqələndirmə planı"na daxil edilməsi tövsiyə edilir. Təkcə ötən ildə Elmi Şuranın 3 iclası keçirilmiş və 93 dissertasiya mövzusuna baxılmışdır. Onlardan 81-i fəlsəfə doktoru, 12-si elmlər doktoru proqramı üzrə dissertasiya mövzuları olmuşdur. Bu mövzulardan 49-u olduğu kimi, 42-si redaktə olunaraq dəqiqləşdirilmiş və təsdiq edilmiş, 2-si isə (fəlsəfə doktoru proqramı üzrə) doktorant və ya dissertant olduqları ali təhsil müəssisəsinə geri qaytarılmış, ali məktəbin müvafiq kafedrasında və elmi şurasında yenidən baxılması tövsiyə edilmişdir. Son üç il ərzində (2015, 2016, 2017) isə 14 təhsil müəssisəsindən 341 dissertasiya mövzusuna (262 - pedaqogika; 79 - psixologiya; 299 - fəlsəfə doktoru, 42 - elmlər doktoru proqramı üzrə) baxılmış, onlardan 187-si olduğu kimi, 136-sı redaktə olunaraq təsdiq edilmiş, 18-i isə geri qaytarılmışdır.

İndiyə qədər də təhsil sahəsində və tədrisin keyfiyyətinin yüksəldilməsi istiqamətində bir sıra faydalı pedaqoji-psixoloji tədqiqatlar aparılmış, müxtəlif problemlər üzrə dissertasiyalar müdafiə edilmiş, bir sıra maraqlı ideyalar irəli sürülmüş və onların köməyi ilə xeyli uğurlar əldə edilmişdir. Bununla belə, təcrübə və araşdırmalar göstərir ki, tətbiqi xarakterli tədqiqatlar məktəb təcrübəsində, təhsil prosesinin təşkilində qənaətbəxş sayılsa da, fundamental pedaqoji-psixoloji tədqiqatlara az müraciət edilmiş, elmi-nəzəri baxımdan əhəmiyyətli olan bəzi problemlər açıq qalmışdır. Bu gün pedaqoji prosesin müasir problemlərinin elmi əsaslarının daha dərindən işlənməsi üçün fundamental tədqiqatların aparılması alimlərimizin qarşısında mühüm bir vəzifə kimi durur. Məhz bu baxımdan təhsil cəmiyyətin əsas atributlarından biri sayılır. Çünki təhsilin inkişafı cəmiyyətin inkişafı ilə bilavasitə bağlıdır. Hər bir cəmiyyətdə baş verən inkişaf yenilikləri, bütün sahələrdə olduğu kimi, təhsil sahəsində özünü bu və ya digər dərəcədə göstərməklə həmin cəmiyyəti xarakterizə edir. Cəmiyyətin inkişafı təhsilə, təhsilin inkişafı isə cəmiyyətə birbaşa təsir göstərir. Bu baxımdan, yeniləşən cəmiyyət yeniləşən təhsil tələb edir.

Pedaqogika və Psixologiya Problemləri üzrə Elmi Şurada dissertasiya mövzuları ilə bərabər, ölkəmizin ali təhsil müəssisələrinin müvafiq kafedralarında aparılan elmi-tədqiqat işlərinin mövzuları da müzakirə olunur. Təqdim olunan elmi-tədqiqat mövzuları əsasən bu günümüzlə səsləşən, aktuallığı ilə diqqəti cəlb edən mövzulardır. Əsasən "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın tələblərinə uyğun problem mövzular müəyyənləşdirilir. Mövzular Azərbaycan təhsilinin modernləşdirilməsinə, innovasiyaların tətbiqi imkan və yollarının araşdırılmasına istiqamətlənir.

PPPEŞ-ə təqdim olunan materiallardan, rəsmi sənədlərdən və eyni zamanda müvafiq işlərlə praktik tanışlıqdan aydın olur ki, tədqiqatlar həm elmin, həm də təhsilin inkişafı üçün nəzəri və praktik baxımdan əhəmiyyətlidir. Hər bir kafedra və ya şöbədə öz funksiyalarına uyğun nəzəri-pedaqoji, praktik, metodik və eyni zamanda psixologiyaya aid müasirliyi ilə diqqət çəkən, aktual mövzular müəyyənləşdirilir və gözlənilən nəticələr aydın şəkildə ifadə edilir. Bu tədqiqatlar ölkə təhsilinin inkişafına yönələn ideyaları özündə əks etdirir. Təhsilin cəmiyyətin siyasi, sosial-iqtisadi və mədəni həyatındakı rolunu nəzərə alaraq araşdırılan problemin, elmi-tədqiqat mövzularının dövlətimizin təhsil siyasətinə, elmin inkişaf doktrinasının tələblərinə uyğun, cəmiyyətimizi düşündürən, insan kapitalının, şəxsiyyətin inkişafına istiqamətləndirilməsini təqdirəlayiq hesab edirik. Bu istiqamətdə fəaliyyətimizin daha da dərinləşdirilməsi və genişləndirilməsi vacibdir.

Lakin PPPEŞ-ə təqdim olunan elmi-tədqiqat mövzuları içərisində müasir dövrlə səsləşməyən, pedaqogika, metodika və psixologiya elmlərinin hazırkı inkişaf xüsusiyyətlərini əks etdirməyən, çox ümumi, konkret olmayan, bəzən təkrarlanan, lazımi səviyyədə elmi baxımdan düzgün formalaşdırılmayan mövzular da vardır.

> **Lakin PPPEŞ-ə təqdim olunan elmi-tədqiqat mövzuları içərisində müasir dövrlə səsləşməyən, pedaqogika, metodika və psixologiya elmlərinin hazırkı inkişaf xüsusiyyətlərini əks etdirməyən, çox ümumi, konkret olmayan, bəzən təkrarlanan, lazımi səviyyədə elmi baxımdan düzgün formalaşdırılmayan mövzular da vardır. Elə elmi-tədqiqat mövzuları da vardır ki, onların ifadə tərzi düzgün səslənmir və ya mücərrəd xarakter daşıyır.**

Elə elmi-tədqiqat mövzuları da vardır ki, onların ifadə tərzi düzgün səslənmir və ya mücərrəd xarakter daşıyır. Məsələn, "Ailə tərbiyəsində Milli pedaqogikanın yeniliklərindən istifadə", "Təlim kateqoriyalarına dair Milli pedaqogikanın yenilikləri" kimi mövzuların adları anlaşılmazlıq yaradır. Yaxud "Şəhidlərin yad edilməsi işinin təşkili metodikası" ifadəsi dəqiq deyildir. Bu iş müəyyən tədbirlərin təşkili və aparılması istiqamətində konkret göstərilsəydi, daha yaxşı olardı.

Digər bir mövzuya diqqət edək: "Qiyabi şöbə üçün proqramın hazırlanması". Bu mövzuda hansı ixtisas, hansı fənn proqramlarından söhbət getdiyi məlum deyildir.

Bəzi mövzularda ümumi oxşarlıq, müəyyən təkrarlar nəzərə çarpır.Yaxud başqa bir mövzuya diqqət edək: "Nəzarətdə texnologiyalar". Bu mövzunun elmi istiqaməti isə belə müəyyənləşdirilib: "texnologiyalar". Göründüyü kimi, mövzunun adı və elmi istiqaməti ciddi elmi tələblər əsasında formalaşdırılmayıb.

Digər bir mövzu isə belə təqdim olunub: "İbtidai siniflərdə mövcud vəziyyətin təhlili".

Əgər söhbət ibtidai siniflərdə mövcud vəziyyətin təhlilindən gedirsə, deməli, burada qeyd olunmalıdır ki, mövcud vəziyyət hansı problem baxımından öyrəniləcək? Əgər problem məlum deyilsə, o zaman nə öyrəniləcək? İbtidai siniflərin pedaqogika elmi baxımından çoxlu problemləri mövcuddur: təlimin təşkili, tərbiyə, şəxsiyyətin formalaşdırılması, dərsliklər və s. Ona görə də mövzu müəyyənləşdirilərkən elmi tələblər nəzərə alınmalıdır.

Məqbul hesab olunmayan məsələlərdən biri də budur ki, bəzi siyahılarda tədqiqatçı müəllif eyni zamanda öz elmi-tədqiqat işinin rəhbəri kimi təqdim olunub. Halbuki bu işlərin rəhbəri kimi kafedra müdirinin təyin olunması məqsədəuyğun olardı. Bununla yanaşı bəzi mövzularda elmi istiqamət, gözlənilən nəticələr də düzgün ifadə olunmur. Bəzi mövzularla bağlı tədqiqat işinin gözlənilən nəticəsi belə ifadə edilib: "İllik elmi-tədqiqat işi".

Elmi- tədqiqat mövzusunun düzgün müəyyənləşdirilməsi təkcə tədqiqatçı üçün deyil, bu tədqiqat işini oxuyan, onunla maraqlanan hər kəs üçün mühüm, son dərəcə vacib məsələlərdən biridir. İşin adı bütövlükdə tədqiqatın mahiyyəti haqqında ilkin təsəvvür yaradır.

Yaxşı olardı ki, tədqiqat işinin məqsəd və vəzifələrindən irəli gələn, məzmunundan əldə olunması gözlənilən elmi nəticələr barədə qısa məlumat verilsin.

Qeyd etmək lazımdır ki, cəmiyyətin sürətli inkişafı, təhsil sistemində köklü islahatların aparılması təhsillə, pedaqogika və psixologiya problemləri ilə bağlı daha aktual, cəmiyyətin tələbatlarına, dövlətin təhsil siyasətinə uyğun strateji xarakterli elmi araşdırmalara üstünlük verilməsinin əhəmiyyətini xeyli artırmışdır. Bu gün sürətlə dəyişən, yeniləşən, inkişaf edən cəmiyyət tədqiqatçıdan da çevik, strateji hədəflərə istiqamətlənmiş təfəkkür, səriştəlilik tələb edir. Ölkəmizdə hüquqi, demokratik dövlət quruculuğunun inkişaf etdirildiyi, eyni zamanda qloballaşma, Avroatlantika məkanına inteqrasiya şəraitində kafedra və elmi şöbələrdə aparılan təhsil tədqiqatlarının birillik müddət üçün planlaşdırılması daha məqsədəuyğun olardı.

Aparılan təhlillər göstərdi ki, bəzən işlənən mövzularda ümumi oxşarlıq hiss olunur.Təqdim olunan mövzulara diqqət edək: "Şəxsiyyət və cəmiyyət"; "Şəxsiyyətin formalaşmasında müasir təhsilin rolu".

Göründüyü kimi, bu mövzular çox ümumi şəkildə müəyyən edilib. Tədqiqat mövzularında araşdırılan problemin mahiyyətinin konkret ifadə olunması yaxşı olardı. Bəzi mövzuların hansının pedaqoji, hansının psixoloji baxımdan tədqiq ediləcəyi məlum olmur. Ona görə də təqdim olunan siyahılarda ayrı – ayrı mövzuların hansı elm sahəsinə aid olması, elmi istiqamətinin düzgün müəyyənləşdirilməsi vacibdir.

Elm sahəsi anlayışı elmi istiqamət anlayışından genişdir. Lakin təəssüf ki, bəzən bu anlayışların mahiyyətinə düzgün yanaşılmadığından təqdim olunan siyahıda elmi istiqamət elm sahəsi kimi, elm sahəsi də elmi istiqamət kimi verilir. Məsələn, "Pedaqogika" istiqamət, "şəxsiyyətin inkişafı və formalaşdırılması" elm sahəsi kimi müəyyənləşdirilmişdir. Digər bir mövzunun isə həm elmi istiqaməti, həm də elm sahəsi kimi "fiziologiya" göstərilib. Təqdim olunan sənədlərin təhlili göstərir ki, bəzi mövzuların tədqiqi üçün birillik müddət nəzərdə tutulsa da, həmin problemlərin əhatə dairəsi həddindən artıq genişdir. Həm də tədris fəaliyyətilə məşğul olan müəllimin əhatə dairəsi geniş olan bir problemi, mövzunu bir il müddətinə tamamlaya bilməsi real görünmür.

Bu baxımdan, bəzi nümunələrə diqqət edək: "Azərbaycanda təhsil islahatları"; "XIX-XX əsrlərdə Azərbaycanda təhsil fəlsəfəsinin inkişaf dialektikası".

Təqdim olunan siyahıda bəzi mövzularda məzmun səhvləri ilə yanaşı, üslub xətaları xüsusilə diqqəti cəlb edir: "Azərbaycanda müasir təhsil islahatının perspektiv imkanları, təhsil islahatının əsas məzmunu".

Qeyd etdiyimiz bu və ya digər məsələlər tədqiqat mövzuları seçiminin də nə qədər mühüm əhəmiyyət kəsb etdiyini göstərir.

Ümumiyyətlə, araşdırma və təhlillər göstərir ki, cəmiyyətin daha sürətli inkişafı elmin, texnologiyanın inkişafı ilə bilavasitə bağlı olduğundan elmi-pedaqoji, psixoloji tədqiqatların müasir yanaşmalar əsasında daha da dərinləşdirilməsi və genişləndirilməsi son dərəcə vacibdir. Bu baxımdan hər bir tədqiqatçının üzərinə mühüm vəzifələr düşür. Belə ki, alınan elmi nəticələrin əhəmiyyətliliyi təhsilin, elmin inkişafını və nəticə etibarilə cəmiyyətin inkişafını şərtləndirir.

# Suda üzən avtomobil təqdim olunub

**Yusif ƏLİYEV**



"Toyota" şirkətinin əməkdaşı olmuş yapon ixtiraçısı Hideo Surumaki təbii fəlakətlər zamanı sahibinin xilas olmasına kömək edən üzən avtomobil hazırlayıb.

Surumaki "Toyota" şirkətindən çıxdıqdan sonra iki il ərzində üzə bilən kiçik "Fomm" elektrik avtomobilinin prototipini yaradıb. Avtomobilin nümunəsi investorları cəlb edib. İxtiraçı hazırda bir dəfə enerji doldurmaqla saatda 80 kilometr sürətlə 160 kilometrə qədər məsafə qət edə bilən elektrik avtomobilinin dördüncü prototipi üzərində işləyir. Avtomobilin daha bir xüsusiyyəti - dörd oturacağın hər birinin altında yerləşdirilmiş növbəli batareyalardır. Mühəndislər bu üsulla suda tarazlıq problemini həll ediblər.

**www.hi-news.ru** saytının məlumatına görə, indi istehsalçılar avtomobilin dəyərini mümkün qədər aşağı salmağa çalışırlar ki, adi maşının dəyərindən fərqlənməsin. Lakin avtomobillərin ilk buraxılışının dəyəri kifayət qədər baha olacaq və qiyməti 18 min dollardan başlayacaq.

Qeyd edək ki, Surumaki bir ilə on min "avtomobil-amfibiya" istehsal etməyə hazırlaşır. Bu məqsədlə gələcək seriya buraxılışı üçün Taylandda bir zavodla razılaşıb.

# İstənilən elektron sistemi "3D-görmə" ilə təmin edən texnologiya



"Intel" şirkətinin istənilən elektron sistemi "üçölçülü görmə" ilə təmin edən "RealSense" texnologiyasına malik yeni kameraları satışa çıxarılıb.

**www.hitech.vesti.ru** saytının məlumatına görə, hər iki qurğu - "Intel RealSense" D415 və D435 yeni nəsil D400 "RealSense" kameralar xəttinə daxildir və çip istehsalçısı tərəfindən hazırlanmış yeni D4 görüntü prosessoru ilə təchiz edilib. Onlar enerji ilə doldurulur, məlumatları USB-interfeys vasitəsilə ötürür və fərdi kompüterlər, dronlar və s. daxil olmaqla, istənilən kompüter sistemlərinə qoşulur. Kameralar istər qapalı məkanda, istərsə də, açıq səma altında problemsiz işləyir. Onlardan əlavə və virtual reallıqda müxtəlif funksiyaların yerinə yetirilməsi üçün istifadə etmək olar.

Kameralar və onlar üçün hazırlanmış proqram təminatı istənilən sistemi "üçölçülü görmə" ilə təchiz etməyə imkan verəcək. Bunun sayəsində qurğular obyektlərin forma və rəngini ayırd etməklə yanaşı, həm də onlara qədər olan məsafəni "görə" biləcəklər. "Intel" D415 və D435 kameralarını müvafiq olaraq, 149 və 145 dollara əldə etmək mümkündür.

# 4D-çap sahəsində sıçrayış edilib



İtaliyanın Milan Politexnik Universitetinin mütəxəssisləri 4D-çap sahəsində sıçrayış ediblər. Onlar 3D-printerdə çap edilmiş obyektləri zamanla formasını dəyişmələri üçün proqramlaşdıra biliblər.

**www.robo-hunter.com** saytının məlumatına görə, 4D-çap texnologiyası zamanla qırışların meydana gəldiyi və buna görə də şəklini dəyişən bərk və yumşaq obyektlər yaratmağa imkan verir. Professor Paskuale Çiarlettanın rəhbərlik etdiyi tədqiqatçılar qrupunun işi tanınmış italyan riyaziyyatçısı Leonardo Fibonaççinin qəbul edilməmiş tədqiqatlarına əsaslanır. Onun tədqiqatları göstərir ki, riyaziyyatın köməyi ilə yumşaq və bərk cisimlərdə qırışların meydana çıxacağı yeri hesablamaq mümkündür.

Çiarletta hesab edir ki, qırışların meydana gəlmə şərtlərini öncədən dəqiqliklə bilməyə imkan verən yeni riyazi yanaşma onların yaranma prosesinə nano səviyyədə nəzarət etməyə kömək edəcək. Tədqiqat işi transformasiya edilən materialların konstruksiyasının yaxşılaşmasına imkan yarada bilər. Gələcəkdə onlardan elastik elektronikada istifadə etmək mümkün olar.

# Özü bərpaolunan elektron dəri hazırlanıb



Elektron dəri insan dərisini təqlid edən incə yarımşəffaf materialdır. Ondan robot texnikasında və protezlərin hazırlanması zamanı istifadə edilir. Kolorado Universitetinin mütəxəssisləri elektron dərini toxunuşlara qarşı daha həssas etməyə imkan verən yeni texnologiyanı tətbiq ediblər.

**www.meddaily.ru** saytının məlumatına görə, süni dəriyə təzyiq, temperatur və rütubətin ölçülməsi üçün sensorlar inteqrasiya edilib. Yeni ixtiranın əsasında xüsusi polimer dayanır. Alimlər polimeri gümüş nanozərrəcikləri ilə örtüblər ki, bu da məmulatı daha möhkəm etməyə imkan verib. Elektron dəri olduqca elastikdir və asanlıqla lazımi formanı alır. Yeni dərinin daha bir üstünlüyü də özünü bərpaetmə xüsusiyyətidir. Bu, ixtiranın uzun ömürlü olmasını təmin edəcək. Həmçinin elektron dəri tamamilə emal edilə bilər. Bunun üçün xüsusi məhluldan istifadə edilir.

*İKT.az saytının materialları əsasında*

# "Ən peşəkar teatr səhnələrində özümü görə bilirəm"

**Gülnarə İLHAM**

## *Sevgin Rzayeva:* "SABAH qrupu bizə əsl aktyor həyatı yaşatdı"

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin SABAH qrupu Aktyor sənəti ixtisası 4-cü kurs tələbələri ilə tanışlığa başlayırıq. İlk müsahibimiz Sevgin Rzayevadır. Adı kimi maraqlı, mehriban xarakterə malikdir Sevgin. Simasında əsl Şərq qadını duruşu var. Bir də dərin, işıqlı baxışı. 1995-ci ilin 4 noyabrında Bakıda doğulub. Gerisini özü danışacaq.

- Sual verməsəniz də olar, nə danışacağımı bilirəm.

*- Sevgin, barı müxbirliyimi əlimdən almayın.*

- *(Gülür)* Yaxşı, anladım. Yəqin ki, elə uşaqlığımdan başlamalıyam, hə?

*- Sualı özünüz verdiniz artıq, danışın.*

- Evin sonbeşiyiyəm. El arasında qazandibi də deyirlər belə uşaqlara. Ailənin ən sevimlisi də mənəm. Ərköyün, şıltaq böyümüşəm. Evdə sözümün üstünə söz deyilməyib. Amma bu xasiyyətim incəsənətdə çox işimə mane olduğuna görə cilalamağı bacardım. Sevinirəm ki, bunu mənə məhz incəsənət öyrədib.

Məktəb illərindən danışım. İki məktəbdə oxumuşam. Bu illərdə heç vaxt müəllimlərim məndən şikayət etməyiblər. Amma məktəbdən sonrakı arzularım sizə qəribə görünər bəlkə. Danışım?

*- Əlbəttə, maraqlıdır.*

- Həmişə hüquqşünas olmağı arzulayırdım. İnadkar, qətiyyətli xarakterim var. Hətta arzuladığım fakültəyə də qəbul olundum. Naxçıvan Dövlət Univeritetinə. Sadəcə bəzi səbəblərdən oxuya bilmədim. Növbəti il sənəd verəndə qərarımın dəyişməyindən ailəmin xəbəri olmadı. Onlar elə bilirdilər ki, müəllimlik peşəsini seçəcəm. Amma sənədlərimi Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinə hazırladım. Əslində, ailəm buna hazır idi. Nədənsə elə uşaqlıqdan məni incəsənət adamı kimi görmək istəyirdilər. Bacım Tibb Universitetini bitirib. Yalnız o təkid edirdi ki, mən də bu sahəni seçim. Amma dünyagörüşümüz, zövqlərimiz tamam fərqlidir. Təbii ki, tibb sahəsinə getmək ağlımın ucundan belə keçməzdi.

Amma sizə deyim ki, uşaqlıqdan elə məktəbdə səsimə görə seçilirdim. Tədbirlərə qatılırdım. Hətta bir dəfə gitarada "Cənab leytenant" mahnısını da ifa etmişəm. Deməli, harda qalmışdım.

*- Gizlin sənəd hazırlığında.*

- Hə, universitetə qabiliyyət imtahanına gələndə evdə heç kəsə demədim. Dəqiq yadımdadır həmin gün. Girmişəm otağa, pis çıxmasın, oradakı uşaqları görüb özümü qurbanlıq qoyun kimi hiss etdim. Baxıram, hamı təlaşlı. Üzlərindən həyəcan yağır. Deyirəm, görəsən, kim keçib içəri, kimə nə sual veriblər. Özü də o zamanlar indikindən daha toppuş idim. Baxmayaraq ki, heç vaxt köklüyümə görə kompleks yaşamamışam, amma niyəsə həmin vaxt bir anlıq özgüvənim sarsıldı *(gülür).*

Növbəm çatdı. İçəri dəvət etdilər. Xalq Artisti Cənnət Səlimovanı görəndə dilim-dodağım qurudu. İndiki kurs rəhbərimiz Nofəl müəllim də orda idi. Nə hazırladığımı soruşdular. Şeir, mahnı, monoloq. Boxçada nə var göstər, dedilər. Amma ürəyimdən keçən mahnı oxumaq idi.

*- Yəni, səsinizə bu qədər güvənirsiniz? Bir anlıq mənə elə gəldi, oxusanız, hind əsilli amerikan müğənni Nora Cons (Norah Jones) stilində bir mahnı ifa edərsiniz.*

- Kaş elə olardı. *(Gülür)* Sizə maraqlı bir xatirəmi danışım. Deməli, uşaqlıqda ən çox sevdiyim müğənni İlhamə Quliyeva idi. "Dezodorant" qutusunu götürüb güzgünün qarşısında saatlarla onun kimi oxuyurdum. Evdə hamı səsimdən bezmişdi.




*- Bəs, münsiflərin qarşısında hansı mahnını oxudunuz?*

- Əvvəlcə məndən indiyədək teatra tamaşaçı kimi gedib getmədiyimi soruşdular. Yalan danışa bilməzdim. Bu vaxtadək yalnız Dövlət Kukla Teatrında olmuşdum. Cənnət xanım bir az istehza ilə "bəs, sən necə aktyor, rejissor olmaq istəyirsən"-dedi. Mən də əminliklə "bəli, aktyor olmaq istəyirəm, bəlkə elə həyatım dəyişəcək, indən belə həmişə teatra getməli olacağam" - cavabını verdim. Xoşlarına gəldi sözüm. Bir neçə mahnı oxudum. Sonra şeirə keçəndə Nofəl müəllim mizan verdi mənə. Təsəvvür edin, qapıda yaşlı kişi dayanıb. Bəlkə də babam yaşında olardı. Mənə dedi ki, sevgi şeirini ona baxıb söyləməlisən. Əlbəttə, tapşırığa əməl etməyə bilməzdim. Məqsədim vardı axı. Amma yenə də Cənnət xanımın razılığını ala bilmirdilər. Məndən aktrisa olmayacağını deyirdi. Nofəl müəllimin təkidi ilə nəhayət, imtahandan keçdim. Həyatın işinə baxın, indi mən Cənnət Səlimovanın quruluş verdiyi "Ezop" tamaşasında baş qadın obrazını oynayıram. Onun kimi sənətkarın oynumu bəyəndiyini deməsi, mənim üçün böyük fəxrdir.

*- Əsas məsələyə gələk. Fikrim ailənin yanında qalıb. Qəbul xəbərini necə dediniz? Valideynlərinizin reaksiyasını təsəvvür edirəm.*

- *(Gülür)* Bilirəm nə düşünürsünüz. Amma düşündüyümün tam əksi oldu. İmtahandan keçəndən sonra anama zəng etdim. Anam təəccüblənsə də, çox sevindi. Axır ki, niyyətinə çatmısan dedi.

*- Nə oldu, universitetlə bağlı gözləntiləriniz özünü doğrultdumu? İxtisas dəyişməyinizə peşman deyilsiniz?*

- Ümumiyyətlə, nəinki mən, bütün qrup yoldaşlarım düşünürdü ki, elə ilk gündən tamaşa hazırlığı olacaq, televiziyaya çıxacağıq, müsahibələr verəcəyik. Bir sözlə, özümüzü artıq məşhur adam hesab edirdik. Təbii ki, tələbə kimi ən uğurlu şansımız həm də SABAH qrupuna seçilməyimiz oldu. Məhz bu qrupdakı fərqli tədris metodikası sayəsində biz əsl aktyor həyatı yaşadıq. Peşəkar teatr həyatı kimi biz də bölgələrimizə səfərlər etdik, tamaşalar oynadıq. Elə bu gün televiziyaların bizi verilişlərə dəvət etməsi, Təhsil TV-nin, "Azərbaycan müəllimi" qəzetinin bizdən müsahibə alması gördüyümüz işlərin nəticəsidir. Deməli, tələbə kimi bacarığımızı az da olsa göstərə bilmişik.

*- Sizə verilən rollar ürəyinizcə olub?*

- İndi deyəcəyim sözlər təkəbbür kimi görünməsin sizə. Bayaq da qeyd etdim, çox prinsipial insanam. Düzdür, düşünürəm ki, aktyor ona tapşırılan hər rolu oynamalıdır. Amma mən özümü həmişə əsas obrazlarda görürəm. Ona görə də rol bölgüsü olanda hətta mübahisə yaransa da, öz istədiyim obrazı oynamışam. Ola bilər, sənətdə bu inadkarlığım gələcəkdə mənə problem yaradar. Ancaq nə etmək olar, dəyişə bilmirəm *(gülür).*

*- Gələcək. Çox maraqlı və ümidli dediniz bu sözü. O zamanda özünüzü harda görürsünüz?*

- Hələlik Almaniyada magistr təhsili almaq niyyətindəyəm. Əlbəttə, işini tam professional yerinə yetirən aktrisa kimi Azərbaycanın, hətta Türkiyənin ən peşəkar teatr səhnələrində özümü görə bilirəm.

## "Beynəlxalq kitab bağışlama" günü keçirilib



"Beynəlxalq kitab bağışlama günü" münasibətilə aksiya keçirilib. Aksiya Təhsil Nazirliyinin Respublika Uşaq-Gənclər İnkişaf Mərkəzinin təşəbbüsü, AMEA-nın Mərkəzi Elmi Kitabxanasının dəstəyi ilə təşkil olunub. Tədbirin keçirilməsində əsas məqsəd gənc nəslə mədəni xidmət göstərmək, kiçikyaşlı oxuculara mütaliə vərdişlərini aşılamaq, onların kitaba olan marağını yüksəltməkdən ibarət olub.

Aksiya çərçivəsində Respublika Uşaq-Gənclər İnkişaf Mərkəzinin dərnək üzvləri öz sevimli kitablarını hədiyyə edib. Bir günlük aksiyanın sonunda 900 ədəd kitab toplanıb. Toplanmış kitablar Bakı şəhərində yerləşən 1 nömrəli uşaq evinə, Xəzər rayonu Mərkəzləşdirilmiş Kitabxana Sisteminin 6 saylı Qala qəsəbə filialına, valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün müəssisəyə, Yeni Azərbaycan Partiyası Sabunçu rayon təşkilatının dəstəyi ilə 1 nömrəli tam orta internat, 10 nömrəli sanatoriya tipli internat və 11 nömrəli xüsusi internat məktəblərinə bağışlanıb. "Beynəlxalq kitab bağışlama günü" nün davamı Mərkəzi Elmi Kitabxanada keçirilib. İştirakçılar kitabxananın tarixi, mühafizə olunan fondlar, kitabxanada göstərilən xidmətlər, oxu zalları, kitab axtarışı və sifarişi prosesləri, kitabxanada mühafizə olunan uşaq ədəbiyyatı ilə tanış olub.

Tədbirdə Respublika Uşaq-Gənclər İnkişaf Mərkəzinin direktoru Firuzə Sultanzadə çıxış edərək mütaliənin əhəmiyyətindən, gənclərin dünyagörüşünün inkişafında kitabın rolundan danışıb.

Tədbirin sonunda uşaq və yeniyetmələr arasında mütaliənin təbliği məqsədilə iştirakçılara Mərkəzi Elmi Kitabxana tərəfindən Azərbaycan və dünya ədəbiyyatından kitablar hədiyyə edilib.

## "Sərgüzəşti-vəziri-xani-Lənkəran" ADMİU-nun tələbələrinin ifasında

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Beynəlxalq Muğam Mərkəzi ilə "Gənc nəsil dəvət edir" layihəsi çərçivəsində Əməkdar artist, professor Gülşad Baxşıyevanın rəhbərliyi ilə IV kurs tələbələrinin ifasında Mirzə Fətəli Axundov "Sərgüzəşti-vəziri-xani-Lənkəran" tamaşası nümayiş olunub. Tamaşa Beyrək Rüstəmzadə (Vəzir), Sona Novruzova ( Şölə xanım, rəqqasə), Nərmin Hüseynova (Ziba xanım, rəqqasə), Şəfiqə Quliyeva (Nisə xanım, rəqqasə), Ağaəli Kərimzadə (Teymur ağa), Əbülfəz İsgəndərov (Xan), Novruz Şahverdiyev (Xacə Məsud, ərizəçi), Tərlan Əliyev (Mehtər Kərim, ərizəçi), Orxan Məmmədov (Hacı Salah, Rza), Elmin Qiyaslı (Səlim bəy, Nazir ağa Bəşir), Nurlan Novruzzadə (Səməd bəy), Müşfiq Məmmədov (Fərraş, ərizəçi), Məhbubə Quliyeva (Ana, rəqqasə) və Dilarə Rzayevanın (Rəqqasə) iştirakı ilə keçib.

## "Rəssamlıq sadəcə əyləncə deyil"

**Sifai SƏFƏROVA**

### *Fuad Anzurov:* "Rəsmin öz dili, insanları düşündürə biləcək fəlsəfəsi olmalıdır"



Bu yazıda oxuculara təqdim etdiyim istedad sahibi də öz yaradıcılıq potensialı ilə diqqəti cəlb edən bir yeniyetmədir. Erkən yaşlarından sadəcə uşaq marağı ilə rəsm çəkməyə böyük həvəs göstərən həmsöhbətim illər ötdükcə bu sənətin incəliklərinə əzmkarlığı sayəsində dərindən yiyələnib və nəhayət bu müddət ərzində çoxlu sayda müsabiqələrin qalibi olub. Əminəm ki, onu dinləmək mənə necə xoş təsir bağışladısa, sizin üçün də o dərəcədə maraqlı olacaq.

### Milli üslub və qrafika

2003-cü ildə Bakı şəhərində anadan olmuşam. İlk ibtidai təhsilimi İlyas Əfəndiyev adına Elitar Gimnaziyada almışam. Hazırda paytaxtdakı Fizika-riyaziyyat və informatika təmayüllü liseyin IX sinfində təhsil alıram. Uşaqlıqdan rəsm çəkməyə həvəs göstərmişəm. Bunu nəzərə alaraq valideynlərim məni Nizami Rayon Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin rəsm dərnəyinə yazdırıblar. Dərnək müəllimim Nərminə Abdullayevanın diqqət və qayğısı sayəsində isə bu sənətin sirlərinə həvəslə yiyələnmişəm. Doğrusu, rəsm çəkməyi əvvəllər sadəcə bir əyləncə, bir hobbi sayırdım. Ağac, dağ, çay rəsmlərini rahatca çəkib əvvəlcə anama, sonra isə müəllimimə göstərirdim, onlar da baxıb,-çalışsan, daha yaxşı çəkə bilərsən,- söyləyirdilər. Mən hələ onda dərk edə bilmirdim ki, rəsmin də öz dili, insanları düşündürə biləcək dərin fəlsəfəsi olmalıdır. Sonradan öyrəndim ki, bunun adına yaradıcılıq deyirlər. Sən demə əlinə fırça alıb nəsə bir rəsm çəkəndə onu fantaziyanın süzgəcindən keçirəsən, mövzü üzərində özün kifayət qədər düşünəsən ki, tamaşaçı da düşündürə biləsən. Dərk etdim ki, rəssamlıq sadəcə bir əyləncə deyil, incə, həssas bir sahədir. Rəsmlərimdə milli üsluba, qrafikaya daha çox üstünlük verməyə çalışıram. Bütün arzularımı çəkdiyim rəsmlərdə ifadə etməyə və rənglərin dili ilə bunu səssiz-səmirsiz göstərməyə nail oluram.

### İlk fərdi sərgim

4-cü sinifdə oxuyarkən "Abşeronun övladları" sənət klubunun üzvü idim, ilk fərdi sərgim də onda keçirildi. Çox həyəcanlı idim, tamaşaçılar və sərgiyə dəvət olunan qonaqlar tərəfindən necə qarşılanacağını təsəvvür edə bilmirdim. Bu təbii hal idi, çünki zövqlər müxtəlif olduğundan rəsmlərim kimlərinsə xoşuna gəlməyə də bilərdi. Amma şükürlər olsun ki, ötəri olan bu sıxıntılı anlar sonda sevinc göz yaşları ilə əvəzləndi, hamı məni təbrik etdi, hətta bu sənətin biliciləri tərəfindən də müsbət qarşılandı. Sərgidə 29 qrafik rəsmim və 7 tablom nümayiş olundu. Sonda Abşeron Qalereyasının direktoru, sənətşünas Eldəniz İbrahimov rəsmlərim haqqında xoş sözlər söylədi və mənə yeni-yeni yaradıcılıq uğurları arzuladı. Bu, mənə bir stimul, bir ruh yüksəkliyi bəxş etdi.

### "Vergilər uşaqların gözü ilə"

Dəfələrlə həm respublikadaxili, həm də beynəlxalq rəsm müsabiqələrində iştirak edərək birincilik qazanmışam. 2008-ci ildə Hüseyn Cavid adına parkda 1 İyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə Vergilər Nazirliyinin və Tofiq İsmayılov adına Uşaq-Gənclər Yaradıcılıq Sarayının Rəsm qalereyasının təşkilatçılığı ilə "Vergilər uşaqların gözü ilə" adlı rəsm müsabiqəsi keçirildi. Sərgidə Azərbaycanın mədəniyyət və incəsənət xadimlərinin iştirakı ilə uşaqlar üçün böyük bayram şənliyi də təşkil olunmuşdu. Rəsm müsabiqəsində 5-8, 9-12 və 13-17 yaş kateqoriyalarına aid olan məktəblilər iştirak edirdilər. Tədris prosesi zamanı vergilər barədə müəllimlərimizdən və valideynlərimizdən aldığımız bilgilər sayəsində yaratdığımız rəsmlər nümayiş olundu. Bu müsabiqədə mənim fantaziyam yüksək dəyərləndirildi və II yerə layiq görüldüm.

### Diplomla mükafatlandırıldım

2010-cu ildə uşaqlar arasında keçirilən "Təmiz şəhərim" adlı rəsm sərgi müsabiqəsində qazandığım uğur da məni çox sevindirdi və II yerin sahibi oldum. 2012- ci ildəsə "Dədə Qorqud" Fondu və "Azərbaycan dünyası" beynəlxalq jurnalı tərəfindən keçirilən "Dədə Qorqud uşaqların gözü ilə" sərgisində nümayiş olunan rəsmlərimə görə diploma mükafatlandırıldım.

### Polşadan gümüş medalla

Eşidəndə ki, 2015-ci ildə Polşada XVIII beynəlxalq uşaq rəsm müsabiqəsi keçiriləcək, çox sevindim və mən də yarışa qatıldım, amma yenə də çox həyəcanlı idim. Bilirdim ki, beynəlxalq müsabiqələrə olduqca sanballı mütəxəssislər tərəfindən yüksək qiymətləndirilən əsərlər təqdim olunur. Bu məsuliyyəti dərindən dərk etdiyimə görə bəlkə həvəsləndirici mükafatla da qane olardım. Amma sonda həyəcanıma heç bir əsasın olmadığının şahidi oldum və gümüş medala layiq görüldüm. Sanki, onda mənə bir dünya sevinc bəxş edildi. Qazandığım uğurlar məni ruhlandırır, daha məhsuldar çalışmağıma təkan verir. Bunun bəhrəsidir ki, növbəti il bir-birinin ardınca Polşada tanınmış rəssam Van Qoqa həsr olunmuş beynəlxalq uşaq rəsm sərgisində, Sloveniyada keçirilən XXII beynəlxalq uşaq və Xətai İncəsənət Mərkəzində keçirilən "Mənim düşüncəm" adlı rəsm müsabiqələrində rəsm əsərlərim I yerləri qazandı.

### "Mənim düşüncələrim"

2017-ci il mənə daha bol sevinc hissləri yaşatdı. Yunanıstanda keçirilən "Musiqi yollarında" adlı VII beynəlxalq rəsm müsabiqəsində I yerin sahibi oldum. Həmin ilin 24 mayında "Mənim rəngli düşüncələrim" adlı ikinci fərdi sərgim keçirildi. Sərgidə 50-dan çox rəsm əsərim nümayiş olundu. Burada həm sulu, həm də yağlı boya ilə işlənmiş rəsm əsərlərim təqdim olunurdu. Sərgidə çoxlu qonaqlar, müəllimlər və məktəb şagirdləri iştirak edirdilər. Üzlərdəki təbəssüm hisslərindən razılıq ifadələri oxunurdu. Müəllimlərim, sinif yoldaşlarım, dostlarım da sevinclərini gizlədə bilmirdilər. Bu, mənim üçün olduqca xoş idi, çünki bu xoş əhval-ruhiyyəni onlara yaşadan mənim əsərlərim, rənglərin dili ilə möcüzələr yaradan fırçam idi.

### Qran-pri mükafatı

Ümumiyyətlə, 2017-ci il mənim üçün çox uğurlu olub. 2017-ci ilin mayında IV İslam Həmrəyliyi Oyunları Respublika təsviri sənət müsabiqəsinin Qran-pri mükafatını qazanmışam. Bolqarıstanın Nova Zagora şəhərində keçirilən XIX beynəlxalq rəsm müsabiqəsində diploma, Finlandiyada keçirilən "Birlikdə" adlı XVI beynəlxalq və ölkəmizdə keçirilən "Dostluğun sehri" adlı II beynəlxalq uşaq rəsm müsabiqələrində II yerlərin qalibi olmuşam. Hindistanda keçirilən IX uşaq və gənclərin beynəlxalq rəsm müsabiqəsində isə münsiflər heyətinin xüsusi diplomuna layiq görülmüşəm.

...Məktəbdə də nümunəvi şagirdlərdən biriyəm. Riyaziyyat fənninəsə daha çox maraq göstəriirəm. Mən həm də I dərəcəli şahmatçıyam. Gələcəkdə beynəlxalq yarışlarda bu idman növünün də şərəfini qorumağı qarşıma məqsəd qoymuşam.

# UNEC-in şəhid məzununun xatirəsi anılıb

## Şəhid atası: "Övladımın şəhidliyi mənə minlərlə oğul qazandırdı"

Azərbaycan Dövlət İqtisad Universitetində aprel şəhidi, UNEC-in məzunu Mahir Mirzəyevin xatirəsi anılıb.

UNEC-in İqtisadiyyat fakültəsində keçirilən tədbirdə şəhidin müəllimləri, dostları, döyüş yoldaşları və ailə üzvləri iştirak ediblər.

Öncə torpaqlarımızın azadlığı uğrunda canından keçən bütün şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Şəhid məzunun tələbəlik dövründən bəhs edən İqtisadiyyat fakültəsinin dekanı, dosent Asiman Quliyev Mahirin məsuliyyətli, çalışqan olmaqla yanaşı, eyni zamanda vətənpərvərliyi ilə hamının sevimlisinə çevrildiyini qeyd edib. Millət vəkili, UNEC-in "Qiymət və qiymətləndirmə" kafedrasının müdiri, professor Xanhüseyn Kazımlı xalqımızın vətənin bütövlüyü, azadlığı uğrunda canından keçmiş qəhrəman övladlarına həmişə dəyər verdiyini, şəhidlərimizin xatirəsinin qəlbimizdə daim yaşayacağını vurğulayıb. O, UNEC ailəsinin Mahir kimi qəhrəmanlarla qürur duyduğunu bildirib.

M.Mirzəyevin atası Sabir Mirzəyev oğlunun gənc yaşda dünyadan köçməsini faciə hesab etsə də, onun vətən uğrunda şəhid olmasını qürurverici məqam adlandırıb. Mahirin şəhidliyinin ona minlərlə oğul qazandırdığını deyən S.Mirzəyev Lələtəpə yüksəkliyinin işğaldan azad edilməsi uğrunda Mahirlə birlikdə şəhid olanların açdığı zəfər yolunun xalqımızın tarixinə şərəflə yazıldığını vurğulayıb.

UNEC-in I kurs magistri, şəhidin bacısı Aygül Mirzəyeva, Mahirin qrup yoldaşları və döyüşçü dostları onunla bağlı xatirələrini bölüşüb, dostlarının həyata keçməyən arzularının bu gün onların əməllərində yaşadığını bildiriblər. Tədbirdə Mahirin tələbəlik illərindən hazırlanan videoçarx nümayiş etdirilib.

Qeyd edək ki, Mahir Mirzəyev 2015-ci ildə UNEC-in İqtisadiyyat fakültəsindən məzun olaraq, hərbi xidmətə yollanıb. Mahir 2016-cı ildə, aprel döyüşlərində cəbhənin Tərtər rayonu istiqamətində qəhrəmanlıqla şəhid olub. O, aprelin 9-da torpağa tapşırılıb.

# İlk dərslər Xocalı soyqırımına həsr ediləcək

Bakı Şəhəri üzrə Təhsil İdarəsinin tabeliyində fəaliyyət göstərən ümumi təhsil müəssisələrində fevralın 26-da ilk dərslər Xocalı soyqırımına həsr ediləcək.

Təhsil Nazirliyinin əmri ilə təsdiqlənmiş "Xocalı soyqırımının iyirmi altıncı ildönümünün keçirilməsi barədə Tədbirlər Planı"na və Bakı Şəhəri üzrə Təhsil İdarəsinin müvafiq əmrinə əsasən tədris olunacaq dərslər ölkəmizin müstəqilliyi uğrunda mübarizədə canlarını qurban verən vətən övladlarının xatirəsini yad etmək, böyümədə olan nəslə XX əsrin ən dəhşətli faciəvi hadisələrindən olan Xocalı soyqırımı haqqında ətraflı məlumat vermək, onlarda düşmənə qarşı barışmazlıq hissi, Vətənə, doğma torpağa sədaqət və məhəbbət duyğularını gücləndirmək və Xocalı soyqırımı haqqında həqiqətləri çatdırmaq məqsədlərinə xidmət edir.

Dərslər Azərbaycanın müstəqilliyi uğrunda qurban gedən şəhidlərin və Xocalı qurbanlarının əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayacaq.

Müəllimlər dərs zamanı Xocalının tarixi, coğrafi mövqeyi, faciədən əvvəl əhalinin sayı və tərkibi, iqtisadi göstəriciləri, təhsil, səhiyyə, mədəniyyət ocaqları, tarixi-mədəni abidələri, görkəmli şəxsiyyətlərindən söhbət açacaqlar. Eyni zamanda, faciə nəticəsində öldürülən, ağır yaralanan, itkin düşən, girov götürülən sakinlərin statistikası və soyqırımı törədənlərdən bəhs edəcəklər.

Xocalı soyqırımının iyirmi altıncı ildönümü ilə əlaqədar təhsil müəssisələrinin müəllim və şagird kollektivi soyqırım şəhidləri ilə görüşəcək, "Ana fəryadı" abidəsini ziyarət edəcəklər.


## "AZƏRBAYCAN MÜƏLLİMİ"

Qəzet 1934-cü ildən çıxır

**Baş redaktor**
Nurəddin Heydərov 538-21-66

**Mühasibatlıq** 539-67-74

**Reklam və elanlar** 539-20-77 (tel./faks)

**Ünvan:** AZ-1100, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə 23 M, Mətbuat Evi, 5-ci mərtəbə

Qəzet "Azərbaycan müəllimi"nin kompüter mərkəzində yığılır və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet hər həftənin cümə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı 5 saylı "Mətbuat şöbəsi"
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

"Azərbaycan müəllimi" qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya** № 022327, **İndeks:** 0003, **Tiraj** 4904, **Sifariş** 552

**Məsul növbətçi:** Y.Əliyev


# Olimpiya çempionluğuna doğru

## 29 yarışda 29 medal qazanan paytaxt məktəblisi

**Rəşad ZİYADOV**



Paytaxt məktəblisi Rəşad Əhmədov idmanın cüdo növü üzrə yanvarın 27-də Türkiyədə keçirilən beynəlxalq turnirdə iştirak edib. Qardaş ölkədə 200-ə yaxın idmançının qatıldığı turnirdə həmyerlimiz bütün rəqiblərinə qalib gələrək beynəlxalq turnirin qalibi olub.

Bakıdakı 13 nömrəli tam orta məktəbin VI sinif şagirdi olan Rəşad Əhmədov çempionatda 34 kiloqram çəki dərəcəsində çıxış edib.

Rəşad Əhmədov Türkiyənin Gənclik və İdman Nazirliyi tərəfindən qızıl medal və diploma təltif olunub. Məlumat üçün deyək ki, Rəşad 2006-cı ildə Bakıda anadan olub. Beş ildir ki, idmanla məşğul olur. 4-5 yaşlarında valideynlərinin istəyi ilə əvvəlcə kikqboksinqə, 2014-cü ildən isə cüdo idman növü üzrə məşqlərə gedib. O, təcrübəli məşqçi-müəllim Elçin İbrahimovdan bu idman növünün sirlərini öyrənməyə başlayıb. Rəşad Əhmədov Türkiyədən başqa 2016-cı ilin oktyabr ayının 30-da Dərbənddə 350 idmançının iştirakı ilə təşkil olunan turnirdə II, 2017-ci ilin mayın 22-də İranda keçirilən beynəlxalq turnirdə I, oktyabrın 26-da Gürcüstanda 250 cüdoçunun qatıldığı yarışda isə III yerə layiq görülüb. Ümumilikdə, 29 yarışda iştirak edən məktəblimiz 11 qızıl, 6 gümüş və 12 bürünc medal qazanıb. Arzusu gərgin keçən məşqlərin nəticəsində yarışlarda qızıl medal qazanmaq və ölkəmizin idman şərəfini uca tutaraq olimpiya çempionluğu yolunda büdrəmədən irəliyə doğru getməkdir. Biz də ona bu şərəfli yolda uğurlar arzulayırıq.

# Etibarsız sayılır

**Azərbaycan Dövlət İncəsənət İnstitutu** tərəfindən 1990-cı ildə Mehtiyev Telman Hüseynqulu oğluna verilmiş УВ-I-109192 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2017-ci ildə Əlizadə İsmayıl Nəriman oğluna verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 195 nömrəli tam orta məktəbin IX sinfini 1998-ci ildə bitirmiş Quliyeva Aynurə Səməd qızına verilmiş AR-00748 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 269 nömrəli tam orta məktəbi 2000-ci ildə bitirmiş Xudakərimova Günel İsa qızına verilmiş A-403787 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** nəzdində Maliyyə İqtisad Kolleci tərəfindən 2017-ci ildə Əliyeva Səltənət Fərman qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 280 nömrəli tam orta məktəbi 2017-ci ildə bitirmiş Nəsibov Nicat Həmid oğluna verilmiş E-014653 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Beyləqan şəhər** 4 nömrəli tam orta məktəbi 2007-ci ildə bitirmiş Ramizli Elbəy Üzeir oğluna verilmiş B-458910 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Xaçmaz rayonu** Arzu qəsəbə tam orta məktəbini 2016-cı ildə bitirmiş Hacımuradov Rüfət Zahid oğluna verilmiş 531349 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Qax rayonu** Tasmalı kənd tam orta məktəbinin IX sinfini 2011-ci ildə bitirmiş Abdurahmanov Fəhmin Ramis oğluna verilmiş A-112781 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Saatlı rayonu** Smadakənd kənd tam orta məktəbini 2016-cı ildə bitirmiş Qocaliyev Musa Əziz oğluna verilmiş A-575653 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2015-ci ildə Həsənov Murad Ömər oğluna verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 276 nömrəli tam orta məktəbi 1988-ci ildə bitirmiş Səmədova Zülfiyyə Cəfər qızına verilmiş 462793 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 5 nömrəli tam orta məktəbi (keçmiş 292 nömrəli məktəb) 2004-cü ildə bitirmiş Məmmədova Aygün Faiq qızına verilmiş B-009720 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 128 nömrəli tam orta məktəbi 1992-ci ildə bitirmiş Hüseynova Kamilə Vəlimməməd qızına verilmiş A-142253 nömrəli attestat tapıldığı üçün etibarlı sayılır.

**ADNSU nəzdində Bakı Neft Energetika Kolleci** tərəfindən 2014-cü ildə Teymurov Elvin Ərziman oğluna verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Bakı Qızlar Universiteti** tərəfindən 2016-cı ildə Abbasova Əfsanə İbadat qızına verilmiş A-086657 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Neft Akademiyası** tərəfindən 2013-cü ildə Həsənli Elçin Aydəmir oğluna verilmiş A-017430 nömrəli bakalavr diplomuna əlavə itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt Dövlət Universiteti** tərəfindən 2008-ci ildə İskəndərov Kənan Rafiq oğluna verilmiş B-137694 nömrəli fərqlənmə bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 102 nömrəli tam orta məktəbin IX sinfini 1992-ci ildə bitirmiş Əsgərova Ellada Maksim qızına verilmiş A-588103 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 111 nömrəli tam orta məktəbi 2015-ci ildə bitirmiş Qədirov Hakim Fuad oğluna verilmiş A-400151 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Salyan rayonu** Yenikənd kənd tam orta məktəbini 2007-ci ildə bitirmiş Nəsirova (Dünyamalıyeva) Türkən Azər qızına verilmiş B-467068 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Şəki rayonu** Aşağı Göynük kənd tam orta məktəbini 2000-ci ildə bitirmiş Abdurahmanov Anar Məmməd oğluna verilmiş A-415121 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad şəhər** 4 nömrəli tam orta məktəbin IX sinfini 1986-cı ildə bitirmiş Hüseynov Teymur Ataxan oğluna verilmiş 007388 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 34 nömrəli tam orta məktəbin IX sinfini 2007-ci ildə bitirmiş Nuriyeva (Talıblı) Səbinə Vidadi qızına verilmiş A-494542 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 18 nömrəli tam orta məktəbi 2005-ci ildə bitirmiş Sadıqova Gülrux Namiq qızına verilmiş B-137474 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 29 nömrəli tam orta məktəbi 2001-ci ildə bitirmiş Həsənova Vüsalə Şadman qızına verilmiş A-520449 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 16 nömrəli tam orta məktəbi 2001-ci ildə bitirmiş İsmayılov Amin Vahid oğluna verilmiş A-523696 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**ADNSU nəzdində Bakı Neft Energetika Kolleci** tərəfindən 2015-ci ildə Mirzəyev Şahmar İlkin oğluna verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**İmişli rayonu** Əliyetməzli kənd tam orta məktəbini 2005-ci ildə bitirmiş Rəhimova Afət Mürşüd qızına verilmiş B-212479 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 83 nömrəli məktəb-liseyi 2014-cü ildə bitirmiş İsmayılov Kamil Möhlət oğluna verilmiş A-297299 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Füzuli rayon** Böyük Bəhmənli kənd 1 nömrəli tam orta məktəbi 2003-cü ildə bitirmiş Məmmədov Ceyhun Eyvaz oğluna verilmiş 649726 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 10 nömrəli tam orta məktəbi 2005-ci ildə bitirmiş Mirzəyev Rufin Mirzəli oğluna verilmiş B-138072 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 160 nömrəli tam orta məktəbi 2000-ci ildə bitirmiş İsayeva Səbinə Ramiz qızına verilmiş A-457402 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Zəngilan rayon** 15 nömrəli tam orta məktəbi 2006-cı ildə bitirmiş Əhmədova Aytən Məhəmməd qızına verilmiş B-341735 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2004-cü ildə Qurbanov Vüqar Səfər oğluna verilmiş B-005591 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 312 nömrəli tam orta məktəbin IX sinfini 2010-cu ildə bitirmiş Fərzullayeva Elvira Fəxrəddin qızına verilmiş A-984330 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 27 nömrəli tam orta məktəbi 2008-ci ildə bitirmiş Zahidova Günel Fikrət qızına verilmiş B-446365 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 190 nömrəli tam orta məktəbi 2014-cü ildə bitirmiş Əkbərov Emin Elmar oğluna verilmiş 306604 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Biləsuvar şəhər** 4 nömrəli tam orta məktəbin VIII sinfini 1982-ci ildə bitirmiş Kərimova Yenigül Teymurəli qızına verilmiş AZ-II-393554 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Biləsuvar rayon** şəhər 2 nömrəli tam orta məktəbini 2006-cı ildə bitirmiş Abdullazadə Əbəlfəz Vaqif oğluna verilmiş B-334220 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Biləsuvar rayonu** Zəhmətabad kənd tam orta məktəbini 2006-cı ildə bitirmiş Abdullayeva Vüsalə Vaqif qızına verilmiş B-334622 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Beyləqan rayonu** Çəmənli kənd tam orta məktəbi 2001-ci ildə bitirmiş Ağayeva Aysel Ağaqulu qızına verilmiş A-408113 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**5 nömrəli Bakı Peşə Liseyi** tərəfindən 2012-ci ildə İbrahimov Səhram Nurəddin oğluna verilmiş A-018692 nömrəli diplom və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Bakı Özəl Türk Liseyini** 2002-ci ildə bitirmiş Celik Emrah Mehmet oğluna verilmiş A-589908 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

# ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Təhsil Nazirliyinin Maliyyə şöbəsinin müdiri Rauf Orucov və şöbənin kollektivi Təhsil İnstitutunun direktor müavini Faiq Şahbazlıya atası

**ŞABAN MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Təhsil Nazirliyinin Tədris resursları şöbəsinin əməkdaşları Təhsil İnstitutunun direktor müavini Faiq Şahbazlıya atası

**ŞABAN MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikasının Təhsil İnstitutunun rəhbərliyi və kollektivi institutun Elmi-Pedaqoji Mərkəzinin direktoru, filologiya üzrə fəlsəfə doktoru, dosent Faiq Şahbazlıya atası

**ŞABAN ŞAHBAZLININ**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bakı Slavyan Universitetinin rektoru, professor Nurlana Əliyeva, BSU-nun Həmkarlar Təşkilatı və professor-müəllim heyəti Rus ədəbiyyatı tarixi kafedrasının dosenti Solmaz Bəşirovaya oğlu

**RÜSTƏM BƏŞİROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"Azərbaycan müəllimi" qəzetinin kollektivi iş yoldaşları Şakir Cəfərova anası

**ƏRKİNAZ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Xəzər rayon TİAHİ-nin sədri Həzərxan Əbilov və 181 nömrəli tam orta məktəbin pedaqoji kollektivi məktəbin direktoru Nazilə Məmmədovaya xalası

**SOLMAZ HADIYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bakı Slavyan Universitetinin Rus ədəbiyyatı tarixi kafedrasının kollektivi kafedranın dosenti Solmaz Bəşirovaya oğlu

**RÜSTƏM BƏŞİROVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

# İngilis dilini öyrənənlər üçün dərs nümunələri

BRITISH COUNCIL

LearnEnglish


British countryside - the Lake District


The stone ‘staircase’ of the Giant’s Causeway in Northern Ireland


Lake Windermere, the biggest lake in the Lake District

## Activity 1

Match the word with a definition.

| | | | |
|---|---|---|---|
| 1. destination | 2. era | 3. fossil | 4. legends |
| 5. marine | 6. varied | 7. wild | |

a. a long, distinct period of time
b. bones of an animal from a long time ago
c. found in the sea
d. natural and independent of man
e. of different kinds
f. popular stories from long ago
g. the end of a journey

## Activity 2

You are going to read a text about the British countryside. Try to guess which of these topics will be in the text.

| | | |
|---|---|---|
| mountains | writers | animals |
| language | dinosaurs | a giant |

Now read the text and find out if you were correct.

## Countryside

Many visitors to the UK only go to London and never see the rest of the country. This is a pity because it is very varied, especially in Britain’s national parks.

The Cairngorms in northern Scotland has the highest mountains and is good for skiing. Fishing and climbing are also popular. There are plenty of interesting wild animals too, including deer and eagles.

A popular destination in England is the Lake District. Visitors have travelled here since 1847, especially to its biggest lake, Windermere.

Snowdonia, in Wales, was one of the first national parks, created in 1951. People still speak Welsh there, and you can visit castles and beautiful beaches.

On the south coast of England, you can find fossils from the Jurassic era – the first marine dinosaur was found here in the early 19th century.

Across the Irish Sea is the Giant’s Causeway – volcanic rocks which look like a staircase. Legends say it was built by a giant called Finn McCool to walk to Scotland and fight his enemy.

There is so much to see, so get out into the British countryside!

## Activity 3

True or false?

1. You can go skiing and climbing in the Cairngorms.
2. People have visited the Lake District for more than 150 years.
3. Snowdonia is one of the youngest national parks.
4. Dinosaurs lived in the sea in southern England.
5. The Giant’s Causeway was formed by a volcano.

## Activity 4

Complete the gaps with one of the words from the box.

| | | |
|---|---|---|
| varied | marine | legends |
| wild | destination | era |

1. I didn’t like having lunch at school; the food wasn’t very ................
2. Dolphins are ................ animals.
3. Today we are living in the ................ of the Internet and social media.
4. She’s reading a book about Greek ................
5. We went on a safari to Africa – it was exciting to see ................ animals so close.
6. It is a long journey – we don’t arrive at our ................ until tomorrow.

## Activity 5: Discussion topics

What are popular tourist destinations in your country?
What can you see in the national parks in your country?

**Useful links >**

This content on video: http://learnenglish.britishcouncil.org/en/britain-great

UK Association of National Park Authorities: www.nationalparks.gov.uk

**Answers**

Activity 1: 1. g; 2. a; 3. b; 4. f; 5. c; 6. e; 7. d

Activity 2: mountains, animals, language, dinosaurs, a giant

Activity 3: 1. True (T); 2. T; 3. False (F); 4. T; 5. T

Activity 4: 1. varied; 2. marine; 3. era; 4. legends; 5. wild; 6. destination

To find more English language activities visit:
http://learnenglish.britishcouncil.org

© British Council 2013

COUNTRYSIDE IS GREAT BRITAIN